QƏNİRƏ PAŞAYEVA
HƏVVA MƏMMƏDOVA

# XOCALI SOYQIRIMI

## Şahidlərin dilindən

«Elm və təhsil»
Bakı - 2011

***Redaktor:*** **Əkbər Qoşalı (Yolçuyev)**
*Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri,*
*Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı*

**Kitab «Texnikabank» ASC-nin dəstəyi ilə nəşr olunmuşdur.**

**Qənirə Paşayeva, Həvva Məmmədova**
**Xocalı soyqırımı: Şahidlərin dilindən.**
**Bakı, «Elm və təhsil», 2011.-288 səh.**

Kitabda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələrinin Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Azərbaycanın Xocalı şəhərini işğal edərək orada yaşayan azərbaycanlılara qarşı törətdiyi soyqırım barədə ətraflı məlumatlar öz əksini tapır. Burada Xocalı soyqırımının şahidləri olmuş və canlarını zorla qaçıb qurtara bilmiş; ailə üzvləri, yaxınları gözləri qarşısında qətlə yetirilmiş insanların; Ermənistan Silahlı Qüvvələri tərəfindən əsir və girov götürülmüş, ağır işgəncə və əzablar verilmiş (sonradan Azərbaycanın böyük çətinliklərlə geri ala bildiyi) bir çox Xocalı sakininin xatirələri öz əksini tapır. Bu kitabda sadəcə şahidlər və faktlar danışır! Onlar Ermənistanın 20-ci yüzilliyin sonunda bütün dünyanın gözləri qarşısında törətdiyi soyqırımdan və ermənilərin tamamilə dağıtdıqları Xocalı şəhərindən söz açırlar...

***KİTABDA***
***Heydər Əliyev Fondunun,***
***Azərbaycan Respublikası Milli Məclisinin,***
***Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin,***
***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin,***
***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin,***
***Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sənədlərindən istifadə edilmişdir.***

**ISBN 978-9952-8142-7-9**

**«Elm və təhsil», 2011**

## ƏZİZ OXUCU!

Ermənistan Silahlı Qüvvələri 1992-ci il, fevralın 25-dən 26-na keçən gecə Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Azərbaycanın Xocalı şəhərini işğal edərək orada yaşayan etnik azərbaycanlılara (Azərbaycan türklərinə) qarşı dəhşətli SOYQIRIM həyata keçirdi. Çox təəssüf ki, bütün dünyanın gözləri qarşısında törədilmiş bu SOYQIRIMa dünya ictimaiyyəti, zamanında lazımi reaksiyanı vermədi. O SOYQIRIMın qurbanı olmuş insanların, canını sağ qurtara bilmiş yaxınları; Ermənistan silahlı qüvvələrinin Xocalıda əsir və girov götürərək dəhşətli işgəncələr, əzablar verdiyi yüzlərlə qadın, uşaq və yaşlılar (Azərbaycanın sağ geri ala bildiyi Xocalı sakinləri); bu soyqırım üzündən ailəsi ilə bərabər bütün uşaqlıq illərini itirmiş uşaqlar; siqaret közü ilə gözləri yandırılmış, bədəni damğalanmış qadınlar (və uşaqlar); bütün övladları ilə yanaşı yaşama arzusunu da itirmiş analar və atalar; SOYQIRIM qurbanı olmuş Xocalının (və Xocalılıların) ruhu, sadəcə bir şey istəyir (və gözləyir):

**ƏDALƏT!!!**

Onların səsinə SƏS VERMƏK, onların haqlı tələblərinə dəstək vermək, bu soyqırımı törədənlərin ƏDALƏT qarşısında cavab verməsi üçün ÇALIŞMAQ hər bir insanın ən azı İNSANLIQ borcudur!

Bu kitabı oxuduqdan sonra ətrafınızdakı hər kəsə oradan – yəni XOCALIdan danışın!

XOCALI SOYQIRIMını törədənlərin dünya səviyyəsində qınaq obyektinə çevrilməsi üçün bu məlumatları hər yerə, hər kəsə daha geniş yayın!

XOCALI SOYQIRIMInı törədənlərin ədalət məhkəməsi qarşısında dayanması üçün əlinizdən gələni əsirgəməyin!

Bu kitabı oxuduqdan sonra XOCALI SOYQIRIMIndan canını sağ qurtara bilmiş Azərbaycanlılara səsinizi, sözünüzü çatdırmaq, bu kitabın növbəti nəşrləri barədə öz arzu və təkliflərinizi bildirmək istəyirsinizsə bu ünvanlara yazın:

**fond05@mail.ru, havva _mamedova@mail.ru**

**Xocalı soyqırımı - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələrinin Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Azərbaycanın Xocalı şəhərini işğal edərək, orada yaşayan etnik azərbaycanlılara qarşı törətdiyi SOYQIRIM AKTIdır!**

**Xocalı soyqırımı** - XX yüzilin ən dəhşətli və qəddar faciələrindən biridir. Eyni zamanda bu soyqırım Ermənistanın Azərbaycan torpaqlarını işğalı zamanı törətdiyi ən dəhşətli qətliamlardan biridir.

1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədilmiş, insanlıq dramı yaşanmışdır. Bu soyqırım yüzlərlə azərbaycanlının (o cümlədən bir çox ailələrin bütün üzvlərinin) məhv edilməsi; əsir, girov götürülməsi və itkin düşməsi, ağır yaralanması, sağlamlıqlarını itirmələri ilə nəticələnmiş; şəhər yerlə-yeksan edilmişdir.

**25-26 fevral 1992-ci il tarixində Xocalı şəhəri sakinlərinin, o cümlədən uşaqların, yaşlıların və qadınların qəsdən qırğını onların... yalnız azərbaycanlı olmaları (yəni milli(-dini) mənsubiyyətləri) səbəbindən kütləvi məhvi məqsədini daşıyırdı. (Bunun adı beynəlxalq hüquqda SOYQIRIM adlanır!) Ermənilər insanların ürəyinə qorxu salaraq (dəhşətli vahimə yaradaraq), Xocalı şəhərini Azərbaycan ərazilərinin sonrakı işğalı və etnik təmizlənməsi üçün mərhələ kimi seçmişdilər...**

1992-ci il fevralın 25-dən 26-na keçən o dəhşətli, müdhiş gecədə nələr baş vermədi.?!

O sərt, şaxtalı qış gecəsində elə bil qar üstünə qan yağırdı.

Həmin gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı, səhər saat 05 radələrində Xocalı tam alova büründü.

Xocalı sakinləri hücum başlayandan sonra azərbaycanlıların yaşadığı ən yaxın yerə yol tapıb qaçmaq ümidi ilə evlərini tərk etməyə cəhd göstərdilər, lakin buna da imkan verilmədi. Xocalını işğal etmiş Ermənistan silahlı qüvvələri dinc əhalini xüsusi qəddarlıqla qətlə yetirməyə başladılar. - Dəhşətli bir gecə idi. - Hər tərəfdə alov; qətlə yetirilən insanların fəryadları; yaxınları gözləri önündə qətlə yetirilən insanların qışqırıq səsləri; soyuq və qaranlıq gecədə dəhşətlər içərisində yuxudan oyanan uşaqların vahimə və qorxu içərisində ağlaşması; qaçmağa belə macal tapmayan qocaların naləsi...

O qaranlıq, müdhiş gecədə canını qurtarmaq üçün çöllərə, meşələrə üz tutan Xocalı sakinləri müsibətlərlə qarşılaşdılar. Ermənistan silahlı qüvvələri qaçıb canını qurtarmaq istəyən silahsız dinc insanları güllələyir, ələ keçirdiklərini vəhşicəsinə qətlə yetirirdilər. Körpə uşaq, yaşlı demədən insanların gözlərini çıxarır, başını kəsir, dərisini soyur, hamilə qadınların qarınlarını deşir, qadınların

döşlərini kəsir, övladlarını anaların gözləri qabağında işgəncələrlə öldürürdülər. Küçələr, yollar insan meyiti ilə dolmuşdu.

Xocalı sakinləri heç vaxt ağıllarına belə gətirə bilməzdilər ki, ancaq yaxşılıq etdikləri "qonşu"ları bunca vəhşiləşsin; insan qanına susayan hərbiçilərin iştirakı ilə qocaya, uşağa, qadına belə rəhm etməsin; hətta insanları öldürdükdən sonra, meyitlər üzərində ağlasığmaz hərəkətlərdə bulunsunlar. Amma Azərbaycanlıların ömrü boyu suyunu, çörəyini əsirgəmədiyi "qonşular" havadarlarının silahlı dəstəyi ilə XX yüzilin 92-ci ilində bəşəriyyətə yeni bir İNSANLIQ DRAMI yaşatdılar - heç kəsə rəhm etmədən... Hətta körpələrə belə... **(Kitabın sonrakı səhifələrində soyqırım zamanı orada olmuş bəzi ermənilərin sonradan bu barədə yazdıqları və soyqırımdan sonra Xocalıda olmuş xarici jurnalistlərin bununla bağlı fikirləri əks olunur.)**

Yüzlərlə cəsəd arasında 1 yaşlı ac körpə anasının kəsilmiş qanlı döşlərini ağlaya-ağlaya sorurdu. Bu, soyqırımdan qaçıb canını qurtara bilmiş insanların göz yaddaşında qalan yüzlərlə vəhşilik səhnələrindən yalnız biridir! (Onların xatirələrini irəliləyən səhifələrdə oxuyacaqsınız.)

Xocalıda əhalinin naləsi göyə, ərşə qalxmışdı. Beləcə, Xocalı işğalçı Ermənistan tərəfindən yandırıldı, əhalisi soyqırıma məruz qaldı, şəhər yerlə-yeksan edildi. Çağdaş dünyanın gözü qarşısında Xocalı adlı bir şəhər yer üzündən silindi!

Qaçaraq, Xocalıdan bir az uzaqlaşıb meşədə gizlənmiş insanlar belə, Ermənistan silahlı qüvvələri tərəfindən təqib olunaraq qətlə yetirilir, sağ ələ keçənlər isə əsir və girov götürülürdülər. Xüsusilə gənc qızlar, qadınlar...

Qaçıb meşələrdə gizlənə bilmiş onlarla azərbaycanlı günlərlə meşələrdə ac-susuz qalmaqdan, dəhşətli soyuqdan tələf olurdular. Ağır yaralanmış onlarla Xocalı sakini (o cümlədən qocalar, uşaqlar) qanaxmasından ölürdülər. Çünki Ermənistan silahlı qüvvələri onların qaçıb canını qurtara biləcəyi bütün yolları mühasirəyə almışdılar. Ölümə məhkum olmuş bu insanlar, "bəlkə qaçıb canımı qurtara bildim, onsuz da burda sonum ölümdü" düşüncəsi ilə gecələr qaranlıq düşdükdən sonra Ağdama doğru sürünürdülər: soyuqda, qarın üstündə, ac-susuz, taqətsiz... Bu yolla da çox az adam dəhşətli ölümdən canını qurtara bildi.

Həmin gecə Xocalı sakinləri ilə bərabər, 1988-ci ildə Ermənistandan qaçqın düşərək Xocalıya pənah gətirmiş qaçqın və məcburi köçkün azərbaycanlılar; Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin mərkəzi olan Xankəndi şəhərini işğal edən zaman qaçıb canını qurtarmış Xankəndi qaçqınları və 1989-cu ildə Fərqanə (Özbəkistan) olayları zamanı Azərbaycana sığınmış Axısxa türkləri *(onlar **54 ailə** idi)* də bu dəhşətli soyqırımın qurbanı oldular.

***(Qeyd:*** *Ermənistan ərazisinin böyük bir hissəsi tarixi Azərbaycan torpaqlarıdır. Rusiya imperiyası və SSRİ dövründə zorla Azərbaycandan alınaraq ermənilərə verilən bu torpaqlardan azərbaycanlılar bir neçə dəfə zorla deportasiya olunmuşlar.*

*Ermənistanda aparılan bu deportasiyalardan sonra azərbaycanlılar öz ata-baba torpaqlarında çoxluqdan azlığa çevrilmişdilər. Bütün bu deportasiya və əziyyətlərə baxmayaraq 1988-ci ilə qədər orada (qədim Azərbaycan torpaqlarında (oğuz-türk yurdunda) 250 min azərbaycanlı yaşamaqda davam edirdi. 1988-ci ildə monoetnik dövlət qurmaq istəyən Ermənistan rəhbərliyi etnik təmizləmə siyasəti apararaq bütün azərbaycanlıları zorla Ermənistandakı ata-baba yurdlarından qovdular. Bu gün orada bir nəfər də olsun azərbaycanlı yaşamır. Bu, çağdaş dünyanın gözü qarşısında baş verən dəhşətli etnik təmizləmə siyasəti idi. Amma dünya bu faciəyə çox laqeyid yanaşdı!)*

## XOCALI SOYQIRIMI ZAMANI

**613 nəfər azərbaycanlı, o cümlədən**
**106 QADIN,**
**63 UŞAQ,**
**70 QOCA vəhşicəsinə qətlə yetirilmişdir.**
**59 nəfər XÜSUSİ QƏDDARLIQLA QƏTLƏ YETİRİLMİŞDİR. (-Diri-diri yandırılmış, başının dərisi soyulmuş, boynu vurulmuş, gözləri çıxarılmış və... hamilə qadınların qarnı süngülənmişdir.)**
**8 AİLƏ tamamilə MƏHV edilmişdir.**
**25 uşağın valideyninin hər ikisi qətlə yetirilmişdir.**
**130 uşağın valideynlərindən biri qətlə yetirilmişdir.**
**76 uşaq şikəst edilmişdir.**
**1275 nəfər əsir və girov götürülmüş, 150 nəfər qız-gəlinin taleyi isə bu günədək naməlum olaraq qalır...**
**Soyqırım zamanı 487 nəfər şikəst edilmişdir.**

## XOCALI - ƏSAS HƏDƏF

***Erməni silahlı dəstələrinin Xocalıya hücumunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. 7000 nəfər əhalisi olan Xocalı Xankəndindən 10 km güney-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da Xocalıdaydı.***

***Xocalı əhalinin tarixən məskunlaşdığı qədim yaşayış yerlərindəndir və qədim (tarixi) abidələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII yüzillərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdır. Həmçinin, Xocalı ərazisində memarlıq abidələri - dairəvi qəbir (1356-1357-ci illər) və movzoley (XIV yüzil) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən hazırlanmış ev əşyaları və s. tapılmışdır. (Ərazidən tapılmış***

***muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır.)***

Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur.

Sonralar erməni tərəfi etiraf etmişdir ki, erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əsgəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan hava limanının ələ keçirilməsi idi.

"Xocalı platsdarmının məhv edilməsi" sözlərinə diqqət yetirin. Misli görünməmiş insanlıq dramından sonra söylənilən bu ifadə ermənilər tərəfindən törədilmiş qanlı qırğının, uşaqların, qadınların, qocaların kütləvi surətdə məhv edilməsinin səbəbini aydın göstərir.

## FACİƏNİN XRONİKASI

**Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olaraq vertolyot əlaqəsi qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin faciəli surətdə həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi.**

**Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi.**

**Bir sözlə, şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır, müdafiə edilirdi. (Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, (o zamankı adı ilə desək) milis və yenicə yaranmış Milli Ordu döyüşçülərinin hesabına təşkil olunurdu.)**

**Fevralın ikinci yarısından başlayaraq, Xocalı Ermənistan Silahlı qüvvələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni silahlılarının həmlələrinə məruz qalırdı. Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Azərbaycanın Xocalı şəhərini işğala başlayaraq, orada yaşayan etnik azərbaycanlıları vəhşicəsinə qətlə yetirməyə başladılar. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Qarqar çayı istiqamətində meşələrə doğru qaçmağa məcbur olmuşdu. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən burada da xüsusi qəddarlıqla məhv edilmişdir.**

## XOCALI SOYQIRIMI ZAMANI ŞƏHİD OLANLAR

| | |
|---|---|
| 1. Abbasov Salah İsmayıl oğlu | 1909 |
| 2. Abbasov Taleh Umudvar oğlu | 1961 |
| 3. Abbasova Əntiqə Heydər qızı | 1935 |
| 4. Abışov Etibar Mövsüm oğlu | 1965 |
| 5. Abışov Əli Əbdül oğlu | 1918 |
| 6. Abışova Məruzə Məhəmməd qızı | 1930 |
| 7. Abdullayev Yusif Qoca oğlu | 1932 |
| 8. Ağayev Zahid Səttar oğlu | 1963 |
| 9. Ağayev Allahverdi Səttar oğlu | 1982 |
| 10. Allahverdiyeva Teybə Nəbi qızı | 1933 |
| 11. Allahverdiyeva Validə Astan qızı | 1963 |
| 12. Allahverdiyeva İradə Astan qızı | 1965 |
| 13. Allahverdiyev Hidayət Bəhram oğlu | 1936 |
| 14. Allahverdiyev Bəhram Hidayət oğlu | 1976 |
| 15. Allahverdiyeva Kifayət Hüseynalı qızı | 1942 |
| 16. Ağayarova Züleyxa Yunis qızı | 1965 |
| 17. Aslanova Gülsabah Qəyyum qızı | 1972 |
| 18. Allahyarova Qəmzə Qaraş qızı | 1940 |
| 19. Allahyarova Şəfiqə Zeynal qızı | 1969 |
| 20. Allahyarov Etibar Baloğlan oğlu | 1968 |
| 21. Aslanov Qulu Bəhram oğlu | 1927 |
| 22. Aslanov İqbal Qulu oğlu | 1970 |
| 23. Abışov Elşad Qiyas oğlu | 1967 |
| 24. Allahverdiyev Salah İmamqulu oğlu | 1918 |
| 25. Abbasova Suqra Əliş qızı | 1917 |
| 26. Abbasova Həmayıl Canış qızı | 1940 |
| 27. Abbasov Vəlyəddin Umudvar oğlu | 1963 |

| | |
|---|---|
| 28. Ağayarova Sevinc İsa qızı | 1985 |
| 29. Ağayarov Sadıq Şirxan oğlu | 1932 |
| 30. Ağalarova Güllü Surxay qızı | 1934 |
| 31. Allahverdiyev Novruz Salah oğlu | 1947 |
| 32. Allahverdiyev Mahir Novruz oğlu | 1974 |
| 33. Ağayarov Nəbi İsaq oğlu | 1981 |
| 34. Ağayarov Roman İsaq oğlu | 1986 |
| 35. Abışova Mədinə Bədirxan qızı | 1908 |
| 36. Aslanova Elnarə Tofiq qızı | 1978 |
| 37. Allahverdiyev Ziyadxan Saleh oğlu | 1957 |
| 38. Abışova Məhbubə Qurban qızı | 1960 |
| 39. Abışova Çinarə Nazim qızı | 1982 |
| 40. Abışova Minarə Rəhim qızı | 1910 |
| 41. Abışov Mobil Mövsüm oğlu | 1968 |
| 42. Abışov Səadət Niyaz oğlu | 1967 |
| 43. Abışov Nadir Mövsüm oğlu | 1966 |
| 44. Abışova Məryam Məşədi qızı | 1932 |
| 45. Abışov Çingiz Nazim oğlu | 1985 |
| 46. Abışova Gülzar Gülalı qızı | 1964 |
| 47. Allahverdiyev Mumuş Bəhram oğlu | 1923 |
| 48. Ağayev Vidadi Sacəddin oğlu | 1960 |
| 49. Abışov Eyvaz Talıb oğlu | 1950 |
| 50. Allahverdiyev İlham Baxşeyiş oğlu | 1963 |
| 51. Abdullayeva Maya Saleh qızı | 1908 |
| 52. Abbasov Eyvaz Kamran oğlu | 1983 |
| 53. Abbasov Elxan Kamran oğlu | 1970 |
| 54. Atakişiyev Fərman Rəhman oğlu | 1970 |
| 55. Ağayev Rasim Mirsalam oğlu | 1967 |

| | |
|---|---|
| 56. Abdullayeva Sevinc Sərhad qızı | 1986 |
| 57. Abdullayev Mahir Tanrıverdi oğlu | 1971 |
| 58. Allahverdiyev Vidadi Mürsəl oğlu | 1977 |
| 59. Bilalov Namiq Məhəmməd oğlu | 1961 |
| 60. Butko Dmitriy Nikolayeviç | 1930 |
| 61. Behbudova Sürəyya İbrahim qızı | 1930 |
| 62. Behbudova Gülnaz Yusif qızı | 1962 |
| 63. Behbudova Gülbahar Yusif qızı | 1968 |
| 64. Bağırova Zəhra Sarı qızı | 1930 |
| 65. Bağırova Nailə Həsən qızı | 1956 |
| 66. Bağırov Bəhmən Yaqub oğlu | 1966 |
| 67. Bağırov Elşən Həsən oğlu | 1965 |
| 68. Babışov Əli Rəis oğlu | 1968 |
| 69. Behbudov Zeynal Məmməd oğlu | 1926 |
| 70. Behbudov Vaqif Yusif oğlu | 1963 |
| 71. Binaliyev Əlişir Gülalı oğlu | 1967 |
| 72. Binalıyev Cabbar Gülalı oğlu | 1969 |
| 73. Boranov Maqsud Alı oğlu | 1928 |
| 74. Babayeva Fənar Fərman qızı | 1943 |
| 75. Bayramov Zahid Tapdıq oğlu | 1965 |
| 76. Bayramov Rövşən Zahid oğlu | 1969 |
| 77. Bəhmənova Dilarə Məhərrəm qızı | 1950 |
| 78. Bəhmənov Akif Vaqif oğlu | 1974 |
| 79. Bəbirov Tofiq Nifti oğlu | 1966 |
| 80. Babayev Qədir Əsgər oğlu | 1935 |
| 81. Babayev Bəbir Əsgər oğlu | 1942 |
| 82. Babayeva Qəribə Muxtar qızı | 1938 |
| 83. Babayev Bakir Bəbir oğlu | 1965 |

| | |
|---|---|
| 84. Bayramov Cəllad Səməd oğlu | 1948 |
| 85. Cabbarov Azad Pirqulu oğlu | 1968 |
| 86. Cəbrayılova Səmayə Sarı qızı | 1950 |
| 87. Cavadov Əli Müsül oğlu | 1953 |
| 88. Cəfərova Xəzəngül Əli qızı | 1951 |
| 89. Cəfərov Müseyib Səfiyar oğlu | 1895 |
| 90. Cəfərov Nüsrət Fazil oğlu | 1975 |
| 91. Cəfərova Rəfiqə İman qızı | 1937 |
| 92. Cəfərov Samir Tacir oğlu | 1987 |
| 93. Cəfərov Məhəmməd Vəlikişi oğlu | 1895 |
| 94. Cəfərova Bağdad Hətəm qızı | 1910 |
| 95. Cavadov Vaqif Əliş oğlu | 1966 |
| 96. Cabbarov Xıdır Sədrəddin oğlu | 1969 |
| 97. Cavadov Əhməd Əmir oğlu | 1973 |
| 98. Çobanov Tapdıq Xədicə oğlu | 1949 |
| 99. Çobanova Nəzakət Tapdıq qızı | 1984 |
| 100. Eyvazov Hidayət Əli oğlu | 1964 |
| 101. Əbdülov Məzahir Yaqub oğlu | 1960 |
| 102. Əbdulov Zahid Yelmar oğlu | 1973 |
| 103. Əbdülov Yelmar İsgəndər oğlu | 1949 |
| 104. Əbdülov Savalan Qaraş oğlu | 1937 |
| 105. Əzizov Əzim Məşədi oğlu | 1911 |
| 106. Əzizova Zərifə Ələkbər qızı | 1953 |
| 107. Əzizov Hüseyn Nəriman oğlu | 1956 |
| 108. Əzizov Mehman Qüdrət oğlu | 1959 |
| 109. Əzimov Akif Seydulla oğlu | 1961 |
| 110. Əzimov Natiq Abbas oğlu | 1986 |
| 111. Əzimov Həsənbala Şahmar oğlu | 1935 |

| | |
|---|---|
| 112. Əzimova Pərvanə Hüseyn qızı | 1947 |
| 113. Əzimova Dilarə Seydulla qızı | 1956 |
| 114. Əliyev Əyyub Sarı oğlu | 1928 |
| 115. Əliyev Ələkbər Əlehsan oğlu | 1915 |
| 116. Əliyeva Sürəyya Bayram qızı | 1934 |
| 117. Əliyev Eldar Kəriş oğlu | 1963 |
| 118. Əliyev İslam Əbdüləli oğlu | 1933 |
| 119. Əliyeva Səhər Çərkəz qızı | 1932 |
| 120. Əliyev Arif Xanlar oğlu | 1970 |
| 121. Əliyev Əbülfət Əli oğlu | 1963 |
| 122. Əliyev Təvəkkül Baxış oğlu | 1955 |
| 123. Əliyev Bakir Şiraslan oğlu | 1973 |
| 124. Əliyeva Dilarə Oruc qızı | 1939 |
| 125. Əliyev Elgiz Firdovsi oğlu | 1984 |
| 126. Əliyev Firdovsi İsa oğlu | 1956 |
| 127. Əliyeva Heyran Mürşüd qızı | 1962 |
| 128. Əliyev Elçin Firdovsi oğlu | 1982 |
| 129. Əliyev Ağəli Nayıb oğlu | 1932 |
| 130. Əliyeva Sürəyya Behbud qızı | 1933 |
| 131. Əliyeva Çiçək Əbkbər qızı | 1931 |
| 132. Əliyev Səbuhi Cahangir oğlu | 1978 |
| 133. Əliyev Səlim Cahangir oğlu | 1985 |
| 134. Əliyeva Xavər Yusif qızı | 1957 |
| 135. Əliyeva Svetlana Cavanşir qızı | 1957 |
| 136. Ələkbərova Zeynəb Cümşüd qızı | 1923 |
| 137. Ələkbərov Təvəkkül Ələkbər oğlu | 1956 |
| 138. Ələkbərov Səxavət Təvəkkül oğlu | 1981 |
| 139. Ələsgərov Vahid Rəşid oğlu | 1962 |

| | |
|---|---|
| 140. Əliməmmədov Namiq Şahmalı oğlu | 1962 |
| 141. Əliməmmədov Faiq Şahmalı oğlu | 1969 |
| 142. Əmirova Raya Qabil qızı | 1959 |
| 143. Əmirova Yeganə Təvəkkül qızı | 1957 |
| 145. Əhmədov Yelmar Nayıb oğlu | 1986 |
| 144. Əsədov Yalçın Asif oğlu | 1963 |
| 146. Əhmədov Namiq İlyas oğlu | 1968 |
| 147. Əhmədova Durna Salman qızı | 1922 |
| 148. Əhmədov Rəfail Nayıb oğlu | 1948 |
| 149. Əhmədov Eldar Nayıb oğlu | 1945 |
| 150. Əhmədova Sərfinaz Müxtəd qızı | 1900 |
| 151. Ələkbərov Əsgər Qurban oğlu | 1930 |
| 152. Əhmədova Zibeydə Bədəl qızı | 1928 |
| 153. Əliyev Elşən Sahədar oğlu | 1973 |
| 154. Əliyev Ənvər Zeynal oğlu | 1959 |
| 155. Əliyeva Yeganə Məhərrəm qızı | 1960 |
| 156. Əsgərov Eldar Nizami oğlu | 1986 |
| 157. Əsgərov Nizami | 1960 |
| 158. Əliyev Mikayıl Atababa oğlu | 1957 |
| 159. Əzizov Fikrət Abbas oğlu | 1965 |
| 160. Əliyev Ülfət İman oğlu | 1974 |
| 161. Əliyev İlham Bahadur oğlu | 1966 |
| 162. Ələsgərov Məzahir Məhərrəm oğlu | 1969 |
| 163. Əliyev Ayaz Elman oğlu | 1970 |
| 164. Əhmədov Vaqif İslam oğlu | 1957 |
| 165. Əsgərov Xəqani Kərəm oğlu | 1962 |
| 166. Əliyev Nadir Qaçay oğlu | 1967 |
| 167. Fərzəliyev Canan Binnət oğlu | 1962 |

| | |
|---|---|
| 168. Fərzəliyev Qədim Fərzəli oğlu | 1933 |
| 169. Haqverdiyeva Həvva Zeynalabdin qızı | 1927 |
| 170. Haqverdiyev David Məşdi oğlu | 1951 |
| 171. Haqverdiyev Şahin Məşdi oğlu | 1962 |
| 172. Hacıyev Əlif Lətif oğlu | 1953 |
| 173. Hacıyev Süleyman Lətif oğlu | 1949 |
| 174. Hacıyev Tahir Hacı oğlu | 1957 |
| 175. Həmdiyeva Mehriban Rəcəb qızı | 1954 |
| 176. Həmidova Kifayət Çıraq qızı | 1955 |
| 177. Həmzəyev Abdulla Köşalı oğlu | 1965 |
| 178. Hənifəyev Bəhmən Salman oğlu | 1957 |
| 179. Həsənov Rövşən Qaçay oğlu | 1958 |
| 180. Həsənova Günəş Əbdül qızı | 1910 |
| 181. Həsənova Məxmər Ələkbər qızı | 1942 |
| 182. Həsənov Elgün Nazim qızı | 1988 |
| 183. Həsənova Aygün Nazim qızı | 1991 |
| 184. Həsənova Göyçək Heydər qızı | 1933 |
| 185. Həsənova Lətafət Həsən qızı | 1976 |
| 186. Həsənov İmran Ələkbər oğlu | 1940 |
| 187. Həsənova Gülçöhrə Yaqub qızı | 1968 |
| 188. Həsənov Ramil İbrahim oğlu | 1947 |
| 189. Həsənov Mehdi Ramil oğlu | 1973 |
| 190. Həsənov Həsən İbrahim oğlu | 1933 |
| 191. Həsənov Əli Mürsəl oğlu | 1936 |
| 192. Həsənov Şöhrət Usub oğlu | 1944 |
| 193. Həsənova Tofiqə Həsən qızı | 1955 |
| 194. Həsənova Fitat Əhəd qızı | 1940 |
| 195. Həsənova Qətibə Mirsiyab qızı | 1952 |
| 196. Həşimov Səlim Kərim oğlu | 1963 |

| | |
|---|---|
| 197. Hümbətova Füruzə Musa qızı | 1934 |
| 198. Hümbətova Simuzər Cəlil qızı | 1976 |
| 199. Hümbətova Südabə Rəşid qızı | 1969 |
| 200. Hümbətov Muğan Cəlil oğlu | 1973 |
| 201. Hümbətov Hətəm Qurban oğlu | 1960 |
| 202. Hümbətov Talış İsgəndər oğlu | 1931 |
| 203. Hümbətova Anahid Eldar qızı | 1979 |
| 204. Hüseynova Rəsmiyyə Aleksandr qızı | 1968 |
| 205. Hüseynov Emin Aleksandr oğlu | 1975 |
| 206. Hüseynova Məxmər Qurban qızı | 1949 |
| 207. Hüseynov Çingiz Usub oğlu | 1955 |
| 208. Hüseynov Bakir Mirsiyab oğlu | 1956 |
| 209. Hüseynov Mirsiyab Həzrətqulu oğlu | 1922 |
| 210. Hüseynova Minəş Cümşüd qızı | 1934 |
| 211. Hüseynov Tofiq Mirsiyab oğlu | 1954 |
| 212. Hüseynova Süsən Hüseyn qızı | 1971 |
| 213. Hüseynov Tacir Hüseyn oğlu | 1973 |
| 214. Hüseynova Nəsibə Hüseyn qızı | 1982 |
| 215. Hüseynova Növrəstə Fərmayıl qızı | 1922 |
| 216. Hüseynov Hüseyn İsmayıl oğlu | 1934 |
| 217. Hüseynova Əziz Alış qızı | 1956 |
| 218. Hüseynova Xoşbəxt Hüseyn qızı | 1963 |
| 219. Hüseynov Mürşüd Səməd oğlu | 1934 |
| 220. Hüseynov Allahverdi Qulu oğlu | 1967 |
| 221. Hüseynov Hüseyn Fərəc oğlu | 1936 |
| 222. Hüseynova Zinyət Yunis qızı | 1940 |
| 223. Hüseynov Rəşid Hüseyn oğlu | 1962 |
| 224. Hüseynova Maral Kamil qızı | 1985 |

| | |
|---|---|
| 225. Hüseynova Sara Səfər qızı | 1964 |
| 226. Hüseynova Səadət Qədim qızı | 1974 |
| 227. Hüseynov Vüqar Hilal oğlu | 1971 |
| 228. Hüseynova Mehriban Allahverdi qızı | 1965 |
| 229. Hüseynov Rəcəb Elxan oğlu | 1984 |
| 230. Hüseynov Məhsər Elxan oğlu | 1991 |
| 231. Hüseynova Şəbnəm Elxan qızı | 1986 |
| 232. Həsənova Sevil Əyyub qızı | 1961 |
| 233. Həşimov Şövkət Şükür oğlu | 1943 |
| 234. Hümbətova Sevil Cəlil qızı | 1967 |
| 235. Hüseynova Emma Hüseyn qızı | 1969 |
| 236. Hüseynov Zöhrab Hüseyn oğlu | 1971 |
| 237. Həsənova Xəyalə Eldar qızı | 1987 |
| 238. Həsənov Tacir Eldar oğlu | 1990 |
| 239. Hüseynova Nərgiz Cəbrayıl qızı | 1963 |
| 240. Hüseynov Şakir Mustafa oğlu | 1956 |
| 241. Hüseynova Ətrabə Cəbrayıl qızı | 1932 |
| 242. Həsənov Tofiq Bəylər oğlu | 1970 |
| 243. Həsənov Vahid Möhsüm oğlu | 1958 |
| 244. Həsənov Telman Yelmar oğlu | 1939 |
| 245. Hüseynov Hüseyn Şükür oğlu | 1956 |
| 246. Həsənov Qabil Qasım oğlu | 1960 |
| 247. Hüseynova Qızbəs Mərdan qızı | 1934 |
| 248. Həsənov Elşad Qaçay oğlu | 1949 |
| 249. Həsənov Ramiz Allahverdi oğlu | 1971 |
| 250. Hümbətov Bəhlul Museyib oğlu | 1937 |
| 251. Xəlilov Arzu Xəlil oğlu | 1977 |
| 252. Xəlilov Araz Xəlil oğlu | 1984 |

| | |
|---|---|
| 253. Xudiyev Zahid Bəhlul oğlu | 1965 |
| 254. Xəlilova Zərifə Zəkara qızı | 1964 |
| 255. Xəlilova Lalə Tahir qızı | 1988 |
| 256. Xəlilov Qaçay Rəhim oğlu | 1943 |
| 257. Xudayarova Sürəyya Alış qızı | 1916 |
| 258. İsfəndiyarov Eldar Hümbət oğlu | 1972 |
| 259. İlyasov Əhməd Məmməd oğlu | 1968 |
| 260. İlyasov Məmməd İlyas oğlu | 1940 |
| 261. İsmayılov İnqilab Ələkbər oğlu | 1962 |
| 262. İsmayılov İbiş Kərim oğlu | 1938 |
| 263. İsmayılova Mənzər Məşədi qızı | 1908 |
| 264. İsmayılov Vidadi Lətif oğlu | 1951 |
| 265. İbrahimov Əlixan Xəlil oğlu | 1955 |
| 266. İbrahimova Fatma | 1990 |
| 267. İmani Ağayar Salman oğlu | 1929 |
| 268. İmani Malik Ağayar oğlu | 1950 |
| 269. İsmayılov İsmayıl Bəhmən oğlu | 1957 |
| 270. İmani Ağababa | 1910 |
| 271. İsmayılov Bəhram Əbdüləli oğlu | 1967 |
| 272. İsmayılov Elyas Bayram oğlu | 1938 |
| 273. İsmayılova Şövkət Oruc qızı | 1940 |
| 274. İbadullayev Nadir Nəbi oğlu | 1967 |
| 275. Kazımov Asif Kazım oğlu | 1967 |
| 276. Kərimova Firəngiz Mütəllim qızı | 1930 |
| 277. Kərimov Soltan Samran oğlu | 1960 |
| 278. Kərimov Rəşid Rəhim oğlu | 1922 |
| 279. Kərimov İntiqam Şahmalı oğlu | 1960 |
| 280. Kərimov Samran Soltan oğlu | 1924 |
| 281. Kərimova Firəngül Məmməd qızı | 1934 |

| | |
|---|---|
| 282. Kərimov Firuz Samran oğlu | 1960 |
| 283. Kərimov Yalçın Asif oğlu | 1950 |
| 284. Kazımov Xəlil Mahmud oğlu | 1938 |
| 285. Qasımov Yaşar Qaytaran oğlu | 1964 |
| 286. Qarayev Usubəli Süleyman oğlu | 1961 |
| 287. Qəmbərov Səfər Qarsalan oğlu | 1961 |
| 288. Qəmbərova Mətanət Hacı qızı | 1967 |
| 289. Qəmbərov Emin Səfər oğlu | 1986 |
| 290 Qəmbərova Esmira Səfər qızı | 1985 |
| 291. Qəmbərov Qarsalan Gəray oğlu | 1939 |
| 292. Qəmbərova Validə Boran qızı | 1941 |
| 293. Qəmbərov Nadir Qarsalan oğlu | 1971 |
| 294. Quliyev Zakir Lətif oğlu | 1965 |
| 295. Quliyeva Zöhrə Lətif qızı | 1968 |
| 296. Quliyev Tahir Soltan oğlu | 1956 |
| 297. Quliyev Vüqar Zahid oğlu | 1975 |
| 298. Quliyev Zəkara Qямиş oğlu | 1932 |
| 299. Quliyeva Şura Şəmil qızı | 1936 |
| 300. Quliyev Əkbər Zəkəra oğlu | 1962 |
| 301. Quliyeva Sevinc Əkbər qızı | 1985 |
| 302. Quliyev Taleh Zəkəra oğlu | 1967 |
| 303. Quliyev Samir Taleh oğlu | 1990 |
| 304. Quliyeva Rəvanə Qaryağdı qızı | 1979 |
| 305. Quliyeva Nuranə Qaryağdı qızı | 1981 |
| 306. Quliyev Şükür Qaryağdı oğlu | 1985 |
| 307. Quliyev Aqil Sahib oğlu | 1963 |
| 308. Quliyev Natiq Vəlyəddin oğlu | 1972 |
| 309. Quliyeva Sara Hüseyn qızı | 1955 |
| 310. Quliyev Elçin Balaxan oğlu | 1965 |
| 311. Qocayev Güman Əvəz oğlu | 1941 |

| | |
|---|---|
| 312. Quliyev Mikayıl Zahid oğlu | 1967 |
| 313. Qasımova Rəsmiyyə Ağa qızı | 1960 |
| 314. Qasımova Nərminə Nizami qızı | 1986 |
| 315. Qasımov Ağa Bayram oğlu | 1930 |
| 316. Quliyev İslam İdris oğlu | 1957 |
| 317. Qarayev Asif Qarakişi oğlu | 1953 |
| 318. Quliyev Şahbaz Əsgər oğlu | 1923 |
| 319. Quliyev Fərhad Səfər oğlu | 1970 |
| 320. Quliyev Şükür Bərxudar oğlu | 1949 |
| 321. Quliyeva Məxmər Xanlar qızı | 1930 |
| 322. Quliyev Şəmsi Əjdər oğlu | 1970 |
| 323. Quliyev Qənimət Əli oğlu | 1936 |
| 324. Quliyeva Urba Hacı qızı | 1936 |
| 325. Quliyev İsmayıl Qənimət oğlu | 1969 |
| 326. Quliyev Mətləb Qənimət oğlu | 1963 |
| 327. Qasımov Ənvər Bahadur oğlu | 1925 |
| 328. Mahmudova Roza Səfər qızı | 1930 |
| 329. Mahmudov Əhliman Behbud oğlu | 1941 |
| 330. Mehdiyev Şafa Baba oğlu | 1941 |
| 331. Mehdiyev Murad Şafa oğlu | 1964 |
| 332. Mehralıyeva Gülüzar Gülalı qızı | 1970 |
| 333. Mehdiyeva Aysel Murad qızı | 1987 |
| 334. Mehdiyeva Gülmirə Murad qızı | 1989 |
| 335. Məmmədov Aydın Qurban oğlu | 1964 |
| 336. Məmmədov Zahir Ramiz oğlu | 1975 |
| 337. Məmmədov Ramil Cəlal oğlu | 1948 |
| 338. Məmmədov Yaşa Yusif oğlu | 1956 |
| 339. Məmmədov Şöhlət İbiş oğlu | 1960 |
| 340. Məmmədova Güllü Abdal qızı | 1925 |

| | |
|---|---|
| 341. Məmişov Talış Hüseyn oğlu | 1921 |
| 342. Məmmədov Vaqif Şükür oğlu | 1940 |
| 343. Məmmədova Afilə İbrahim qızı | 1949 |
| 344. Məmmədov Azər Vaqif oğlu | 1972 |
| 345. Məmmədov Ceyhun Vaqif oğlu | 1975 |
| 346. Məmmədov Niyaməddin Vaqif oğlu | 1978 |
| 347. Məmməd Oqtay Şükür oğlu | 1957 |
| 348. Məmmədov Arif İbad oğlu | 1956 |
| 349. Məmmədov Saday Süleyman oğlu | 1936 |
| 350. Məmmədov Səfəralı Mehdi oğlu | 1918 |
| 351. Məmmədov Vaqif Şəmil oğlu | 1951 |
| 352. Məmmədov Vasif Salman oğlu | 1965 |
| 353. Məmmədov Rasif Salman oğlu | 1967 |
| 354. Məmmədov Xosrov Bilal oğlu | 1949 |
| 355. Məmmədov Bəylər Xanlar oğlu | 1935 |
| 356. Məmmədov Razmik Suren oğlu | 1965 |
| 357. Məmmədova Şövkət İbad qızı | 1963 |
| 358. Məmmədova Məleykə Atəş qızı | 1933 |
| 359. Məmmədov Talış İmran oğlu | 1934 |
| 360. Məmmədova Səltənət Zülal qızı | 1931 |
| 361. Məmmədova Lətifə İbad qızı | 1958 |
| 362. Məmmədov Məmməd Qədir oğlu | 1935 |
| 363. Məmişov Şahin Talış oğlu | 1959 |
| 364. Məhərrəmov Maqsud Heydər oğlu | 1957 |
| 365. Məhərrəmov Tahir Ağarza oğlu | 1956 |
| 366. Məhərrəmov Vaqif Cəmil oğlu | 1951 |
| 367. Məhərrəmova Nazlı Vəli qızı | 1953 |
| 368. Mustafayev Vidadi Şafa oğlu | 1963 |
| 369. Mustafayev Rza Bəşir oğlu | 1948 |

| | |
|---|---|
| 370. Mustafayeva Yaxşı Mehdiqulu qızı | 1900 |
| 371. Muradov Paşa Əsgər oğlu | 1939 |
| 372. Muradova Ayşən Zöhrab qızı | 1991 |
| 373. Muradov Zahid Lətif oğlu | 1965 |
| 374. Muradov Elşən Kazım oğlu | 1971 |
| 375. Muradov Gündüz Kazım oğlu | 1961 |
| 376. Məmmədova Sevil Hüseyn qızı | 1971 |
| 377. Məmmədov Əkbər Rəhman oğlu | 1960 |
| 378. Məmmədov Allahverdi | 1963 |
| 379. Məmmədov Nurəddin Vaqif oğlu | 1958 |
| 380. Məmmədov Sadiq Allahverdi oğlu | 1986 |
| 381. Mehralıyev Əli Şükür oğlu | 1964 |
| 382 Məmmədov Məmməd Rəhim oğlu | 1947 |
| 383. Məmmədov Söhbət Məmməd oğlu | 1976 |
| 384. Məmmədov Kamil Əmir oğlu | 1958 |
| 385. Mehdiyev İlham | 1987 |
| 386. Mehralıyev Orxan Əli oğlu | 1971 |
| 387. Mikayılov Aqil Vəlikişi oğlu | 1969 |
| 388. Musayev İlqar Vaqif oğlu | 1963 |
| 389. Muradova Nuridə Kazım qızı | 1931 |
| 390. Mehdiyev Fikrət Burzu oğlu | 1968 |
| 391. Mehdiyev Cavanşir İsaq oğlu | 1967 |
| 392. Mirzəyev Kamal Abbas oğlu | 1962 |
| 393. Məmmədov Sərvər Yelmar oğlu | 1970 |
| 394. Məmmədov Zakir Qasım oğlu | 1966 |
| 395. Mehralıyev Əli Mürsəl oğlu | 1964 |
| 396. Nağıyev Yusif Şirin oğlu | 1928 |
| 397. Nağıyeva Sara Ramiz qızı | 1969 |
| 398. Nəbiyev Məhiyəddin Həsən oğlu | 1952 |
| 399. Nəbiyev Həsən Qaraş oğlu | 1930 |

| | |
|---|---|
| 400. Nəbiyeva Səkinə Nabatalı qızı | 1930 |
| 401. Nəzərli Hikmət Baba oğlu | 1966 |
| 402. Nəsirova Tatyana Dimitriyevna | 1952 |
| 403. Nəcəfov Şiraslan Məmiş oğlu | 1952 |
| 404. Novruzov Ələsgər Xanlar oğlu | 1949 |
| 405. Nuriyev Hafiz Yusif oğlu | 1962 |
| 406. Nişanə Murad qızı Xocalı | 1990 |
| 407. Nəcəfov Əsgər Hidayət oğlu | 1940 |
| 408. Nəsibov Ramiz Sarı oğlu | 1961 |
| 409. Novruzov Əkbər Cənnət oğlu | 1956 |
| 410. Nuriyev Aydın Nəriman oğlu | 1930 |
| 411. Nəcəfov Alov Nəsib oğlu | 1966 |
| 412. Novruzov Novruz Məhərrəm oğlu | 1937 |
| 413. Novruzova Adilə Məhəmməd qızı | 1937 |
| 414. Novruzov Zakir Novruz oğlu | 1971 |
| 415. Novruzova Rahilə Novruz qızı | 1975 |
| 416. Novruzova Rübabə Novruz qızı | 1977 |
| 417. Nurməmmədov Hüseyn Rza oğlu | 1927 |
| 418. Nurməmmədova Pakizə İslam qızı | 1936 |
| 419. Orucov Cavan Canan oğlu | 1976 |
| 420. Orucova Məlahət Əli qızı | 1975 |
| 421. Orucova Mələk Əli qızı | 1968 |
| 422. Orucova Nətavan Nəbi qızı | 1989 |
| 423. Orucov Fazil Ənvər oğlu | 1981 |
| 424. Orucova İradə Əli qızı | 1964 |
| 425. Orucova Tamara Yunis qızı | 1944 |
| 426. Orucov Telman Ənvər oğlu | 1957 |
| 427. Orucova Xəyalə Telman qızı | 1986 |
| 428. Orucov Elman Ənvər oğlu | 1956 |
| 429. Orucov Faiq Əli oğlu | 1954 |

| | |
|---|---|
| 430. Orucova Gözəl Heydər qızı | 1931 |
| 431. Orucov Miryusif Kərim oğlu | 1940 |
| 432. Orucov Rafiq Miryusif oğlu | 1972 |
| 433. Paşayev Aleksandr Tapdıq oğlu | 1932 |
| 434. Paşayev Ələddin Bəhlul oğlu | 1961 |
| 435. Pəzliyev Qədim Pəzli oğlu | 1953 |
| 436. Rzayev Canpolad Yaqub oğlu | 1965 |
| 437. Rəşidov Adil Məhəmməd oğlu | 1941 |
| 438. Rəşidov Nazim Adil oğlu | 1972 |
| 439. Rüstəmov Füzuli Salah oğlu | 1966 |
| 440. Rəcəbov Cəbrayıl Mehdi oğlu | 1961 |
| 441. Rzayev Tapdıq Köçəri oğlu | 1964 |
| 442. Rzayev İldırım Barat oğlu | 1970 |
| 443. Rüstəmov Eldar Əmir oğlu | 1988 |
| 444. Sadıqova Çiçək Cəlil qızı | 1928 |
| 445. Salahov Məhəmməd Əbdül oğlu | 1931 |
| 446. Salahova Zəhra Əlabbas qızı | 1932 |
| 447. Səlimov Araz Bahadur oğlu | 1960 |
| 448. Səlimov Tofiq Seydi oğlu | 1968 |
| 449. Səlimov Bahadur Mikayıl oğlu | 1928 |
| 50. Səlimov Fəxrəddin Bahadur oğlu | 1958 |
| 51. Səlimov Mikayıl Bahadur oğlu | 1970 |
| 452. Səlimov Xəzər Səyavuş oğlu | 1974 |
| 453. Səlimova Adilə Allahverdi qızı | 1930 |
| 454. Səlimov Seydi Mikayıl oğlu | 1934 |
| 455. Səlimova Tamilə Ağamirzə qızı | 1936 |
| 456. Səmədov Həmid Bəylər oğlu | 1958 |
| 457. Səmədov Taryel Bəylər oğlu | 1964 |
| 458. Səfərova Pəri Muxtar qızı | 1930 |
| 459. Səfiyeva Gözəl Vəli qızı | 1923 |

| | |
|---|---|
| 460. Səfiyev Elxan Nəsib oğlu | 1961 |
| 461. Səfiyev Sərvan Elxan oğlu | 1991 |
| 462. Süleymanova Nübar Lələkişi qızı | 1953 |
| 463. Salahov Şakir Şəmil oğlu | 1966 |
| 464. Salahov Natiq Faydalı oğlu | 1961 |
| 465. Sadıqov Vaqif İmamverdi oğlu | 1952 |
| 466. Səfərov Orduxan Aydın oğlu | 1961 |
| 467. Səfərov Osman Aydın oğlu | 1964 |
| 468. Salahova Şəkər Saday qızı | 1963 |
| 469. Səlimov Rəfayıl Elyas oğlu | 1970 |
| 470. Səmədov Gündüz Hidayət oğlu | 1957 |
| 471. Sadıqov Əvəz Asif oğlu | 1929 |
| 472. Sadıqova Qünçə Məmmədbağır qızı | 1937 |
| 473. Süleymanov Rəşid Surxay oğlu | 1951 |
| 474. Səfərov Şahverdi Bəhlul oğlu | 1956 |
| 475. Şahverənov Məhərrəm Çovdar oğlu | 1930 |
| 476. Şahmuradov Nemət Musa oğlu | 1962 |
| 477. Şükürov Vaqif Rəsul oğlu | 1968 |
| 478. Şükürov Akif Rəsul oğlu | 1965 |
| 479. Şükürova Əntiqə İsfəndiyar qızı | 1934 |
| 480. Şahmuradov Mübariz Alıhüseyn oğlu | 1952 |
| 481. Şirinov Elşən Eldar oğlu | 1965 |
| 482. Şirinov Elşənin **6 aylıq oğlu** | 1991 |
| 483. Şahmuradov Natiq Əmirxan oğlu | 1963 |
| 484. Şahmuradov Namiq Əmirxan oğlu | 1965 |
| 485. Şükürov Vəkil İsfəndiyar oğlu | 1947 |
| 486. Şükürov Tofiq Zakir oğlu | 1934 |
| 487. Şahverdiyev Vüqar Məmməd oğlu | 1973 |
| 488. Talıbov Rəhim Xudaverdi oğlu | 1908 |
| 489. Usubov Zakir Kamran oğlu | 1965 |

| | |
|---|---|
| 490. Usubov Əlyar Kamran oğlu | 1967 |
| 491. Usubov Elşad Kamran oğlu | 1974 |
| 492. Usubov Səyavuş Ramiz oğlu | 1971 |
| 493. Usubova Şərqiyyə Usub qızı | 1948 |
| 494. Vəliyeva Nazilə Kamil qızı | 1966 |
| 495. Vəliyev Ağasif Zakir oğlu | 1986 |
| 496. Vəliyev Firdovsi Fazil oğlu | 1966 |
| 497. Vəliyev Əli İman oğlu | 1962 |
| 498. Vəliyeva Güldanə Zakir qızı | 1989 |
| 499. Yusifova Natavan Pənah qızı | 1988 |
| 500. Yusifov Həmid Məhəddin oğlu | 1962 |
| 501. Zamanov Novruz Qulu oğlu | 1936 |
| 502. Zeynalov Məcnun Zaman oğlu | 1969 |
| 503. Zeynalov Tofiq Aslan oğlu | 1959 |
| 504. Zeynalov Eldar Aslan oğlu | 1963 |
| 505. Zeynalov Nadir Aslan oğlu | 1968 |
| 506. Zeynalova Aynurə Tofiq qızı | 1986 |
| 507. Zeynalov Məmməd Mikayıl oğlu | 1948 |
| 508. Zeynalov Osman Bahadur oğlu | 1959 |
| 509. Zeynalov Tahir Bahadur oğlu | 1963 |

***Qeyd:***

**Xocalı soyqırımı zamanı Azərbaycanın müxtəlif bölgələrindən Xocalıya işləməyə gəlmiş 300 nəfərdən artıq inşaatçı və digər sahələrin 100-dən artıq mütəxəssisi də Xocalıda şəhid olmuşdur. Beləliklə, soyqırım zamanı, 509 nəfər Xocalı sakini və Azərbaycanın digər bölgələrindən olan, Xocalıda işləyən və soyqırım zamanı orada olan 104 nəfər Azərbaycan vətəndaşı ilə birgə, toplam 613 nəfər qətlə yetirilmişdir.**

## XOCALI SOYQIRIMI QURBANLARININ AİLƏ ÜZVLƏRİNİN ACI XATİRƏLƏRİ

***(Onlar XX yüzillikdə baş vermiş İNSANLIQ DRAMInın canlı şahidləridir):***

***Xocalı soyqırımı zamanı ailə üzvləri qətlə yetirilmiş insanlardan biri Həsrət Xəlilovadır. Qarabağın qədim yaşayış məskənlərindən biri olan Xocalının tanınmış ailələrindən birinin üzvü olan Həsrət xala həmin gecəni həyatının ən ağır gecəsi sayır. Bu gün də xatırlayanda əlləri əsir, gözlərindən yaş süzülür, dəhşətlər içərisində danışır. Üzünə baxdıqca elə düşünürsən ki, on doqquz il bundan əvvəlki hadisə lap elə indicə baş verir.*** *Həsrət xala Xocalı soyqırımı zamanı həyat yoldaşını, oğlunu, gəlinini, iki qız nəvəsini, kürəkənini itirib. Vəhşicəsinə qətlə yetirilmiş ailə üzvlərinin meyitlərini Ağdamda dəfn edib, amma bir qədər sonra (1993-cü ildə) Ağdam işğal olunandan sonra... yaxınlarının qəbrini ziyarət etməyə də gedə bilmir. Çünki həmin qəbirstanlıq Ermənistan silahlı qüvvələrinin işğalı altında olan bölgədədir. Faciə üstünə faciə yaşayır Həsrət xala. Deyir, Xocalı soyqırımının ildönümündə, yəni "ailə üzvlərimin qətlə yetirildiyi gün balaca nəvəm hər dəfə soruşurdu ki, nənə bəs biz hansı qəbirstanlığa gedib ölülərimizi ziyarət edəcəyik..? — İndi artıq böyüyüb, hər şeyi başa düşür, amma əzabları da böyüyüb onunla... Gecələr də gözümə yuxu getmir fikirdən. Görüm, bunu törədənlərin cəzasını Allah özü versin. Mən Allahdan özümə, indi sadəcə onun üçün ömür arzu edirəm ki, bu vəhşiliyi törədənlərin cəzasını alacağını; günahsız ölən insanlarımızın qanının yerdə qalmadığı günü görüb, sonra rahat ölüm."*



**Həsrət Xəlilovanın Xocalı soyqrımı zamanı qətl edilən oğlu Tahir və gəlini Zərifə**

**Həsrət Xəlilova (Xocalı sakini, soyqırım şahidi):** Gecə saat 11 idi. Birdən evlərimiz səkkiz tərəfdən atəşə tutuldu. Bütün Xocalı şok vəziyyətinə düşdü. Özümüzü meşəyə atdıq. O gecə elə qar yağmışdı ki, şaxta qılınc kimi kəsirdi. Arxadan atılan güllələr, top atəşi bizi bir-birimizdən ayrı saldı. Həyat yoldaşımdan, oğlumdan, gəlinimdən ayrı düşdüm. 20 günlük körpə qız uşağını belimə aldım. 4 yaşlı Lalə nəvəm isə gəlinim Zərifədə qaldı. Böyük nəvəm Həmayil isə atası Tahirin əlindən tutmuşdu. Bir az keçməmişdi ki, ayağım sürüşdü. Bir də gördüm uşaqla birgə bir dərənin dibinə düşmüşəm. Bundan sonra hamımız bir-birimizi itirdik. Qadınların, uşaqların, qocaların naləsi, çığırtısı yeri-göyü lərzəyə salmışdı. Qaranlıq gecə, soyuq, qalın meşə, hər tərəfdə də əli avtomatlı ermənilər... O gecə





**Həsrət Xəlilovanın xoşbəxt illərindən bir an...**



**Həsrət Xəlilovanın Xocalı soyqırımı zamanı qətl edilən gəlini Zərifə**



**Həsrət Xəlilovanın Xocalı soyqırımı zamanı qətl edilən nəvəsi Lalə**

göydən yerə yağan qar qana boyanmışdı. Səhərə qədər Ağdama doğru qaçırdıq. Belimdəki uşaq acından qışqırırdı. O ağladıqca mənə elə gəlirdi ki, bu körpənin nə atası, nə anası gələcək; öz-özümə deyirdim: bunu sən böyüdəcəksən, Həsrət, sən..! Ağdama çatana qədər mən bu fikirlərdən ayrıla bilmirdim. Ağdama çatdım. Lakin ah-vaylı günlərim bundan sonra başladı. İtkinlərimizi, şəhidlərimizi nə deyib çağıraydım, heç özüm də bilmirdim...

Bir neçə gün keçdi. Gəlinimdən xəbər tutdum. Bəlli oldu ki, erməni cəlladları onu güllələyiblər. Siz, dəhşətə baxın, nəvəm - gəlinimin 4 yaşlı qızı Lalə isə odyal götürüb anasının üstünə örtür ki, rahat yatsın. Ermənilər kənardan bunu müşayiət edəndən sonra uşağı da güllələyirlər. Sonra xəbər tutdum ki, ermənilər yoldaşım Qaçay Xəlilovu da güllələyiblər. Beləliklə, mən ən yaxın, ən əziz adamlarımı itirdim. Bir neçə gündən sonra, yəni martın 9-da oğlum Tahirdən xəbər gəldi ki, qızı Həmayilin əlindən tutub Ağdama qaçdığı yerdə ermənilər uzaqdan görüb, avtomatla vurublar. Qaçmağa, qızını xilas etməyə taqəti olmayıb; ermənilər görməsin deyə bir yerə gizlənib, gözləyib ki, bəlkə Ağdama qaçmağa imkan tapa bilənlərdən gələr, 6 yaşlı qızını ona qoşar. Həmşəhərlimiz Kamal Xocalıdan qaçıb canını qurtara bilibmiş və Ağdama doğru qaçanda oğlumla rastlaşır, uşağı götürüb özü ilə gətirir...

Sonra yaxınlarımın meyitlərini aldım. Dəhşətli vəziyyətə salınmışdılar, sözlə deyiləsi deyil. Bunları ancaq vəhşi edə bilərdi. Meyitlərin başının dərisi soyulmuş, gözləri çıxarılmış, bədənləri eybəcər hala salınmışdı.

**Həsrət Xəlilovanın nəvəsi Həmayili danışdırmaq istəyirik.** O zaman 6 yaşı olan Həmayil xilas edilsə də, 19 ildir ki, Xocalı soyqırımı, gördüyü və yaşadığı dəhşətlər, erməni silahlıları tərəfindən atasının vurulması və ağır yaralı atası ilə vidalaşma səhnəsi gözlərinin qabağından getmir.

Həmayil danışır... daha doğrusu susur... Elə bil, körpə təbəssümü gözündə məhv olub bu qızcığazın. Sanki ömürlük bir kədər hopub gözlərinə, uşaqkən yaşlaşıb... *(Həmayilin xatirələri ilə sonrakı səhifələrdə tanış olacaqsınız.)*

## ŞƏHİD BAKİR HÜSEYNOV HAQQINDA

1956-cı ildə Mirsiyab Hüseynovun ailəsində 2-ci oğlan uşağı dünyaya gəldi. Qohum-qardaş çox sevindi. Adını Bakir qoydular. O, uşaqlıqdan özünün ağlı, kamalı ilə seçilirdi.

Bakir Xocalıda orta məktəbi bitirib, Ağdam Kənd təsərrüfatı Texnikumuna daxil oldu. Texnikumu bitirdikdən sonra hərbi xidmətə çağrıldı. Hərbi xidməti müvəffəqiyyətlə başa vurub doğma Xocalıya qayıtdı. Burada işə girdi. Ata-anasına kömək etməyə başladı. Bir qədər sonra onu Xocalı Avtobazasına mühəndis vəzifəsinə dəvət etdilər. Bakir avtobazada işləyə-işləyə sənədlərini Azərbaycan Dövlət Neft Akademiyasına verib, ora qəbul olundu.

**Xocalı soyqırımı zamanı qətl edilən Bakir Hüseynov**



Hələ Ağdamda oxuduğu illərdə gözü tutduğu, bəyəndiyi qızla ailə qurdu. Həyat yoldaşı Nəzakət onunçün hər şey idi. O, özünü xoşbəxt sayır, səadətli günlər yaşayırdı. Tezliklə xoşbəxt ailənin Samirə və Samir adlı gül balaları dünyaya gəldi. - Ata-ana, nənə-baba, hər kəs sevincli idi.



**Xocalı soyqırımı zamanı qətl edilən Mirsiyab Hüseynov**

Qarabağın qara günləri 1988-ci il hadisələri başlayanda Xocalıdan bir nəfər də olsun öz evini tərk etmədi. Ancaq vəziyyət günbəgün ağırlaşırdı. Bakir də özünümüdafiə batalyonuna yazıldı. O, batalyon komandiri olan qardaşı Tofiqlə çiyin-çiyinə döyüşürdü.

Həmin gecə, 26 fevral gecəsi, güclü atəşi, Xocalının hər tərəfdən mühasirəyə alındığını görüb dinc əhalinin xilas olunması üçün səy göstərən Bakir, yaşlı atası Mirsayib dayını, anası Minəş xalanı götürüb, digər dinc sakinlərlə yanaşı nisbətən təhlükəsiz istiqamətdə meşəyə aparır. Şahidlərin söylədiklərinə görə, Bakir çalışırdı ki, atası-anası həmyerlilərindən ayrılmasınlar. Lakin qılınc kimi kəsən soyuq havada sürətlə getmək yaşlılar üçün çətin idi. Soyuq, qoca yaşlı adamları karıxdırırdı. Onlar taqətdən düşür, yolda qalırdılar; Bakir isə həm xilaskarlıq etmək, həm də döyüşü davam etdirmək istəyirdi. - Durum hərtərəfli qarışmış, aləm bir-birinə dəymişdi...



**Xocalı soyqırımı zamanı qətl edilən Minəş Hüseynova**

Beləcə, o dəhşətli, müdhiş gecənin faciəsi Hüseynovlar ailəsinə də ağır faciələr gətirdi. Bakir ermənilərlə atışmada şəhid oldu. Onunla bərabər, atası Mirsiyab, anası Minəş, bacısı Elza, qardaşı - batalyon komandiri Tofiq və onun həyat yoldaşı Məxmər də həlak oldu.

Xocalı faciəsi neçə-neçə ailəni beləcə büsbütün məhv etdi. ...Bakirin meyiti belə tapılmadı. Məzarsız anılır **Bakir Hüseynov...** Hələ də qohum-əqrabasının, onsuz böyüyən uşaqlarının gözü yoldadır. Ailənin gəlini və bütün ailədən qaçıb canını qurtara bilən çox az adamdan biri olan Nəzakət Hüseynova deyir ki, 19 il keçib amma mən, nə bir gün də olsun həmin gecəni unuda bilirəm, nə də gözümü yollardan çəkə bilirəm...

## NƏZAKƏT SÜRXAY QIZI HÜSEYNOVA
*(XOCALI SAKİNİ, SOYQIRIM ŞAHİDİ):*

19 ildir ki, Xocalıdan çıxmışam. 26 fevral vahiməli gecə oldu, getsin gəlməsin... Hər bir Xocalı sakini o dəhşətli, təlatümlü gecənin müsibətlərinə tanıq oldu.



Həmin gecə həyat yoldaşım Bakir Hüseynov, qaynanam Minəş Hüseynova, qaynatam Mirsiyab Hüseynov, qaynım Tofiq Hüseynov, baldızım Elza Hüseynova Xocalıda şəhid oldular. İtkinlərimiz, dəfn edə bilmədiyimiz yaxınlarımızın, qohumlarımızın nisgili daha çətindir.

Hadisə günü mən Ağdamda idim. Fevralın 27-də Ağdam xəstəxanasına gəldim. Eşitdiklərim, gördüklərim dəhşət idi!.. Bir anlıq huşumu itirdim. Günlər bir-birini əvəz etdi. Yaxınlarımın hamısını itirdim.

Axı mənim körpə övladlarımın günahı nə idi?! Həmin gecə 11 yaşlı oğlum Samir meşədə yıxılaraq gözünün birini itirdi. Mənim üçün Xocalı faciəsi sanki bu gün olubdur. Müharibənin dəhşətlərini öz gözlərimlə gördüm. İki körpə uşağı tənha böyütməyə başladım.

Xocalı 4 il döyüşdü. Axırda döyüşən oğullar şəhid oldular, əsir düşdülər. Bu günə qədər itirdiyim əzizlərimi dəfn edə bilməmişəm. Yol gözləyirəm. Hər gün yuxuda Xocalımı görürəm.

Biz erməni zülmünün necə dözülməz olduğunu öz gözlərimizlə gördük. Müharibədə bütün ailə üzvlərim vurulmuşdu. İki övladımı böyütdüm. Onlar öz ata, baba, nənə, əmi və bibilərinin yolunu gözləyə-gözləyə yaşa dolurlar. Bu gözləmənin sona çatacağı günü isə ... bilməm, Allah bizə göstərəcək ya yox?.. Biz onsuz da həyatda fiziki olaraq yaşayırıq, ruhumuz, həyat eşqimiz hamısı ölüb. Biz bir də ümidlə yaşayırıq ki, nə vaxtsa Xocalıya qayıdacağıq və günahsız insanları bu günə salanlar öz cəzasını alacaqlar.

## ULDUZ SƏTTAR QIZI BƏXTİYAROVA

*1965-ci ildə Xocalıda doğulub. Orta məktəbi Xocalıda bitirmişdir. Səmimi, mehriban bir ailədə dünyaya göz açan Ulduz ən xoşbəxt günlərini Xocalıda yaşayıb. Sonrakı taleyi Kərkicahanla bağlı olsa da, mütəmadi olaraq Xocalıda olan ata-anasına da baş çəkmiş, Xocalı ilə bağlarını sıx tutmuşdur.*

**Onun dediklərindən:** Xocalı haqqında danışanda ürəyim titrəyir. Qəhərlənirəm. 19 ildir, itkin düşmüş, məzarsız, şəhid qardaşlarımı axtarıram.

Fevralın 25-dən 26-na keçən gecə mənim atam, anam, bacı və qardaşlarım Xocalıda idilər. Onlar da camaat kimi nisbətən təhlükəsiz məkana - meşəyə üz tuturlar. Həmin gecə atam-anam əsir düşdülər. Hər gün Ağdama gələn meyitləri yoxlayır, doğmalarımı axtarırdım.



...Göz yaşlarım hələ də qurumur. 36 gündən sonra atam Ağayev Səttar əsirlikdən azad oldu. Atamı elə bir dəhşətli vəziyyətdə gördüm ki... bilmirəm, Sizə necə anladım.

Atamın yaraları bu günə qədər də sağalmır. Ağzından qızıl dişlərini çəkmişlər. Ayaq barmaqları çürüyüb tökülürdü. 36 gün ac-susuz, 3 gündən bir 50 qr. çörək yeyən insanın aqibəti necə olar? Atama-anama baxdıqca mənim ermənilərə, erməniliyə nifrətim daha da artır. Valideyinlərimin, yaşlı Xocalı sakinlərinin söylədiklərinə görə II Dünya müharibəsində Xocalı sakinləri çox-çox erməni ailələrini aclıqdan, soyuqdan qoruyub saxlayıblar. Bu idimi yaxşılıqların əvəzi?

...Bu gün də gözlərim yollarda qalıb. Ümid sonda ölür deyiblər. Zahidi, Vüsalı - qardaşlarımı axtarıram. Əzizlərini axtaran, yurduna dönəcəyi günü gözləyən adam rahat ola bilərmi?!.

**SƏNAN ABDULLAYEV**
***(soyqırım şahidi):***

"...Vallah, nə deyim. Şaxtalı gecədə meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana apardılar. Anam, atam, 16 yaşlı bacım meşədə öldü.

Ermənilər uşaqların gözü qarşısında mənə işgəncələr verirdilər. Sonra bizi içərisinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaq üçün uşaqları bir gün boyu əlimdə saxlamışam.

**CAMAL ORUCOV**
***(soyqırım şahidi):***

"16 yaşında oğlumu güllələdilər. 23 yaşlı qızımı iki əkiz oğlu ilə, 18 yaşlı hamilə qızımı əlimdən aldılar".

## MƏLAHƏT MƏMMƏDOVA

***(Xocalıda qətlə yetirilmiş Arif İbad oğlu Məmmədovun həyat yoldaşı, Xocalı soyqırımının şahidi):***



**Xocalı soyqırımı zamanı qətl edilən Arif Məmmədov**

Arif təbiətən çox sakit insan idi, ağız şirinliyi ilə yaşayırdıq. 2 övladımız oldu: Fatima və Fuad. Ancaq Arif onları axıradək böyüdə bilmədi. Biz Ermənistanın Xankəndini işğal etməsindən sonra Xocalıya pənah gətirmişdik. Arif işləməyə başlamışdı. Xocalı Toxuculuq kombinatında sürücü işləyirdi. Gözləyirdik ki, Ermənistanın elan edilməmiş savaşı başa çatacaq, biz də doğmalarımızın, candan əziz sevdiyimiz balalarımızın əlindən tutub bir də ata-baba yurdu Xankəndinə dönəcəyik. Amma, deyir, sən saydığını say, gör fələk nə sayır. 26 fevralda 5-6 saat içərisində bütün şəhər yandırıldı, insanlar vəhşicəsinə qətlə yetirildi. - İlahi, bu nə məşəqqətli gecə idi. Xocalı üzərinə bütün istiqamətdən hücuma keçmişdi ermənilər. Nə qədər qansız, nə qədər vəhşi olasan ki, körpəyə, qocaya rəhm etməyəsən..? O gecə ana baladan, bacı qardaşdan ayrı düşdü. Arif də ailəsindən, anasından və bacılarından ayrı düşdü. O gecə ağır yaralanmış Arif sürünə-sürünə meşəyə çata bilsə də, mühasirədə olduqları üçün orada soyuqdan, qan itkisindən həlak olub. Bunları mənə qaçıb meşədə gizlənə bilmiş və sonra birtəhər Ağdama gəlmiş Xocalılar danışdı. Meyitini çox böyük əziyyətlə alıb, Ağdamda dəfn etdik. Ancaq talesizliyimizə bax ki, bir müddət sonra Ermənistan silahlı qüvvələri oranı da işğal etdilər. Həmin qəbristanlıq indi işğal altındadır. Dəhşət üstünə dəhşət yaşadıq. ...17 ildir ki, Arifin qəbrini ziyarət edə bilmirik. Bundan böyük dəhşət ola bilərmi ki, 17 il boyu öz həyat yoldaşının, öz atanın qəbrini ziyarət edə bilməyəsən..? 19 ildir ki, gözümüz yol çəkir. Qarabağ torpağının azad olunacağı günü gözləyir övladlarımız. Gözləyir ki, atalarının gəzdiyi, yaşadığı yerləri ziyarət etsinlər.

## NATİQ ADİL OĞLU RƏŞİDOV

***(Xocalıda qətlə yetirilmiş Adil Məhəmməd oğlu Rəşidovun övladı və Nazim Adil oğlu Rəşidovun qardaşı)***



**Rəşidovlar ailəsinin sevincli günlərindən bir an...**



**Xocalı soyqırımı zamanı qətl edilən Nazim Rəşidov**



**Xocalı soyqırımı zamanı qətl edilən Adil Rəşidov**

Ermənilər qəfil silahlı hücum edib, hər yeri yandırdılar, insanları qətlə yetirdilər. Atamgil yeraltı zirzəmidə gecələməli olublar. Bunu sonralar bizə, həmin vaxt atamgillə yanaşı o zirzəmidə olan, ardınca ermənilər tərəfindən əsir götürülən Cəlil kişi əsirlikdən qayıtdıqdan sonra danışdı. O, deyir ki, həmin gecə zirzəmidə olan insanlar, o cümlədən atam Adil və qardaşım Nazim səhər açılanadək zirzəmidə qalıblar. Səhər açılanda ehtiyatla zirzəmidən çıxıblar ki, görək vəziyyətdə dəyişiklik varmı; necə xilas ola bilərik. Cəlil dayı deyirdi ki, şəhərdəki dağıntını görüb dəhşətə gəliblər. Yaxınlarını axtarıb tapmaq istəyəndə ermənilərə rast gəlirlər. Heç kəs ermənilərə təslim olmaq istəməyib. Silahsız olsalar da...

Atam şoka düşübmüş. O, ermənilərə qışqırır, özü silahsız olmasına baxmayaraq, onları əsir götürmək istəyən silahlılara hücum çəkir. Erməni silahlıları atamı da, qardaşımı da qətlə yetirirlər. Daş ürəkləri (əgər ürək demək olarsa) soyumaq üçün o qədər güllə vururlar ki... Artıq ölmüş insanların meyitini belə güllələyirlər... Biz onların meyitini ala bilmədik.

Düz 19 ildir... Gedib onları ziyarət edə biləcəyimiz bir məzarları da yoxdur. Bundan böyük nə faciə ola bilər?.. Anam Zahirənin, mənim və bacım Nigarın yaşadıqlarını bir biz bilirik, bir də Allah!

Xocalı soyqırımı başlayan gecə qardaşım Nazimin ad günü idi. 20 yaşı tamam olurdu. Neft Akademiyasının tələbəsi idi. Qiyabi oxuyurdu və Xocalıda işləyərək ailəmizə kömək edirdi. 19 ildir qardaşımın ad günü Xocalı soyqırımının ildönümü ilə yad edilir. Onun nə günahı var idi? O qədər böyük arzuları var idi ki... Amma indi bir qəbri də yoxdur. Bunu törədənlər, insanlıq adına utanc olanlar... cəzasız qalmamalıdırlar.

## AİDƏ RZAYEVA

***(qızı Nərminə Qasımova Xocalı soyqırımının qurbanı olub)***



**Xocalı soyqırımı zamanı əsir götürülmüş Aida Rzayeva**

Danışdıqca həyəcanlanıram. Qarabağ müharibəsi mənim həyatımda ən ağır izlər buraxdı.

Ayaqqabı fabrikində işləyirdim. Bir neçə il işlədikdən sonra fabrikin yataqxanasında mənzil aldım. Orada bir il yaşamamışdım ki, ermənilər bizi öz torpağımızdan didərgin saldılar. Ermənilər gecə, yəni 18 sentyabr 1988-ci ildə gecə saat 21-də azərbaycanlılara qarşı hücumu birinci Sabir küçəsindən başladı. Evləri qarət edir, yandırır, azərbaycanlıları öldürürdülər. Evdən heç bir şey götürə bilmədik, hətta əynimizin paltarlarını da... Zorla qaçıb Kosalar meşəsinə üz tutduq. Meşənin içərisi ilə bütün gecə qorxu içərisində yol getdik. ...Səhərə yaxın Kosalar kəndinə çatdıq. Gecənin zülməti, həyəcan bizdən əl çəkmirdi. Təlaş içində çabalayan, kömək istəyən insanların səsi... - heç filmlərdə də bu cür dəhşət görə bilməzsiniz. Bu nə zülm idi, İlahi? Nə idi bizim günahımız? - Öz torpağımızı, öz evimizi tərk etmək istəməməyimizdimi günahımız?



**Aida Rzayevanın Xocalı soyqırımı zamanı qətl edilən qızı Nərminə Qasımova**

Gördüyümüz, yaşadığımız dəhşətlər sağlamlığımızı məhv etmişdi. Biz Xocalıya pənah gətirdik. Necə deyərlər, yağışdan çıxdıq, yağmura düşdük. Yenicə məskunlaşmışdıq ki, Ermənistan silahlı qüvvələri bu dəfə Xocalıya hücum etməyə

başladılar. Ermənilər hər gün Xocalını top atəşinə tuturdular. Qızım Nərminə Qasımova şəhid oldu, 6 aylıq körpəm Ceyhun Qasımov ağır yaralandı. ...6 aylıq olduğu zaman ağır yaralanmış övladımı 19 ildir, xəstəliklərin cəngindən qurtara bilmirəm. Özüm də sağlamlığımı tamam itirdim. I qrup əliləm. Ancaq bir arzum var. Torpaqlarımız Ermənistan işğalından azad olunsun və evimə qayıdım. Yaxınlarımın məzarları hamısı ordadır, onları ziyarət edə bilim. Elə bilirəm, torpaqlarımız azad olunduğu gün ağrım-acım silinib gedəcək...

## ANANIN GÖZ YAŞLARI...

***Əhliqa Məhərrəmova Laçında doğulub. Əzəldən taleyi keçməkeşli olan Əhliqanın başına gələnləri eşitdikcə insan sarsılır. Yurdu talan olan bu insanın başı çox müsibətlər çəkib.***

***Ana varlığı, ana müqəddəsliyi övladlar üçün, övladlar da, övlad yolunu gözləmək də analar üçün əziz və həyəcanverici olub. Qarşımızda yaşı 70-i keçmiş nurani bir qoca əyləşmişdir. Göz yaşını saxlaya bilmir. Dərdi çoxdur bu qadının*** *(- Dərd və Qadın(lıq)!.. - bunu yaraşdırmaq, qadına, gözəlliyə, ANAya qıymaq Yaradana qarşı çıxmaq kimidir):* **Övlad həsrəti, gəlin itkisi, yurd həsrəti, sarsıntı... O, gördüklərini, eşitdiklərini, başına gələn müsibətləri belə nəql edir:**

1931-ci il idi. Qoca nənəm İrasta Laçında, Zəngilanda gördüklərini, ağrılı-acılı günlərini daim xatırlayır, ermənilərin 1918-1920-ci illərdə Laçında, Zəngilanda törətdikləri qırğından ürək ağrısı ilə danışırdı. Deyirdi ki, *Andranikin ordusunun Zabux dərəsi ilə hücuma keçdiyini və azərbaycanlıları vəhşicəsinə öldürüldüyünü öz gözlərimlə görmüşəm. Gözlərim çox hadisələrin şahidi olub. Ermənilər azərbaycanlıları qırdılar, qız-gəlinləri süngüdən keçirdilər. Qarşılarına çıxan azərbaycanlıların başını kəsir, qız-gəlinləri süngüdən keçirirdilər, gözümlə onlarla qadının döşlərinin kəsildiyinin, qarın nahiyəsinə nizələrin keçirildiyinin şahidi oldum. O illər Laçında döyüşən qadınlar da çox idi. Andranikin quldur, qaniçən dəstəsinə qarşı vuruşan, xilaskar Soltan və onun qardaşları insanları dəhşətli zülmdən qoruyub saxladılar."*

Laçında bir nəfər də olsun erməni yaşamayıb. İrasta nənəmin daha bir xatirəsində deyilir ki, 1918-1920-ci illərin qanlı-qadalı günləri çox uzun çəkdi. Sovetlər gəldikdən sonra ermənilərə qarşı vuruşan, öz haqlarını müdafiə edən azərbaycanlılar sürgünə göndərildilər. Soltan bəy, Xosrov bəy və onun qardaşları Türkiyəyə köçmək məcburiyyətində qaldılar; qalanları isə Qazaxıstanda sürgün həyatı yaşamağa məhkum edildilər. *("Qazaxıstan sürgünü"ndən sonra həmin insanlar yenidən Laçına qayıtdılar.)*

Ermənilərin 1918-1920-ci illərdə baş verən dəhşətli zülmü 1988-1993-cü illərdə bir daha təkrar olundu.

* * *

İndi isə **Əhliqa ananın oğlu Vaqif Məhərrəmov** haqqında:

Ailə qurduqdan sonra Xankəndində yaşayırdı. Zəhmətkeş insan, qayğıkeş ailə başçısı idi. Həyat yoldaşı Bəsirə xanım beş övlad dünyaya gətirmişdi. Lakin bu sakit həyat çox çəkmədi. 1988-ci ildə Ermənistanın elan edilməmiş müharibəsi başlananda bütün azərbaycanlılar yurd yerlərindən didərgin salındı.

Xankəndində evləri yandıqdan sonra Vaqif Xocalı şəhərinə pənah gətirdi. Övladları Vəsilə, Natiq, Vüsalə, Səbinə, Namiq təhsillərini Xocalıda davam etdirməyə başladılar. Hər gün postlarda erməni silahları ilə qarşı-qarşıya döyüşən Vaqif heç inana bilməzdi ki, ayazlı, şaxtalı, boranlı bir gündə Xocalıdan didərgin düşəcəklər və Xocalı yerlə-yeksan olacaq.

Fevralın 25-dən 26-na keçən müsibətli gecəni bütün Xocalılar yaşadılar. Ailələr dağıdıldı. Mərmiləri göydən yağış kimi yağdıran qrad qurğuları, tanklar, toplar, havadan hücum vertalyotları Xocalıları qırıb-çatdılar. Qar üstünə səpələnmiş meyitlər, can verən yaralıların iniltisi dünyanın sonunu nişan verirdi, sanki...

Fevralın 26-da Vaqif və Bəsirə meşədə bir-birindən ayrı düşür. Həmin müdhiş gecədə Vaqif Cəmil oğlu Məhərrəmov, Bəsirə Vəli qızı Məhərrəmova faciəli şəkildə həlak oldular. İndi onların beş övladları gecə-gündüz ana-ata həsrəti ilə yaşayır. Qohum-əqraba himayəsində böyüyüb bu uşaqlar. Erməni qəddarlığını bu uşaqlar öz gözləri ilə görüb, öz talelərində yaşayıblar. Uşaqların həmin 25-dən 26-na keçən şaxtalı fevral gecəsi yaşadığı ağır faciə, bəşəriyyətin üz qarası, təkzib olunmaz insanlıq dramı, canlı bir tarixdir...

* * *

**Samirə Bakir qızı Hüseynova:**

\- 1979-cu ildə Xocalı şəhərində anadan olmuşam. Xoş anlarımı, qayğısız uşaqlıq illərimi doğma Xocalımda keçirmişəm. O qayğısız, xoş günlərim 1992-ci ilin fevralına qədər davam edib. 1992-ci il, fevralın 25-dən 26-sına keçən o dəhşətli gecə, bütün Xocalı əhalisi kimi mənim də uşaq ürəyimə dağ çəkildi. O müdhiş gecə... canım qədər sevdiyim Xocalımla yanaşı, atamı, nənəmi, babamı, əmimi, bibilərimi və başqa yaxın qohumlarımı da əlimdən aldı. O gecə, günahsız Xocalı sakinləri körpə uşaqdan tutmuş böyüklərə qədər qanlarına qəltan edildilər. O dəhşətli soyqırım gecəsi qardaşımla mən anamla bərabər Xocalıdan qaça bildik. Amma atamgil erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildilər. O gecə ki, ana və bacılarımızın naləsindən həzz alan erməni vəhşiləri onların başına min bir oyun, işgəncələr açdılar. Həmin gecə insan cəsədləri sökülmüş, dağılmış, kitab vərəqləri kimi meşələrə, ətrafdakı dağlara, dərələrə səpələnmişdi. Həmin gecənin açılan səhəri yük maşınlarında insan cəsədləri daşınaraq Ağdam şəhərinə

gətirilirdi. Yetim qalmış uşaqların, dul qalmış ana-bacıların, övlad itirən ata-anaların ah-naləsi ərşə qalxmışdı.

Bu soyqırımda onlarla uşaq vəhşicəsinə qətlə yetirildi, qaçıb meşələrə gizlənə bilənlər isə soyuq, aclıqdan və susuzluqdan orada tələf oldular. Bəlkə də Xocalı sakinləri həmin gecə meşə ilə qaçıb canlarını erməni cəlladlarından qurtararkən qarşılarına vəhşi heyvanlar çıxsaydı, o heyvanlar onlara dəyməzdi, amma vəhşi heyvanlara yox, vəhşi "insan"lara - qaniçən erməni quldurlarına rast gəldilər... Çox az adam qaçıb canını qurtara bildi...

Quduzlaşmış erməni silahlıları meyitlərin də üzərində olmazın vəhşiliklər törətmişlər. Onların başlarının dərisini soymuş, qadınların döşlərini, burunlarını, qulaqlarını kəsmişdilər. İlahi! Dörd yaşlı körpəyə də güllə atarlarmı? Dörd yaşlı körpənin də ayağı kəsilərmi? Mən özüm Xocalıdan çıxarılıb gətirilmiş o meyitləri Ağdamda gördüm və illər keçsə də həmin səhnələr gözümün qabağından getmir ki getmir...

Əmim **Tofiq Mirsiyab oğlu Hüseynov** (Azərbaycanın Milli Qəhrəmanı) həmin gecə Vətən uğrunda şəhid olan qəhrəmanlardan biridir. Neçə-neçə qız-gəlini, uşaqları düşmən caynağından xilas edib. Ancaq, meşədə ermənilər onu mühasirəyə alaraq ondan təslim olmağı tələb ediblər. Sonuncu silahı olan əl qumbarasını partladaraq intihar etmiş, təslim olmamış, şəhid olmağı üstün tutmuşdu. Üç körpə balası ana-atasız, yetim qalmış, yeganə sağ qalan əmim onlara himayədarlıq etmişdir.

O vaxtdan düz 19 il keçir. O qanlı soyqırım gecəsindən illər ötsə də, heç nə unudulmur. Hər gün, hər saat itirdiklərimi xatırlamaya bilmirəm. Qarşıdan gələn günlərim, bütün həyatım el-obamsız, doğma Qarabağımsız həddindən artıq mənasız, rəngsiz görünür...

Yuxularımda demək olar, hər gecə Xocalımı görürəm. O yerləri gəzirəm, dolanıram. Bəzən elə bilirəm ki, həqiqətən də Xocalıdayam, oyanıb bütün bunların yuxu olduğunu görəndə, sanki bütün dünyam uçub-tökülür, qolum-qanadım yanıma düşür. Mən bunların, yəni, Xocalı ilə bağlı bütün yuxularımın bir gün çin çıxacağına, o günün gələcəyinə inanıram. İnanıram ki, o günlər uzaqda deyil.

Mən bu 19 il ərzində ancaq yurd - Xocalı ağrısı ilə yaşamışam. Əgər nə vaxtsa Xocalı düşmən tapdağından xilas olarsa, doğma şəhərimə ayaqyalın gedərdim. Xocalıda dizi üstə çöküb torpağımın hər qarışını öpərdim.

Azərbaycanın hər qarış torpağı vətənimizdir, ancaq harada doğulub boya-başa çatmısansa, o yer sənə daha əzizdir, doğmadır. İndi mənim 25 yaşım var. Qaçqınlıq həyatını yaşayırıq. Yaşadığımız sanatoriyanın həyətində məktəbimiz üçün də sığınacaq verilib. Bu məktəb 2 saylı Xocalı şəhər məktəbidir. Buradakı şagirdlər, müəllimlər də Xocalı qaçqınlarıdır.

Mən həmin məktəbin kimya müəlliməsiyəm. Demək olar ki, burada uşaqdan böyüyə hamı Xocalı həsrəti, Xocalı nisgili ilə yaşayır. Bir daha Xocalıya dönmək arzusu günbəgün artır. Bu məktəb mənim Xocalıda təhsil aldığım

məktəbdən çox fərqlidir. Ona görə fərqlidir ki, bu məktəb də biz xocalılar kimi qaçqınlıq günlərini yaşayır. Birinci sinfə ilk dəfə qədəm qoyarkən əlimizdən tutub ilk hərfi yazmağı öyrədən Afilə müəllimə gözlərimin qarşısında dayanır; çalışıram onun kimi təmkinli, səbrli olub şagirdlərlə dil tapa bilim. Əziz müəlliməm, indi sən həyatda yoxsan. Erməni cəlladları səni ailən ilə, övladlarınla bərabər qətlə yetiriblər. Qaniçən vəhşilər üçün nə müəllim, nə həkim, nə mühəndis?!. Onlar üçün günahsız qanlar axıtmaq, cənnətməkan şəhərlərə, el-obalara od vurmaq, yandırmaq, dağıtmaq ən adi bir işdir. Onların qanlı, murdar əlləri qarabəxtli Qarabağı Azərbaycanın ərazisindən alıb Ermənistana birləşdirmək idi.

Yaman darıxmışam səninçün, Xocalım! Görəsən, səni bir daha görə biləcəyəmmi; o gözəl torpağında gəzib durna gözlü bulaqlarından doyunca içib, göz dolusu dağlarına, dərələrinə baxıb, o saf havandan ürək dolusu nəfəs ala biləcəyəmmi?! Səndən uzaqda, vətən içində belə, sanki qərib, arxasız, köməksizəm. Yəqin ki, sən də bizim üçün darıxırsan, Xocalım! Axı, ana öz övladlarından ayrı qala bilməz, çünki ürəyində özün boyda dərd yükü daşıyırsan.

İnanıram, inanıram ki, qayıdacağıq sənin doğma qucağına. Gözlərin yollarda qalmayacaq, qovuşacaqsan övladlarına. O gün uzaqda deyil. Hər bir qaranlıq gecənin nurlu, aydın sabahı var, Xocalım mənim, ümidimiz o Sabahadır...

## HUMAY MUSEYİB QIZI ABBASOVA –



**Xocalı soyqırımı zamanı əsir götürülmüş Humay Abbasova**

Xocalıda doğulub. İki övladı soyqırımın qurbanı olub.

Soyqırım haqqında soruşanda bu, yaşı 70-i keçmiş ananın ürəyi qubarlanır, gözləri dolur... Nisgilə qərq olmuş çöhrəsinə baxmaq olur Humay ananın. O, deyir:

"Nankor qonşularımız olan mənfur ermənilər, mənim, mənim Xocalımın başına çox müsibətli faciələr gətirdilər. 5 övladım var idi. Firavan yaşayırdım. 1992-ci ildə baş verən Xocalı soyqırımı mənim damarımda qanımı dondurdu. İki oğlumu həmin gecə itirdim – **Taleh Umudvar oğlu Abbasov** və **Vəliyəddin Abbasov**. Heç birini dəfn edə bilmədim. Körpə uşaqlara atılan güllələri öz gözümlə gördüm. Onların iniltiləri, qışqırtıları ürəkləri dağlayırdı, adamın başının tükünü qabardırdı. Günahsız körpələrə atılan güllələrin hər biri sanki mənim ürəyimi dəlib keçirdi. Mən buna tale, alın yazısı deməzdim, günah olmasın, Allahın bu işdən xəbəri yox idi... Bu, uzun illərdən bəri türk qanına susamış ermənilərin Allahsızlığı idi...

Oğul vətən üçün doğulub. Mənim tökdüyüm göz yaşı talesizliyimiz üçün; Xocalı torpağım və əsir, itkin düşmüş qız-gəlinlərimiz üçündür. Onlar bizdən imdad istəyirlər.

Oğlanlarımı dəfn edə bilməmişəm. Özümə ömür arzulamıram, möhlət arzulayıram ki, qayıdım Xocalı torpağına. Gedim, Şəhid torpağını ziyarət edim."

**Soyqırım şahidi Gülalı Mehrəliyev:**

"Altı günə kimi meşədə qaldıq. Ac-susuzluq, gecələr meşənin vahiməsi, soyuq, erməni qorxusu yazıq qızımın bağrını yardı nakam balam dözə bilmədi, keçindi. Balamın 20 yaşı vardı, 8 ay idi gəlin köçmüşdü.

Min bir çətinliklə Ağdama gəlib çıxdım. Amma qızımın meyitini nə basdıra bildim, nə də Ağdama gətirə bildim. Bircə onu gətirib basdırsaydım, bəlkə nigarançılığım bir az keçə, bir az rahatlanardım." (6)

**Zavallı Xocalılar, arzu etdiyiniz o azca rahatlığı ermənilər o soyuq, müdhiş fevral gecəsində əlinizdən aldılar. Nə qədər ki, haqq, ədalət bərpa olunmayıb, torpaqlarımız alınmayıb, nə dirilərin ürəyi, nə də şəhidlərin ruhu rahatlıq tapmayacaq. Ermənilər belə faciəni yaşamış olsaydılar dünyanı ayağa qaldırardılar; necə ki, "1915-ci il qondarma erməni soyqırımı"nı dünyaya qəbul etdirə-etdirə gedirlər. - Bax, budur "sivil dünya"nın ikili standartı; budur, dünya güclərinin "haqq-ədalət arayışı". Amma, inanırıq ki, "HƏR HALDA DÜNYADA HAQQ VAR VƏ O HAQQ ZORDAN YÜKSƏKDİR!" (M.K.ATATÜRK)**

**Lalə Cümşüd qızı Ələskərova:**

- Ağdamda doğulmuşam. Yaxşı, firavan, xoş keçən günlərimiz var idi. Valideynlərim, xüsusən nənəm mənə Qarabağ haqqında, Xocalı haqqında çox danışmışdılar. Uşaq idim, bəlkə o qədər də başa düşmürdüm. Ancaq nənəm hər dəfə olub-keçənlərdən danışanda ağlayırdı. Çünki onun da yaxınları, doğmaları faciənin qurbanı olmuşdular.

Böyüklərim faciələr haqqında çox danışmışdılar. Ağdamla Xocalı arasında məsafə o qədər də çox deyildi. Mənim də Xocalı ilə qohumluğum olmuşdu. Qızımı Xocalıya gəlin köçürmüşdüm. Yaxşı evləri, həyətləri, yaxşı şəraitləri var idi. Həmişə kürəkənimlə fəxr etmişəm. Qızım Vəsilənin 4 övladı dünyaya gəldi - 3 qız, 1 oğlan. Xocalı faciəsi baş verəndə ən kiçik nəvəm yaş yarımlıq idi. Beləcə bu xoşbəxtlik çox uzun sürmədi. Xocalı sakinlərinin müsibətli günləri başladı. Hamının evi, əmlakı yandırıldı, tar-mar edildi: insanların illərlə yığdığı, qurub-yaratdığı nə vardısa hamısı, qaniçən, cəllad ermənilər tərəfindən məhv edildi.

1992-ci il, fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən müdhiş faciəni yada salanda, sanki o vəhşəti bir daha yaşayırsan...

Millətimizə böyük zülm oldu. Mənim kürəkənim həmin müdhiş gecədə faciəli şəkildə həlak oldu. Kətik meşəsində, Naxçıvanik yolunda həlak olan, donan, yaralı, qan itirən insanları Ağdam məscidinə gətirirdilər. Mən meyitlərin necə dəhşətli vəziyyətdə olduğunun şahidi olmuşam. Gözləri çıxarılmış, başının dərisi

soyulmuş, döşləri kəsilmiş qadınları öz gözlərimlə gördüm. Mənim də taleyimə 4 yetim uşağı saxlamaq düşdü. Bu gün onlar böyüyüb. Ancaq ata həsrəti ilə yaşayırlar.



Şəkibə Mustafayeva

**Şəkibə Mustafayeva (Azərbaycanın Milli Qəhrəmanı Əliəskər Novruzovun həyat yoldaşı):**

- Yadımdadı, fevralın 25-26-na keçən gecə, saat 11-12 arasında döyüş başladı. Həmin gecə yoldaşım güclü hücumu görüb posta getdi. Mən ailəmlə birlikdə zirzəmidə gizləndik. Təqribən gecə saat 3 olardı, bir nəfər mənə dedi ki, evdən çıxmaq lazımdır. Mən də həyat yoldaşımı gözləyirdim. Zirzəmidə çoxlu qoca, qadın, uşaq var idi. Məsləhət gördülər ki, meşəyə üz tutaq. 62 yaşlı **Bəhram Mustafayev** də yanımızda idi. O çox çətinliklə yeriyirdi. Güclə Qarqar çayından keçdik. Ayaqlarımız, üst başımız hamısı islanmışdı.

Meşə körpələrlə, qadınlarla, yaşlı insanlarla dolu idi. Naxcivanik deyilən yerə çatanda ermənilər bizi güclü atəşə tutdular. Bizim üstümüzə elə silahlarla atəş açırdılar ki, hələ bu günə qədər də onların nə silahlar olduğunu aydınlaşdıra bilmirəm.



Əliəskər Novruzov

Çılpaq meşəlik idi. Səhərə yaxın, saat 5-6 radələrində Şelli deyilən kəndə yaxınlaşdıq. Bizim dəstəmizdə 100-dən çox adam var idi. İnsanlar yol boyu öldürülür; donub meşədə qalırdılar. Ac-susuzluqdan, qorxu hissindən, qanlı yaralardan dəhşətli mənzərə yaranmışdı... Sürünə-sürünə yaralıların yanında gizlənə-gizlənə gəlirdim. Mən Şelliyə bacımın evinə çatanda, bəlkə mənim üstümdən 3 vannaya qədər qan yudular.

Ermənilər körpə uşaqları da güllələdilər. Eh, yanımda nə qədər uşaq acından ağlaya-ağlaya öldü. Mən Xocalı faciəsindən təsadüf nəticəsində sağ çıxmışam. O qanlı günlərdə meşədə böyrəklərindən ağır xəstələnən **atam,** Xocalı faciəsindən az sonra dünyasını dəyişdi. Xalam oğlu **Firdovsi İsa oğlu Əliyev,** həyat yoldaşı **Heyran Əliyeva,** oğlanları **Elçin, Elgiz** həlak oldular. Atamın dayısı oğlu **Vaqif Şükür oğlu Məmmədov,** həyat yoldaşı **Afilə Məmmədova,** oğlanları **Azər, Ceyhun, Niyaməddin...** - Bu ailə büsbütün həlak oldu.

Mən, yoldaşım **Əliəskər Novruzovu** 3 gün axtardım. O, Noraguh kəndi yaxınlığında ermənilərlə səhərə qədər döyüşüb, neçə-neçə insanları azad edib. Sonra onu əsir götürüblər. Yoldaşımın 4 qızıl dişi vardı, onları çəngəllə çıxarmış, qollarını isə bir neçə yerdən qırmışdılar.

Sifətini elə hala salmışdılar az qala tanımaq olmurdu. Avtomatla üzünə o qədər vurmuşdular ki, gözü çıxmış, çənəsi qırılmışdı...

Ürəyim, qəlbim dərdlə doludur. Yazsan qalın-qalın kitab alınar. Yoldaşımı, əsirlikdə olanda Xankəndində saxlayıblar. Əsirlikdə onun yanında həmyerlimiz **Xurməmməd müəllim** olub. Onun da güllə bir budundan dəyib o biri yanından çıxmışdı. O deyirdi ki, Əliəskər döyülmədən və qan itirmədən dünyasını dəyişdi. Yoldaşımın meyitini ancaq 2 ay sonra alıb dəfn edə bildik...

**Yasəmən Tofiq qızı Həsənova** ***(Milli Qəhrəman Tofiq Hüseynovun qızı)***

- Mən danışanda gözümün önünə odlu-alovlu günlər gəlir.

Xocalı qətliamı baş verəndə mənim 12 yaşım var idi. 4 il Xocalıda gedən dəhşətli günləri heç bir vaxt unuda bilmərəm. Biz ailədə 2 bacı, 1 qardaş idik. Ata-analı, nənə-babalı günlərimiz var idi. Atam, əmilərim və bütün Xocalıda yaşayan kişilər, yaşlı insanlar gecə-gündüz mübarizə aparırdılar ki, Xocalı işğal olunmasın. Amma Xocalının hər tərəfdən yolu bağlı idi. - Hər gün atışma, hər gün müharibə... Günümüz zirzəmidə keçirdi. İl yarım idi ki, uşaqlar məktəbə getmirdilər. Hər gün "qrad" qurğularından atılmış atəş nəticəsində evlər dağılır, qapılar, pəncərələr uçub tökülürdü. Bir dəfə güclü atışma oldu. Əmim bizim yanımızda idi. O, bizi yerə uzandırdı. Biz bərk qoxduq. Elə bildik ki biz artıq öldük.

Mən uşaq olsam da şahidi olmuşam ki, Xocalıda çox qoçaq, cəsarətli oğlanlar var idi. Onları öldürmək asan deyildi. Ancaq nə yazıqlar ki, Xocalının nə tankı, nə topu var idi ki, özünü müdafiə etsin. Xocalı sakinlərinin yaşadığı dəhşətləri heç kimə arzu etməzdim. Nə deyim, əzizlərimi, doğmalarımı, atamı, anamı, əmimi, babamı, nənəmi və çoxlu sayda həmşəhrimi itirmişəm. Onlardan ancaq atamın meyitini dəfn edə bilmişik. Xocalı faciəsindən 16 il keçəndən sonra belə bir xəbər eşitdim ki, hansısa bır rus jurnalisti Xocalıda çəkiliş aparan zaman mənim anam **Məxmər** xanımın həyətdə güllə dəyib öldüyünü çəkmişlər. Anam əlində vedrə arteziana su gətirməyə gedən zaman elə həyətdəcə onu vurublar. Anam ölüb, amma işə bax ki, mən onun ölümünə sevinmişəm... Çox sevindim ki, nə yaxşı, anam əsir düşməyib, erməni cəlladlarının əlinə keçməyib. Yoxsa bütün ailə üçün daha ağır faciə olardı.

1992-ci il, 19 martda anamın ad günündə atamı Şəhidlər Xiyabanında dəfn etdik. Bizi aldatmışdılar ki, dəfn olunan babamdır. Ancaq dəfndə biz bildik ki, atamdır. 8 yaşlı qardaşım Muradı sakitləşdirə bilmirdik.

Deyirəm, kaş ki, anamı da dəfn edə biləydik...

**Əfsanə Tofiq qızı Ələkbərova** *(Milli Qəhrəman Tofiq Hüseynovun qızı):*

Xocalı faciəsindən 19 il keçir. O zaman Xocalı faciəsi mənim uşaqlıq yaddaşıma əbədi olaraq, bir qətliam; millətimizə, xalqımıza üz vermiş müdhiş faciə və təcavüz günü kimi həkk olub.

Tale bizim üzümüzə gülmədi. Anamı, atamı Xocalı faciəsində itirdim. Bacım **Yasəmən** 12 yaşında, mən 11, qardaşım **Murad** isə 8 yaşında idi... Atamın 4 ildə üzünü çox az-az görürdük. Çünki 4 il idi ki, ermənilər Qarabağda yaşayan

insanlara dinclik vermirdilər. Dağlıq Qarabağ və ətraf bütün Azərbaycan kəndlərinin hamısı ermənilər tərəfindən işğal edilmişdi. Yeganə, hər tərəfdən erməni kəndləri ilə əhatə olunan şəhər Xocalı idi ki, o da mühasirədə idi. Fevralın 25-dən 26-na keçən gecə elə bil dəhşətli faciə nəticəsində bütün Xocalı ağır bir qətliam gününü yaşadı. **Atam, anam, babam, nənəm, əmim, ən yaxın qohumlarım** bu faciənin qurbanı oldular. Hələ ana ətrini duymamış anamı itirdim. İndi mən öz qız övladıma anam Məxmər xanımın adını qoymuşam. Hər dəfə bir başqası onun adını çağıranda diksinirəm. Elə bilirəm anam indicə gələcək...



**Əfsanə Ələkbərova**

Beləcə, erməni cəlladlarının vəhşiliyi nəticəsində ata, ana nəvazişindən məhrum olduq.

İndi mən nə istəyirəm? - ANCAQ VƏ ANCAQ ATA, ANA QOXUSUNU, ƏTRİNİ...

Mən və qardaş-bacım bilə-bilə ki, valideynlərim qətliamın qurbanı olublar, erməni vəhşiliyi, erməni təcavüzü bizim kimi onlarla uşağı yetim qoyub, yenə gözümüz yol çəkir. Dediyim kimi, ancaq atamı dəfn edə bilmişik. Kətik meşəsində, Naxcivanik yaxınlığında onlarla Xocalı sakinimiz qarın altında, donmuş halda qaldı.

İndi mənim ən böyük istəyim də, sualım da odur ki, dünya ictimaiyyəti niyə susur? Təcavüzkarlar, indiki Ermənistan rəhbərliyi hələ axtarışa verilib layiqli cəzalarını almayıblar. Əli Xocalı qanına batmış cinayətkarlar hələ də öz cəzalarını almayıblar...

**Fazilə Əliş qızı Həsənova:**

- Həmin məşəqqətli gecə heç vaxt yadımdan çıxmayacaq. Oğlanlarım İlhami və Elzamin xəbər gətirdilər ki, Xocalı hər tərəfdən mühasirəyə alınıb, şəhərə xeyli sayda tank daxil olub. Bilmədim, nə edim, yaxın qonşum olan Ələsgər müəllimgilə getdim, dedim, məsləhətləşək, görək nə edə bilərik? Özü evdə yox idi. Amma ailəsi evdə idi. Biz tələsiklikdən isti üst palları götürməmiş, eləcə ev paltarı ilə çıxmışdıq. Birdən güclü atışma başladı. Bir daha evə qayıda bilmədik. 1-2 saat zirzəmidə daldalandıq, dedik, bəlkə bu dəhşətli atışma dayana. Amma, tam tərsinə, getdikcə şiddətlənirdi. Qonşular gəlib bizə dedilər ki, çıxmaq lazımdır. Xocalıda olanlar bilir, "5 mərtəbə" deyilən yer vardı, yığışdıq ora. Oradan da meşəyə qaçdıq. Meşədə hamımız sürünə-sürünə gedirdik. Ayağa qalxanda gördüm ki, əynimdə olan paltarlarımı kol-kos didim-didim edib. Ölənlərin sayı-hesabı yox idi. Bizdən qabaqda 2 dəstə gedirdi. Yaralıların, can verənlərin, uşaqların cığırtısı qaranlıq meşədə adamı vahiməyə salırdı. Hara baxırdıq qarın üstü qana bürünmüşdü...

Nəysə, bir təhər, ayaqyalın, başıaçıq gəlib Ağdama çatdıq. Hamı bir-birindən ayrı düşmüşdü. Ağır, məşəqqətli bir gün idi. Ağdamda xəbər tutdum ki,

qaynanam **Zeynəb Ələkbərova,** həyat yoldaşımın əmisi oğlu **Şöhrət Həsənov, İmran Həsənov** həlak olublar; yoldaşımın xalası oğlu **Tofiq Hüseynovun** ailəsindən heç kim qalmayıb. Hamısını cəllad ermənilər qırıblar; baldızım **Məhbubə Ələkbərova** 2 uşağı **(7 yaşlı Çingiz, 8 yaşlı Çinarə)** ilə meşədə qətlə yetiriliblər. Həmçinin, dayım **Müseyib** Cəfərov, mamam oğlu **Əlif Hacıyev** də meşədə qətlə yetiriliblər.

Mən şahidi oldum ki, Milli Qəhrəman **Füzuli Rüstəmov** bir neçə dəfə meşədən dəstə-dəstə adamların çıxarılmasında qəhrəmanlıq göstərdi. Axırıncı dəfə isə ermənilər onu Naxcivanik yolunda qətlə yetirdilər.

Mən öz gözlərimlə müsibətli hadisələrə şahid oldum, məşəqqətli günlər yaşadım. Xocalı filmində göstərilənlər heç də Xocalıda olan faciənin hamısını əks etdirmir.

**Bənövşə Əli qızı Haqverdiyeva:**

- O, ağır qətliam gecəsini, yəni fevralın 25-dən 26-na keçən gecəni heç vaxt unutmayacağam. Ermənilər 4 il idi ki, Xocalını mühasirə vəziyyətində saxlayırdılar. Həmin gecə yoldaşım **Cavanşir** postda dayanmışdı. Həmin gecə saat 11-də tələsik evə gəldi ki, vəziyyət ağırdır. Ermənilər 4 tərəfdən hücuma keçiblər. Cavanşir, **qaynatam Məşdi, qaynanam Havva,** qayınlarım **Şahin, David Haqverdiyevlərlə** bir yerdə bir təhər, zülümlə meşəyə çatdıq. Uşaqların, insanların cığırtısı indi də qulağımdan getmir. Qaynanam meşədə qarın içərisində yeriyə bilmirdi. Biz meşədə 12 nəfərlə gedirdik. Birdən ermənilər bizi meşədə mühasirəyə aldılar. İti açıb üstümüzə buraxdılar. Hərə bir tərəfə qaçdı. Bu zaman "alazan" deyilən qurğudan atəş atıldı. Bizim yanımızda o qədər insanlar yaralandı, baş-bədən, qol-qıç bir-birindən ayrıldı. **Qaynanam meşədə donub öldü. Bundan sonra qaynım David meşədə həlak oldu.** Yoldaşım danışa bilmirdi, səsi batmışdı. Biz xeyli süründük. Yoldaşım işarə etdi ki, əgər bacarırsansa qışqır, bəlkə səsimizə səs verən oldu, bizimkilərdən kimsə köməyə gəldi. Təəssüf ki, eşidən-bilən olmadı. 5 gecə meşədə qaldıq.

Ağır, məşəqqətli günlərimiz getsin, bir daha gəlməsin. 5 gündən sonra birtəhər Dəhraz istiqamətinə yol tapıb Ağdama çata bildik.

Meşədə gördüyüm meyitləri qatil ermənilər tükürpədici şəkilə salmışdılar. Meşədəki insanların çoxu qan itirməkdən həlak oldular. Yaralı, qan itirən, acından ağlayan körpələrin səsi indi də qulağımdan getmir.

Ağdama çatan kimi bizi xəstəxanaya götürdülər. Bütün bədənim qəlpələrlə dolu idi. (İndi 2-ci qrup əliləm.) Qaynanam Havva, qayınlarım Şahin, David şəhid oldular. Xocalı faciəsindən sonra qaynatam Məşdi əmi, çox yaşamadı, gördüklərinə, yaşadıqlarına dözə bilməyib dünyasını dəyişdi.

**Sənəm Həsən qızı Allahverdiyeva:**

- O dəhşətli hadisə fevralın 25-dən 26-na keçən gecə baş verdi. Bu hadisə ömürlük yaddaşıma qətliam günü kimi həkk olunub. Bayırdakı dəhşət, fəlakət, "qrad" qurğularından yağan mərmilər insanları addımlamağa qoymurdu. Biz də

camaata qoşulub Qarqar çayını keçdik. Mən ailəmlə - 2 azyaşlı qızım **(4 yaşlı Vüsalə, yaşyarımlıq Xəyalə)**, atam **Həsən Həsənov,** anam **Göyçək Həsənova,** bacılarım **Lətafət, Xədicə** və **Təzəgül** ilə birlikdə meşəyə üz tutdum. Orada 2 gün qaldıq. Sonra anama güllə dəydi, o, həlak oldu.

Meşədə azdıq. Yolu tapıb Ağdama çıxa bilmirdik. Sonra meşədə güclü atışma başladı. 16 yaşlı bacım Lətafətə güllə dəydi. O da dünyasını dəyişdi. Aclıq, susuzluq, körpələrin naləsi yeri, göyü lərzəyə salmışdı. Meşədə addımbaşı qətlə yetirilmiş qadına, qocaya, körpə meyitinə rast gəlinirdi. Hələ ölməmiş, can verən nə qədər insanlar gördüm, bunu sözlə çatdıra bilmirəm...

Feralın 28-də atam da həlak oldu. Artıq 4-cü gün idi ki, meşədə idik. Bir az getmişdik ki, ermənilər bizi əsir götürdülər. Ermənilər bizə elə dəhşətli işgəncələr verdi ki, sözlə ifadə etmək olmur. Əlimizdə, üstümüzdə olan qızıllarımızın hamısını alır, bizi döyürdülər. Əsir götürüldükdən sonra bizi Dəhraz kəndinə apardılar.

Bizə əsirlikdə verilən işgəncənin izləri indiyədək bədənimdən çıxmayıb. Baxımsızlıqdan, vaxtında tibbi yardım olmadığından qızlarımın və özümün ayaq barmaqlarım "qanqrena" oldu. Qızlarımın ayaq barmaqları yoxdur. Özüm kimi, övladlarım da 2-ci qrup əlildilər. Bütün həyatım boyu ən böyük ağrım, nisgilim valideynlərimi, bacımı dəfn edə bilməməyimizdir. Hər gecə onları yuxumda görürəm...

Deyirəm, belə ağrı-acını, belə iztirabı necə qıydın bizlərə, İlahi?!.

**Faiq Səməndər oğlu İsmayılov:**

- 1992-ci il fevralın 25-dən 26-na keçən gecə çox dəhşətli, ağır bir gecə oldu.

Ermənilər tez-tez Xocalıya hücum edirdilər. Xocalı 4 il idi ki, hər tərəfdən mühasirədə idi. Mən də o dəhşətli, məşəqqətli gecənin şahidi oldum. Həyatımda yaşadıqlarımı sözlə deyə bilmirəm. Çox filmlərə baxmışam. Xocalı faciəsinə bənzər dəhşəti heç bir filmdə də görməmişəm.

Yadımdadır, postdan evə gəldim. Gördüm uşaqlar evdə yoxdu. Atamı tapdım, onunla birgə əmim Qaytarangilə getdim. Məsləhətləşdik ki, nə edək, hara çıxaq..? Qərara aldıq ki, Qarqar çayını keçib meşəyə girək, görək neynəyə bilirik.

Elə güclü atışma gedirdi ki, vahimədən, tələskənlikdən, kimin əynində, ayağında nə vardısa onunla yola çıxmışdı. Həmin çayı keçəndən sonra çoxunun ayağını don apardı. Meşədə mən atamdan ayrı düşdüm. Elə zülmət qaranlıq idi, göz gözü görmürdü. Atamı, əmim oğlunu əsir götürmüşdülər. Atam **Səməndər** 2 ay Xankəndində erməni əsirliyində qaldı.

Mən 2 gün meşədə qaldım. Mənim yanımda **Cümşüd, Mərkəz, Müşfiq, İsmayıl, Rasim** var idi. Həmin gecə meşədə qardaşım Rasimin ayaqlarını don vurdu. Həmin qardaşım hazırda Ramanada atamla yaşayır. Atama Xankəndində elə işgcəncələr vermişdilər ki, həmin yaraların izi hələ də qalmaqdadır. Atamın 76 yaşı var. O, Xankəndində azərbaycanlılara verilən icgəncələrdən danışanda deyir ki,

***"bizi yararsız, şəraitsiz yerdə, suyun içində saxlayır, hər gün elə döyürdülər ki, heç adamın əli gəlməz heyvanı elə döysün..."***

Bu gün ermənilər hər vəchlə çalışırlar Xocalıda, ümumiyyətlə Qarabağ müharibəsində insanların başına açdıqları müsibətləri unutdursunlar. Bu heç zaman mümkün olmayacaq. Biz canlı şahidlərik, faciənin izləri bədənimizdə hələ də qalır...



**Tacirə Xəlilova**



**Xocalı soyqırımı zamanı qətl edilən Rəşid Hüseynov**

**Tacirə Qaçay qızı Xəlilova** ***(şəhid Rəşid Hüseyn oğlu Hüseynovun həyat yoldaşı):***

- Mən də o mühdiş 26 fevral gününü heç bir vaxt unutmayacağam. O gecə itirdiklərimi hər zaman dərdlə-kədərlə xatırlayıram. Hər bir insan öz doğmalarını itirmişdir. Hamımızın ortaq dərdi-kədəri olan o soyqırım günlərindən 19 il ötür. Amma sanki o hadisə, o mühdiş gecə indicə olubmuş kimi xatırlayıram. 26 fevral qətliam günündə atam Qaçay Xəlilov, qardaşım Tahir Xəlilov, həyat yoldaşım Rəşid Hüseynov, qaynatam Hüseyn Hüseynov, qaynanam Zinyət Hüseynova, yaxın qohumlarım Cavan Orucov, Hidayət Eyvazov - hamısı həlak oldu. Həyat yoldaşım Rəşid 1963-cü ildə Kəlbəcərdə doğulsa da, 1980-ci ildən ailəsi ilə birlikdə Xocalıda yaşayırdı. Təhsilini Şuşada bitirmişdi. Xocalıda əmək fəaliyyətinə milis kimi başlamışdı. 4 il Xocalının müdafiə edilməsində iştirak etdi. Həmin müdhiş gecədə Rəşid öz ata-anası ilə birgə, erməni cəlladlarının cəngindən qurtula bilmədi.

Rəşid atası və anası ilə yanaşı Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunub. Ağrımız, məşəqqətimiz meyitləri alıb dəfn edərkən yenidən şiddətləndi. Mən Ağdamda gözlərimlə gördüm ki, ermənilər meyitlərə necə işgəncə veriblər.

Mənim 2 övladım - Rəşiddən sonra – hələ körpə yaşlarından yetim qaldılar...

**Yaşar Qaçay oğlu Xəlilov** ***(şəhid Tahir Xəlilovun qardaşı):***

Həm Xocalı itkisi, həm də əzizlərimizin itkisindən danışmaq, yazmaq olduqca ağırdır. Xocalı soyqırımına qədər nə kitablardan, nə də böyüklərdən ermənilərin qaniçən cəllad olması haqqında məlumat almamışdıq. Ancaq Qarabağ hadisələri başlayandan sonra, Qarabağın bütün Azərbaycan kəndlərinin işğal edilməsini, yandırılmasını, insanların vəhşicəsinə qətlə yetirilməsini gözlərimlə

gördüm. Qəhrəman Xocalı 4 mühasirə şəraitində yaşadı. O illərdə bir nəfər də olsun doğma Xocalımızı tək etmədi.



Xocalı soyqırımı zamanı əsir götürülmüş Yaşar Xəlilov

Köməksiz, silahsız Xocalı işğal edildi. Mən Xocalıda çox doğmalarımı itirdim. **Atam, qardaşım, qardaşımın həyat yoldaşı, qardaşım qızı və onlarla başqa doğmalarımı itirdim.** Hər gün yuxumda Xocalını, itirdiklərimizi görürəm. Xocalıda Xocalı sakinlərinə olan zülmü heç ikinci dünya müharibəsində faşistlər etməmişdilər. Yaşlı qocalar, uşaqlar, qadınlar vəhşiliklə qətlə yetirildilər. Bu insanların günahı azərbaycanlı olmaqları idi. Ataya hər zaman ehtiyacımız var. Şəhidlərimizə olan zülmü heç zaman unutmayacağıq. - Hər şey bir yana, meyitlərin günahı nə idi ki, ermənilər onları tanınmaz vəziyyətə salmışdılar.

## Şəhid Hidayət Əli oğlu Ayvazovun qohumu Tacirə Qaçay qızı Xəlilovanın dedikləri:

Mən Şəhid Hidayət Ayvazovun haqqında danışmaq istəyirəm. Hidayət Xocalıda doğulmuş, orada böyümüşdü. O, qorxunc, qara 26 fevral gününü Ayvazovlar ailəsi də yaşadı.



Xocalı soyqırımı zamanı qətl edilən Hidayət Ayvazov

Hidayət orta məktəbi Xocalıda bitirdikdən sonra sevdiyi ixtisası seçmiş, baytar həkimi olmuşdu. Sovxozda baytar həkimi olaraq çalışırdı. Xocalının müdafiəsində digər həmyerliləri kimi Hidayət də fəal bir şəkildə iştirak edirdi.

Şəhərin işğal edildiyi gecə hər kəs kimi Hidayət də atası ilə bərabər meşəyə doğru hərəkət etmişdi. Kətik meşəsində, Naxçivanik civarında gerçəkləşən qorxunc olaylar sırasında Hidayət, atası Əli ilə bərabər ermənilərin əlinə keçir. Ata ilə oğlu başqa-başqa yerlərə aparırlar. Əlini Xankəndinə aparırlar. Zavallı qocanın əlinə dəmir kəlbətin verərək öz ağzındakı qızıl dişləri çıxarmağı əmr edirlər. Qoca çox ağır bir vəziyyətdə dişlərini çıxardaraq qaniçən erməni canilərinə verir. Xankəndində ermənilər ona o qədər işgəncə vermişdilər ki, əsarətdən qurtulduqdan sonra çox yaşamadı. Xocalı torpağı qana boyandı. Yaşlılar, uşaqlar, qadınlar donaraq, işgəncəyə məruz qalaraq öldülər. Hidayət də şəhid oldu. Onu Ağdam qəbirstanlığında torpağa tapşırdılar.

## XOCALI SOYQIRIMI ZAMANI ŞƏHİD OLAN UŞAQLAR

| *Adı, soyadı, atasının adı* | *Təvəllüdü* |
|---|---|
| 1. Ağayev Allahverdi Səttar oğlu | 1982 |
| 2. Ağayarova Sevinc İsaq qızı | 1985 |
| 3. Ağayev Nəbi İsaq oğlu | 1981 |
| 4. Ağayarov Raman İsaq oğlu | 1986 |
| 5. Abışov Çingiz Nazim oğlu | 1985 |
| 6. Abışova Çinarə Nazim qızı | 1982 |
| 7. Allahverdiyev Bəhram Hidayət oğlu | 1976 |
| 8. Allahverdiyev Mahir Novruz oğlu | 1974 |
| 9. Aslanova Elnarə Tofiq qızı | 1978 |
| 10. Cəfərov Nüsrət Fazil oğlu | 1975 |
| 11. Cəfərov Samir Tacir oğlu | 1987 |
| 12. Çobanova Nəzakət Tapdıq qızı | 1984 |
| 13. Əliyev Elçin Fidovsi oğlu | 1982 |
| 14. Əliyev Elgiz Firdovsi oğlu | 1984 |
| 15. Əliyev Səbuhi Cahangir oğlu | 1978 |
| 16. Əliyev Səlim Cahangir oğlu | 1985 |
| 17. Əzimov Natiq Abbasqulu oğlu | 1986 |
| 18. Əmirova Yeganə Təvəkkül qızı | 1986 |
| 19. Həsənov Elgün Nazim oğlu | 1988 |
| 20. Həsənova Aygün Nazim qızı | 1991 |
| 21. Hüseynov Rəcəb Elxan oğlu | 1984 |
| 22. Hüseynova Şəbnəm Elxan qızı | 1986 |
| 23. Hüseynov Məhsər Elxan oğlu | 1991 |
| 24. Həsənova Lətafət Həsən qızı | 1976 |
| 25. Hümbətova Simuzər Cəlil qızı | 1976 |
| 26. Hümbətova Anahid Eldar qızı | 1979 |

| | |
|---|---|
| 27. Hüseynov Emin Aleksandır oğlu | 1975 |
| 28. Hüseynova Nəsibə Hüseyn qızı | 1982 |
| 29. Hüseynova Maral Kamil qızı | 1985 |
| 30. Hüseynova Səadət Qədim qızı | 1974 |
| 31. Xəlilova Lalə Tahir qızı | 1988 |
| 32. Quliyeva Pərvanə Qaryağdı qızı | 1979 |
| 33. Quliyev Şakir Qaryağdı oğlu | 1985 |
| 34. Quliyeva Nuranə Qaryağdı qızı | 1981 |
| 35. Qənbərova Esmira Səfər qızı | 1985 |
| 36. Qənbərov Emin Səfər oğlu | 1986 |
| 37. Quliyev Vüqar Zahid oğlu | 1975 |
| 38. Quliyev Samir Taleh oğlu | 1990 |
| 39. Quliyeva Sevinc Əkbər qızı | 1985 |
| 40. Məmmədov Ceyhun Vaqif oğlu | 1975 |
| 41. Məmmədov Niyaməddin Vaqif oğlu | 1978 |
| 42. Məmmədov Azər Vaqif oğlu | 1974 |
| 43. Məmmədov Zahir Ramiz oğlu | 1975 |
| 44. Mehdiyeva Gülmirə Murad qızı | 1989 |
| 45. Mehdiyeva Aysel Murad qızı | 1987 |
| 46. Muradova Ayşən Zöhrab qızı | 1991 |
| 47. Orucova Mətanət Əli qızı | 1975 |
| 48. Orucov Cavan Canan oğlu | 1976 |
| 49. Orucova Xəyalə Telman qızı | 1986 |
| 50. Orucova Natavan Nəbi qızı | 1989 |
| 51. Səlimov Xəzər Səyavuş oğlu | 1974 |
| 52. Səfiyev Sərvan Elxan oğlu | 1991 |
| 53. Usubov Elşad Kamran oğlu | 1974 |
| 54. Vəliyev Ağasif Bakir oğlu | 1988 |

| | |
|---|---|
| 55. Zeynalova Aynurə Tofiq qızı | 1986 |
| 56. Yusifova Natavan Pənah qızı | 1988 |

## XOCALI SOYQIRIMI ZAMANI HƏR İKİ VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARIN SİYAHISI

| | |
|---|---|
| 1. Xəlilova Həmayıl Tahir qızı | 1987 |
| 2. Xəlilova Xəyalə Tahir qızı | 1992 |
| 3. Qəhrəmanova Nigar Təvəkkül qızı | 1987 |
| 4. Qəhrəmanova Xəzangül Təvəkkül qızı | 1984 |
| 5. Qəhrəmanov Vüsal Təvəkkül oğlu | 1991 |
| 6. Əliyev Mehdi Firdovsi oğlu | 1990 |
| 7. Hüseynova Əfsanə Tofiq qızı | 1981 |
| 8. Hüseynova Yasəmən Tofiq qızı | 1980 |
| 9. Hüseynov Murad Tofiq oğlu | 1983 |
| 10. Orucova Xatirə Telman qızı | 1983 |
| 11. Orucova Kübra Telman qızı | 1989 |
| 12. Orucov Anar Telman oğlu | 1990 |
| 13. Məhərrəmova Vüsalə Vaqif qızı | 1982 |
| 14. Məhərrəmova Səbinə Vaqif qızı | 1978 |
| 15. Məhərrəmov Vüsal Vaqif oğlu | 1985 |
| 16. Məhərrəmov Natiq Vaqif oğlu | 1980 |
| 17. Məhərrəmov Namiq Vaqif oğlu | 1986 |
| 18. İbrahimov Sabir Əlixan oğlu | 1981 |
| 19. İbrahimov Samir Əlixan oğlu | 1984 |
| 20. Həmidova Nigar Sabir qızı | 1980 |
| 21. Həmidov Mübariz Sabir oğlu | 1978 |
| 22. Həmidov Müşviq Sabir oğlu | 1976 |
| 23. Həmidov Eldəniz Sabir oğlu | 1980 |

| | |
|---|---|
| 24. Hüseynov Yaşar Hüseyn oğlu | 1978 |
| 25. Hüseynov Ədalət Hüseyn oğlu | 1983 |

## XOCALI SOYQIRIMI ZAMANI TAMAMİLƏ MƏHV OLAN AİLƏLƏR

| | | |
|---|---|---|
| **1.1. Məmmədov Vaqif Şükür oğlu**<br>2. Məmmədova Afilə İbrahim qızı<br>3. Məmmədov Ceyhun Vaqif oğlu<br>4. Məmmədov Azər Vaqif oğlu<br>5. Məmmədov Niyaməddin Vaqif oğlu | - ata<br>- ana<br>- oğul<br>- oğul<br>- oğul | 1940<br>1949<br>1972<br>1975<br>1978 |
| **2.1. Kərimov Samran Soltan oğlu**<br>2. Kərimova Firəngül Məmməd qızı<br>3. Kərimov Firuz Samran oğlu<br>4. Kərimov Soltan Samran oğlu | - ata<br>- ana<br>- oğul<br>- oğul | 1924<br>1935<br>1960<br>1969 |
| **3.1. Əliyev Firdovsi İsa oğlu**<br>2. Əliyeva Heyran Mürşüd qızı<br>3. Əliyev Elçin Firdovsi oğlu<br>4. Əliyev Elgiz Firdovsi oğlu | - ata<br>- ana<br>- oğul<br>- oğul | 1956<br>1962<br>1982<br>1984 |
| **4.1. Hüseynov Mirsiyab Həzrətqulu oğlu**<br>2. Hüseynova Minəş Cümşüd qızı | - ər<br>- arvad | 1922<br>1934 |
| **5.1. Həsənova Günəş Əbdül qızı**<br>2. Həsənova Qətibə Mirsiyab qızı | - ana<br>- qız | 1910<br>1951 |
| **6.1. Hüseynov Hüseyn İsmayıl oğlu**<br>2. Hüseynova Əziz Alış qızı<br>3. Hüseynov Xoşbəxt Hüseyn oğlu<br>4. Hüseynova Nəsibə Hüseyn qızı<br>5. Hüseynov Tacir Hüseyn oğlu | - ata<br>- ana<br>- oğul<br>- qız<br>- oğul | 1934<br>1956<br>1963<br>1982<br>1972 |
| **7.1. Qənbərov Qarsalan Gəray oğlu**<br>2. Qənbərova Validə Boran qızı<br>3. Qənbərov Nadir Qarsalan oğlu | - ata<br>- ana<br>- oğul | 1939<br>1941<br>1971 |
| **8.1. Qənbərov Səfər Qarsalan oğlu**<br>2. Qənbərova Mətanət Hacı qızı | - ata<br>- ana | 1961<br>1967 |

| | | |
|---|---|---|
| 3. Qənbərov Emin Səfər oğlu<br>4. Qənbərova Esmira Səfər qızı | - oğul<br>- qız | 1986<br>1985 |

**Xankəndindən məcburi köçkün düşmüş Nüsrət Bəhram oğlu Rzayev**
***qonşuları olmuş Qənbərovlar ailəsini belə xatırlayır:***






Qənbərovlar ailəsi ilə Xankəndində qonşu yaşayırdıq. Çox insancıl ailə idi. Hər tərəfdən qonşularımız ermənilər idi. Ailənin qonşular arasında böyük hörməti var idi. Öz halal zəhməti ilə dolanan bu ailə Qarabağ müharibəsi nəticəsində bir neçə dəfə köçkün düşmüşdü. 1988-ci ilin məlum 18 sentyabr hadisəsi, o təlatümlü gecə Xankəndində yaşayan azərbaycanlıların hamısını heyrətə, təəccübə salmışdı. Xatirimdədir, həyəcanlı səslərdən eyvana çıxdım. Qarsalangil tərəfdən güclü yanğın gördüm. Qadınlar, uşaqlar qışqıra-qışqıra ağlayır, haray çəkirdilər. Çox keçmədi ki, bir neçə azərbaycanlı ailəsinin evi yandırıldı. Qorxudan hər tərəfi, evi, qapını açıq qoyaraq hamımız meşəyə və Kərkicahan qəsəbəsinə üz tutduq. Xankəndinin işğalından sonra Qənbərovlar ailəsi Xocalıya pənah gətirdilər. Xocalıya gələn bir çox köçkünlər kimi onlar da yenidən ev-eşik tikib, yeni həyat qurdular. Amma fevralın 25-dən 26-nə keçən gecə Ermənistan silahlı qüvvələri məşum Xocalı soyqırımını törətdilər və Qənbərovlar ailəsinin əksər üzvləri amansızlıqla qətlə yetirildi. Qənbərovlar ailəsindən Səfər, Mətanət, Emin, Esmira, Validə və Nadir Qənbərovlar soyqırımın qurbanı oldular. Ailədən sağ qalan sadəcə iki uşaq oldu: Rauf və bacısı...

## BİR NƏSLİN İTKİSİ



**Xocalı soyqırımı zamanı qətl edilən Bakir Məmmədov**

Xocalı torpağının əsilli-nəsilli yerli əhalisindən sayılan ailələrdən biri də Şükür kişinin ailəsi idi. Xocalıda firavan, xoşbəxt günlər yaşayırdılar. Oğul-uşaq sahibi idilər. Bu nəslin ömrün ixtiyar çağlarını yaşayanlar Qarabağda baş verən bir çox hadisələrin şahidi olmuşdular. Ermənilərin həmişə imkan tapan kimi arxadan zərbə vurduqlarını, onların zaman-zaman müsibətlər törətdiklərini ata-babalarından eşitmişdilər.

XX yüzilin sonlarında yenidən Qarabağ probleminin ortaya atılması və hadisələrin getdikcə uzanmasının mahiyyəti yaşlı xocalılara aydın idi. Lakin onlar belə olacağını, doğulduqları doğma torpağından (məhz gəlmələr tərəfindən) qovulacaqlarını ağıllarına gətirmirdilər...




**Xocalı soyqırımı zamanı yox edilən ailələrdən biri - Məmmədovlar ailəsi**

O faciəli günlərdə doğmalarını, yaxınlarını, elini-obasını itirən insanlardan təkcə Xocalının yox, bütün Qarabağın sayılıb-seçilən ziyalılarından olan **Bakir Məmmədovun** dediklərindən:

"Bəli, bu faciədə mən öz qardaşlarımı, qohumlarımı itirdim. Qardaşım Vaqifin ailəsi tamamilə məhv edildi. Həmin müdhiş gecə, digər xocalılar kimi Vaqif, onun həyat yoldaşı Afilə müəllimə, oğlanları Ceyhun, Azər və Niyaməddin də meşəyə üz tuturlar.

Bilirsiz, bir gün də olsun Xocalını tərk etməyən insanlar həmin gün güclü hərbi texnikanın, raket qurğularının dəhşətli hücumuna məruz qaldıqlarından və köməksiz qaldıqlarından Xocalını tərk etməyə məcbur oldular.

Qardaşımın ailə üzvlərinin hamısı meşədə qətlə yetirilib. İkinci qardaşım da öz ailəsi ilə əlində olan təklülə silahı ilə düşmənlə axırıncı gülləsinə kimi döyüşüb. Şahidlər deyir ki, o, üzərinə hücum edən bir neçə ermənini məhv edib. Ancaq taqətdən düşdükdən, gülləsi qurtardıqdan sonra düşmən onu əsir götürə bilib. Xocalıdan olan Oqtayın qətlə yetirildiyini, ümumiyyətcə orada baş vermiş hadisələri, sonradan mənə, Xankəndində saxlanılan Xocalı əsirləri söyləyirdilər."

## XOCALI SOYQIRIMI ZAMANI BİR VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARIN SİYAHISI

| | |
|---|---|
| 1. Əliməmmədov Pərviz Namiq oğlu | 1992 |
| 2. Qarayeva Lamiyə Yusifəli qızı | 1988 |
| 3. Qarayev Ramil Yusifəli oğlu | 1990 |
| 4. Quliyev Zahir Tahir oğlu | 1987 |
| 5. Quliyev Şəmkir Tahir oğlu | 1988 |
| 6. Həsənova Natəvan Rövşən qızı | 1981 |
| 7. Həsənov Rəvan Rövşən oğlu | 1985 |
| 8. Həsənova Nigar Rövşən qızı | 1990 |
| 9. Paşayeva Gülanə Elşad qızı | 1989 |
| 10. Paşayeva İlahə Elşad qızı | 1991 |
| 11. Şahmuradova Xatirə Nemət qızı | 1982 |
| 12. Şahmuradova Könül Nemət qızı | 1990 |
| 13. Şahmuradov Elçin Nemət oğlu | 1992 |
| İ4. İsmayılov İntiqam İnqilab oğlu | 1986 |
| 15. İsmayılova Tünzalə İnqilab qızı | 1988 |
| 16. İsmayılov Ələkbər İnqilab oğlu | 1990 |
| 17. Nəsibov Fazil Ramiz oğlu | 1990 |

| | |
|---|---|
| 18. Nəsibova Cəmilə Ramiz qızı | 1988 |
| 19. Quliyev Emin Əkbər oğlu | 1988 |
| 20. Quliyev Əkbər Əkbər oğlu | 1992 |
| 21. Haqverdiyev Bəxtiyar Davud oğlu | 1978 |
| 22. Haqverdiyeva Ceyhunə Davud qızı | 1979 |
| 23. Haqverdiyeva Mehri Davud qızı | 1981 |
| 24. Haqverdiyeva Solmaz Davud qızı | 1984 |
| 25. Haqverdiyev Yaşar Davud oğlu | 1986 |
| 26. Hüseynova Azadə Rəşid qızı | 1987 |
| 27. Hüseynov Samir Rəşid oğlu | 1990 |
| 28. Əliyev Tariyel Əbülfət oğlu | 1986 |
| 29. Əliyeva Gülnar Əbülfət qızı | 1988 |
| 30. Cabbarlı Nicat Azad oğlu | 1991 |
| 31. Cabbarlı Fuad Azad oğlu | 1990 |
| 32. Məmmədov Ruslan Məhəmməd oğlu | 1987 |
| 33. Məmmədov Həsən Məhəmməd oğlu | 1983 |
| 34. Səmədov İlkin Tariyel oğlu | 1987 |
| 35. Səmədova Sevinc Tariyel qızı | 1988 |
| 36. Kərimov Samran Sultan oğlu | 1994 |
| 37. Salmanova Nahidə Bəhmən qızı | 1987 |
| 38. Səmədov Elçin Həmid oğlu | 1981 |
| 39. Bəhmənov Səxavət Vaqif oğlu | 1980 |
| 40. Hüseynova Vüsalə Şakir qızı | 1983 |
| 41. Hüseynov Alqayıt Şakir oğlu | 1992 |
| 42. Ələsgərova Ayşən Vahid qızı | 1988 |
| 43. Ələsgərova Şahrun Vahid qızı | 1990 |
| 44. İmani Fəziyə Ağababa qızı | 1981 |
| 45. İmani Nasir Ağababa oğlu | 1987 |
| 46. Məmmədov Əli Əli oğlu | 1992 |
| 47. Mahmudov Nicat Akif oğlu | 1989 |

| | |
|---|---|
| 48. Mahmudov Elçin Akif oğlu | 1991 |
| 49. Qasımov Tofiq Yaşar oğlu | 1980 |
| 50. Qasımova Gülüstan Yaşar qızı | 1991 |
| 51. Əzimov Ceyhun Abbasqulu oğlu | 1981 |
| 52. Kazımov Tural Asif oğlu | 1990 |
| 53. Kazımova Pəri Asif qızı | 1992 |
| 54. İsmayılova Yeganə İsmayıl qızı | 1981 |
| 55. İsmayılov Amil İsmayıl oğlu | 1983 |
| 56. İsmayılova Günel İsmayıl qızı | 1987 |
| 57. Mehralıyev Nəsimi Əli oğlu | 1980 |
| 58. Mehralıyev İlqar Əli oğlu | 1986 |
| 59. Abbasova Səadət Taleh qızı | 1983 |
| 60. Abbasov Zaur Taleh oğlu | 1986 |
| 61. Abbasov Ziya Taleh oğlu | 1981 |
| 62. Hüseynov Samir Bakir oğlu | 1981 |
| 63. Cəfərova Samirə Tacir qızı | 1990 |
| 64. Behbudov Vaqif Vaqif oğlu | 1992 |
| 65. Əhmədova Vüsalə Yelmar qızı | 1986 |
| 66. Əhmədova Əfsanə Yelmar qızı | 1987 |
| 67. Əhmədova Salatın Yelmar qızı | 1991 |
| 68. Ağayev Nicat Vidadi oğlu | 1989 |
| 69. Hacıyeva Zarina Əlif qızı | 1982 |
| 70. Hacıyeva İradə Əlif qızı | 1990 |
| 71. Məmmədov İsmayıl Vaqif oğlu | 1988 |
| 72. Məmmədova Maya Vaqif qızı | 1985 |
| 73. Məmmədova Vüsalə Vaqif qızı | 1981 |
| 74. Məmmədova Sürəyya Vaqif qızı | 1990 |
| 75. Həsənzadə Babək Şöhrət oğlu | 1980 |
| 76. Hüseynova Yasəmən Tofiq qızı | 1980 |
| 77. Hüseynova Əfsanə Tofiq qızı | 1982 |

| | |
|---|---|
| 78. Hüseynov Murad Tofiq oğlu | 1985 |
| 79. Orucova Lamiyə Nəbi qızı | 1988 |
| 80. Abbasov Ələddin Kamran oğlu | 1981 |
| 81. Abbasova Bənövşə Kamran qızı | 1983 |
| 82. Abbasov Nəriman Kamran oğlu | 1986 |
| 83. Abbasov Əkbər Kamran oğlu | 1987 |
| 84. Qocayeva Samirə Loğman qızı | 1981 |
| 85. Qocayev Arif Loğman oğlu | 1985 |
| 86. Qocayev Qüdrət Loğman oğlu | 1990 |
| 87. Sadıqova Çinarə Hüseyn qızı | 1989 |
| 88. Sadıqova Zülfiyyə Hüseyn qızı | 1991 |
| 89. Sadıqov Elməddin Vaqif oğlu | 1985 |
| 90. Sadıqov Tapdıq Vaqif oğlu | 1988 |
| 91. Salahov Vüsal Namiq oğlu | 1990 |
| 92. Salahova Ülviyyə Namiq qızı | 1991 |
| 93. Mehdiyeva Sevinc Cavanşir qızı | 1991 |
| 94. Mehdiyeva İlahə Cavanşir qızı | 1993 |
| 95. Zeynalova Maya Məmməd qızı | 1982 |
| 96. Cavadov Vətən Vaqif oğlu | 1992 |
| 97. Hacıyeva Ayşən Allahverdi qızı | 1994 |
| 98. Cavadov Sədrəddin Xıdır oğlu | 1991 |
| 99. Cavadov Xıdır Xıdır oğlu | 1992 |
| 100. Abbasova Xəyalə Yunis qızı | 1982 |
| 101. Abbasova Elnarə Yunis qızı | 1984 |
| 102. Abbasova Vəfa Yunis qızı | 1987 |
| 103. Cavadova Göyçək Əmir qızı | 1983 |
| 104. Mirzəyeva Kəmalə Kamal qızı | 1986 |
| 105. Mirzəyev Tural Kamal oğlu | 1987 |
| 106. Həsənov Kəmaləddin Vahid oğlu | 1986 |
| 107. Həsənov Elməddin Vahid oğlu | 1988 |

| | |
|---|---|
| 108. Həsənova Aygün Vahid qızı | 1990 |
| 109. Zeynallı Zabit Tahir oğlu | 1990 |
| 110. Zeynallı Tahirə Tahir qızı | 1991 |
| 111. Şükürova Nazlı Vəkil qızı | 1985 |
| 112. Şükürov Bəzirgan Vəkil oğlu | 1988 |
| 113. Şükürova Şahnaz Vəkil qızı | 1989 |
| 114. Şükürov Cavidan Vəkil oğlu | 1990 |
| 115. Əhmədov Valeh Vaqif oğlu | 1986 |
| 116. Əhmədov Tağı Valeh oğlu | 1990 |
| 117. Əhmədov Vahid Vaqif oğlu | 1991 |
| 118. Zeynalova Sevda Osman qızı | 1986 |
| 119. Zeynalova Elza Osman qızı | 1988 |
| 120. Zeynalov Seymur Osman oğlu | 1990 |
| 121. Zeynalova Aybəniz Osman qızı | 1991 |
| 122. Əliyeva Xatirə İlham qızı | 1985 |
| 123. Şahmuradov Fərid Natiq oğlu | 1985 |
| 124. Əmirxanlı Günel Natiq qızı | 1989 |
| 125. Səmədov Səbuhi Gündüz oğlu | 1986 |
| 126. Səmədov Pərviz Gündüz oğlu | 1988 |
| 127. Səfərova Vüsalə Orduxan qızı | 1986 |
| 128. Səfərova Vəfa Orduxan qızı | 1987 |
| 129. Səfərov Kənan Şahverdi oğlu | 1990 |
| 130. Həsənov Rəhman Telman oğlu | 1985 |
| 131. Həsənov Mehman Telman oğlu | 1987 |
| 132. Həsənova Hicran Telman qızı | 1988 |
| 133. Həsənov Felmar Telman oğlu | 1989 |
| 134. Həsənova Tofiqə Telman qızı | 1991 |
| 135. Quliyev İdris İslam oğlu | 1989 |
| 136. Quliyeva Mətanət İslam qızı | 1990 |

| | |
|---|---|
| 137. Rzayeva Aynur Tapdıq qızı | 1990 |
| 138. Rzayev Kənan Tapdıq oğlu | 1991 |
| 139. Salahov Elşad Əsgər oğlu | 1983 |
| 140. Salahov Elşən Əsgər oğlu | 1985 |
| 141. Salahov Hacı Əsgər oğlu | 1988 |
| 142. Salahova Mətanət Əsgər qızı | 1990 |
| 143. Salahov Vüsal Natiq oğlu | 1986 |
| 144. Salahova Ülviyyə Natiq qızı | 1988 |
| 145. Hüseynov Qalib Hüseyn oğlu | 1983 |
| 146. Hüseynov Seyhun Hüseyn oğlu | 1985 |
| 147. Hüseynov Maqsud Hüseyn oğlu | 1987 |
| 148. Hüseynova Könül Hüseyn oğlu | 1989 |
| 149. Qarayeva Raifə Asif qızı | 1989 |
| 150. Qarayev Maarif Asif oğlu | 1991 |
| 151. Babayev Səyyad Bəbir oğlu | 1986 |
| 152. Babayeva İltima Bəbir qızı | 1987 |
| 153. Babayeva Minurə Bəbir qızı | 1990 |
| 154. Şükürova Zəminə Vəkil qızı | 1991 |
| 155. Quliyev Anar Mətləb oğlu | 1986 |
| 156. Quliyeva Lalə Mətləb qızı | 1988 |
| 157. Quliyev Alim Mətləb oğlu | 1990 |
| 158. Mehralıyev Əli Əli oğlu | 1990 |
| 159. Hümbətov Əvəz Bəhlul oğlu | 1986 |
| 160. Quliyev Xəzani Şükür oğlu | 1979 |
| 161. Əsgərov Kənan Xəzani oğlu | 1985 |
| 162. Əsgərov Xəyyam Xəzani oğlu | 1988 |
| 163. Əsgərov Sənan Xəzani oğlu | 1990 |
| 164. Əsgərov Ağakişi Xəzani oğlu | 1993 |

| | |
|---|---|
| 165. Həsənov Nəsir Tabil oğlu | 1987 |
| 166. Həsənova Dürdanə Tabil qızı | 1989 |
| 167. Həsənova Qəndab Tabil qızı | 1991 |
| 168. Bayramov Kamal Cəllad oğlu | 1984 |
| 169. Bayramova Zərifə Cəllad qızı | 1985 |
| 170. Bayramova Sveta Cəllad qızı | 1980 |
| 171. Məmmədova Sara Qasım qızı | 1980 |
| 172. Zeynalov Elnur Eldar oğlu | 1986 |
| 173. Zeynalov Eyvaz Eldar oğlu | 1989 |
| 174. Həsənov Murad Əli oğlu | 1982 |
| 175. Həsənova Bahar Əli qızı | 1987 |
| 176. Həsənova Gözəl Əli qızı | 1990 |
| 177. Səlimova Aygün Araz qızı | 1987 |
| 178. Səlimova Aytəkin Araz qızı | 1986 |
| 179. Səlimov İlqar Araz oğlu | 1989 |
| 180. Ələkbərov Amid Təvəkkül oğlu | 1982 |
| 181. Zeynalov Elşad Tofiq oğlu | 1981 |
| 182. Usubov Elmir Zakir oğlu | 1991 |
| 183. Usubova Nərmin Zakir qızı | 1992 |
| 184. Quliyeva Zərifə Taleh qızı | 1992 |
| 185. İmani Həbib Malik oğlu | 1980 |
| 186. İsmayılova Ülviyyə Vidadi qızı | 1992 |
| 187. Səfiyeva Süsən Elxan qızı | 1988 |
| 188. Məmmədov Ramil Yaşa oğlu | 1980 |
| 189. Məmmədova Elnarə Yaşa qızı | 1981 |
| 190. Məmmədova Samirə Yaşa qızı | 1987 |
| 191. Məmmədov Amil Yaşa oğlu | 1992 |
| 192. Allahverdiyeva Günel Ziyadxan qızı | 1988 |

| | |
|---|---|
| 193. Allahverdiyev Anar Ziyadxan oğlu | 1990 |
| 194. Allahverdiyev Qalib Ziyadxan oğlu | 1992 |
| 195. Allahverdiyev Elgiz Novruz oğlu | 1979 |
| 196. Əmirli Vüsal Kamil oğlu | 1988 |
| 197. Əmirli Aytac Kamil qızı | 1991 |
| 198. Əmirli Amil Kamil oğlu | 1992 |
| 199. Muradov Zahid Zahid oğlu | 1992 |
| 200. Çobanov Teymur Tapdıq oğlu | 1979 |
| 201. Çobanov Seymur Tapdıq oğlu | 1980 |
| 202. Həşimova Nişanə Səlim qızı | 1992 |
| 203. Əzizov Qalib Hüseyn oğlu | 1980 |
| 204. Əzizov Vüqar Hüseyn oğlu | 1984 |
| 205. Əzizova Rahidə İbrahim qızı | 1981 |
| 206. Abbasova Zenfira Vəliyəddin qızı | 1987 |
| 207. Abbasova Reyhan Vəliyəddin qızı | 1990 |
| 208. Nəbiyeva Tutu Məhiyəddin qızı | 1980 |
| 209. Həsənov İbrahim Ramil oğlu | 1981 |
| 210. Kərimova Firəngül Məmməd qızı | 1986 |
| 211. Məmmədova Xatirə Vasif qızı | 1992 |
| 212. Kərimov İntiqam İntiqam oğlu | 1992 |
| 213. Həmdiyeva Gülnarə Usdab qızı | 1986 |
| 214. Həmdiyev İslam Usdab qızı | 1987 |
| 215. Həmdiyeva Gülarə Usdab qızı | 1988 |
| 216. Həmdiyeva Xalidə Usdab qızı | 1991 |
| 217. Əzizov Elzamin Əzim oğlu | 1980 |
| 218. Əliyeva Xatirə İlham qızı | 1992 |
| 219. Əliyeva Ülviyyə Rasim qızı | 1990 |
| 220. Quliyev Şaiq Şəmsi oğlu | 1984 |

| | |
|---|---|
| 221. Quliyeva İlahə Şəmsi qızı | 1986 |
| 222. Quliyeva Şahnaz Şəmsi qızı | 1988 |
| 223. Novruzova Piyalə Ələsgər qızı | 1981 |
| 224. Novruzov Ülvi Ələsgər oğlu | 1983 |

## XOCALI SOYQIRIMI ZAMANI VALİDEYNLƏRİ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN QƏTLƏ YETİRİLMİŞ VƏ HƏMİN QƏTLİAMIN ŞAHİDİ OLMUŞ UŞAQLARIN XATİRƏLƏRİ

### *"ATAMI, ANAMI GÖZLƏYİRƏM...»*

İndi Xocalıdan olan uşaqların hansı birindən soruşsan, ağlı kəsənlər o müdhiş gecənin dəhşətlərindən danışacaqlar. Onlardan biri də **Həmayil Tahir qızı Xəlilovadır.**

Xocalı hadisəsindən sonra, Bakı şəhərinə gəldiyim zaman bu uşaqla görüşdüm. Həmin vaxt onun 6-7 yaşı olardı. Ancaq düşüncəsi, danışığı... sözlə deyiləsi deyildi. Bu uşaq bir an olsun belə o faciəli gecəni unuda bilmir. Xatırladıqca göz yaşı durmadan axır, axır və atası ilə vidalaşma səhnəsini danışanda bir körpənin yaşadığı iztirablar adamı dəhşətə gətirir, göz yaşlarımızı boğa bilmirik...



***Həmayilin dediklərindən:*** *"Biz üç bacı idik. Həmin günlər mənim yaddaşıma əbədi həkk olunub. Biz ailəmizlə birlikdə meşəyə qaçdıq. Atam mənim əlimdən tutmuşdu. Bacımın birini anam, birini isə nənəm götürmüşdü. Bir az keçmişdi, uşaqlar ağlamağa başladılar. Atılan mərmilərdən gecə olmasına baxmayaraq hər tərəf aydın görünürdü. Qrad mərmiləri göydən yağış kimi yağırdı. Xeyli getmişdik ki, anamdan, nənəmdən ayrı düşdük. Mən atamın əlindən tutmuşdum. O gecə elə bir təbiət qan ağlayırdı. Çoxlu qar yağmışdı, şaxta adamı kəsirdi. Atam gah mənim əlimdən tutur, gah da döyüşürdü. Biz səhər açılana qədər qaçdıq. Hündür bir təpənin üstündə ermənilər atamı güllə ilə vurdular. Atam yıxıldı. Halı get-gedə pisləşirdi, heç sürünə də bilmirdi. Ermənistan silahlıları çox yaxında idi. Mən atamın yanında oturdum, soruşdum ki, ağrıyan yerin varmı, dedi yox, heç bir yerim ağrımır. Atam uzanıqlı halda qalmışdı. Bizə yaxın olan Kamal dayı ona kömək*

*etmək istədi. Ancaq o, ayağa dura bilmədi. Atam ondan xahiş etdi ki, mənim qızımı da Ağdama doğru apar özünlə, aman günüdü, qoyma burda qalsın, ələ keçər, öldürərlər... Mən bir az aralanmışdım ki, atam "bəs sən atanı öpmədin?" deyə məni geri çağırdı. Aman Allah... Qayıdıb atamın boynunu qucaqladım, üzündən öpdüm. O da mənim üzümdən öpdü, dedi, get, qızım, mən də gələcəm. O, mənim üzümdən sonuncu dəfə öpdü. Bu mənim atamla son vida görüşüm, son atalı anlarım idi. O səhnə heç vaxt gözlərimin önündən getmir..."*

**Həmayil hıçqırıqlarını boğaraq sözünə davam edir:**

*"...Ermənistan silahlıları gecə evlərimizə hücum edəndə, atəş altında, güllə yağışı altında o qaçhaqaçda anam Zərifədən və körpə bacım Lalədən, babam Qaçaydan ayrı düşmüşdük. Sonradan məlum oldu ki, onların hamısını vəhşicəsinə qətlə yetiriblər. Uşaq yaşlarımdan həm anamı həm də atamı özü də belə dəhşətli şəkildə itirməyim mənim üçün çox ağırdır. Hərdən Xocalı soyqırımının videolentləri göstəriləndə əziyyətlə qətlə yetirilmiş anamın, atamın, bacımın, babamın meyitlərini görürəm. Ancaq məni ən çox incidən dünya ictimaiyyətinin bizim kimi uşaqların yaşadıqları bu dəhşətli faciələrə, bizim əzablarımıza laqeyidliyidir.*

*Bizim nə günahımız var idi? Biz atasız-anasız böyüməyə məcbur olduq. Bunu törədənlər isə neçə illər keçib amma hələ də cəzasını almayıblar. Bəs ədalət hardadır?*

*Atamın-anamın başqa cür qoxusu var idi. Mən o qoxunu heç kəsdən ala bilmirəm. Həmişə o qoxu üçün darıxıram. "*

**Həmayil danışır, həyəcanımızı boğa bilmirik. Axı onu necə ovundurmaq olar?!. - Kimin nəvazişi ata-ana nəvazişini əvəz edə bilər?!.**

## XOCALI SOYQIRIMI ZAMANI ERMƏNİSTAN TƏRƏFİNDƏN ƏSİR VƏ GİROV GÖTÜRÜLMÜŞ, İTKİN DÜŞMÜŞ VƏ BU GÜNƏDƏK TALEYİ MƏLUM OLMAYAN XOCALI SAKİNLƏRİNİN SİYAHISI

| *Soyadı, adı, atasının adı* | *Təvəllüdü* |
|---|---|
| 1. Aslanova Elnarə Tofiq qızı | 1978 |
| 2. Əsədov Yalçın Asif oğlu | 1957 |
| 3. Əliyev Firdovsi İsa oğlu | 1956 |
| 4. Əliyeva Heyran Mürşüd qızı | 1962 |
| 5. Əliyev Elçin Firdovsi oğlu | 1982 |
| 6. Əliyev Elgiz Firdovsi oğlu | 1984 |
| 7. Paşayev Ələddin Bəhlul oğlu | 1961 |

| | |
|---|---|
| 8. Kərimov İntiqam Şahmalı oğlu | 1960 |
| 9. Əzizov Əzim Məşədi oğlu | 1911 |
| 10. Məmmədov Zahir Ramiz oğlu | 1975 |
| 11. Məmmədov Razmik Suren oğlu | 1965 |
| 12. Həsənova Günəş Əbdül qızı | 1910 |
| 13. Həsənova Məxmər Ələkbər qızı | 1942 |
| 14. Həsənova Qətibə Mirsiyab qızı | 1951 |
| 15. Quliyeva Sara Hüseyn qızı | 1955 |
| 16. Quliyeva Rəvanə Qaryağdı qızı | 1979 |
| 17. Quliyeva Nuranə Qaryağdı qızı | 1981 |
| 18. Quliyev Şükür Qaryağdı oğlu | 1985 |
| 19. Hüseynov Çingiz Usub oğlu | 1955 |
| 20. Allahyarov Etibar Baloğlan oğlu | 1968 |
| 21. Ağayarov Nəbi İsaq oğlu | 1981 |
| 22. Ağayarova Sevinc İsaq qızı | 1985 |
| 23. Ağayarov Roman İsaq oğlu | 1986 |
| 24. Mehdiyeva Gülmirə Murad qızı | 1989 |
| 25. Şahverdiyev Vüqar Mamed oğlu | 1973 |
| 26. Quliyev Zakir Lətif oğlu | 1965 |
| 27. Məmmədov Saday Süleyman oğlu | 1936 |
| 28. Qəmbərova Mətanət Hacı qızı | 1967 |
| 29. Qəmbərov Səfər Qarsalan oğlu | 1961 |
| 30. Qəmbərov Nadir Qarsalan oğlu | 1971 |
| 31. Qəmbərova Validə Boran qızı | 1941 |
| 32. Qəmbərov Qarsalan Boran oğlu | 1939 |
| 33. Qəmbərova Esmira Səfər qızı | 1985 |
| 34. Qəmbərov Emin Səfər oğlu | 1986 |
| 35. Allahverdiyev Ziyadxan Salah oğlu | 1957 |
| 36. Allahverdiyev Novruz Salah oğlu | 1947 |

| | |
|---|---|
| 37. Allahverdiyev Mahir Novruz oğlu | 1974 |
| 38. Usubov Əlyar Kamran oğlu | 1967 |
| 39. Usubov Elşad Kamran oğlu | 1974 |
| 40. Usubov Zakir Kamran oğlu | 1965 |
| 41. Usubov Səyavuş Ramiz oğlu | 1971 |
| 42. Zeynalov Tofiq Aslan oğlu | 1959 |
| 43. Zeynalov Eldar Aslan oğlu | 1963 |
| 44. Səfiyev Elxan Nəsib oğlu | 1961 |
| 45. Həmidova Kifayət Çıraq qızı | 1956 |
| 46. Bağırov Elşən Həsən oğlu | 1965 |
| 47. Hüseynova Mehriban Allahverdi qızı | 1965 |
| 48. Hüseynov Rəcəb Elxan oğlu | 1984 |
| 49. Hüseynova Şəbnəm Elxan qızı | 1986 |
| 50. Hüseynov Məshər Elxan oğlu | 1991 |
| 51. Məmmədov Kamil Əmir oğlu | 1958 |
| 52. Mustafayeva Yaxşı Mehdiqulu qızı | 1900 |
| 53. Əliyev Ülfət İman oğlu | 1974 |
| 54. Hüseynova Rəsmiyyə Aleksandr qızı | 1968 |
| 55. Hüseynov Emin Aleksandr oğlu | 1975 |
| 56. Ağalarov Sadiq Şirxan oğlu | 1932 |
| 57. Ağalarova Güllü Surxay qızı | 1934 |
| 58. Səmədov Taryel Bəylər oğlu | 1964 |
| 59. Abbasov Vəlyəddin Umudvar oğlu | 1963 |
| 60. Cəfərov Məhəmmədəli Vəlikişi oğlu | 1895 |
| 61. Cəfərova Bağdad Həsən qızı | 1910 |
| 62. Səlimova Adilə Allahverdi qızı | 1930 |
| 63. Əliyeva Xavər Yusif qızı | 1928 |
| 64. Əliyeva Svetlana Cavanşir qızı | 1957 |
| 65. Orucov Fazil Ənvər oğlu | 1981 |

| | |
|---|---|
| 66. Səlimov Seydi Mikayıl oğlu | 1934 |
| 67. Hüseynova Məxmər Qurban qızı | 1949 |
| 68. Mikayılov Mirsiyab Həsrət oğlu | 1922 |
| 69. Hüseynova Minəş Cümşüd qızı | 1934 |
| 70. Hüseynov Bakir Mirsiyab oğlu | 1956 |
| 71. Behbudova Sürəyya İbrahim qızı | 1930 |
| 72. Behbudova Gülnaz Yusif qızı | 1962 |
| 73. Behbudova Gülbahar Yusif qızı | 1968 |
| 74. Abışova Məhbubə Qurban qızı | 1960 |
| 75. Abışova Çinarə Nazim qızı | 1982 |
| 76. Abışov Çingiz Nazim oğlu | 1985 |
| 77. Abışova Mədinə Bədirxan qızı | 1908 |
| 78. Kərimov Sultan Samran oğlu | 1969 |
| 79. Abışova Minarə Rəhim qızı | 1910 |
| 80. Abışov Mobil Mövsüm oğlu | 1968 |
| 81. İsmayılov İbiş Kərim oğlu | 1938 |
| 82. Məhərrəmov Vaqif Cəmil oğlu | 1951 |
| 83. Məhərrəmova Bəsirə Əli qızı | 1956 |
| 84. İsmayılova Mənzər Məşdi qızı | 1908 |
| 85. Həsənov Rövşən Qaçay oğlu | 1958 |
| 86. İbrahimov Əlixan Xəlil oğlu | 1955 |
| 87. İbrahimova Fatma Məşədi qızı | 1959 |
| 88. Əbdülov Yelmar İsgəndər oğlu | 1949 |
| 89. Əbdülov Zahid Yelmar oğlu | 1973 |
| 90. Ələkbərov Əsgər Qurban oğlu | 1930 |
| 91. Ağayev Allahverdi Səttar oğlu | 1982 |
| 92. Aslanova Gülsabah Qəyyum qızı | 1972 |
| 93. Hacıyev Süleyman Lətif oğlu | 1949 |
| 94. Məmmədov Vaqif Şükür oğlu | 1940 |

| | |
|---|---|
| 95. Məmmədova Afilə İbrahim qızı | 1949 |
| 96. Məmmədov Azər Vaqif oğlu | 1972 |
| 97. Məmmədov Ceyhun Vaqif oğlu | 1975 |
| 98. Məmmədov Niyaməddin Vaqif oğlu | 1978 |
| 99. Əliməmmədov Namiq Şahmalı oğlu | 1962 |
| 100. Haqverdiyev Şahin Məşid oğlu | 1962 |
| 101. Şahmuradov Nemət Musa oğlu | 1962 |
| 102. Məmmədova Səltənət Zülal qızı | 1931 |
| 103. Məmmədova Lətifə İbad qızı | 1958 |
| 104. Əliyev Səbuhi Cahangir oğlu | 1978 |
| 105. Əliyev Səlim Cahangir oğlu | 1985 |
| 106. Orucov Cavan Canan oğlu | 1976 |
| 107. Quliyev Natiq Vəlyəddin oğlu | 1972 |
| 108. Qarayev Usubəli Süleyman oğlu | 1961 |
| 109. Əbdülov Məzahir Yaqub oğlu | 1960 |
| 110. Səlimova Tamilə Ağamalı qızı | 1936 |
| 111. Səlimov Xəzər Səyavuş oğlu | 1974 |
| 112. Məmmədov Şövkət İbad qızı | 1964 |
| 113. Cəfərov Samir Tacir oğlu | 1987 |
| 114. Behbudov Zeynal Məmməd oğlu | 1926 |
| 115. Boranov Maqsud Alı oğlu | 1928 |
| 116. Abbasova Həmayıl Canış qızı | 1940 |
| 117. Abbasova Suqra Əliş qızı | 1917 |
| 118. Vəliyeva Nazilə Kamil qızı | 1966 |
| 119. Vəliyev Ağasəf Zakir oğlu | 1986 |
| 120. Vəliyeva Güldan Zakir qızı | 1989 |
| 121. Hüseynov Vüqar Hilal oğlu | 1971 |
| 122. İlyasov Məhəmməd İlyas oğlu | 1940 |

| | |
|---|---|
| 123. Əhmədova Sərfinaz Muxtar qızı | 1900 |
| 124. İlyasov Əhməd Məmməd qızı | 1968 |
| 125. Əhmədov Natiq İlyas oğlu | 1968 |
| 126. Əliməmmədov Faiq Şahmala oğlu | 1969 |
| 127. Məmmədov Məmməd Rəhim oğlu | 1935 |
| 128. Məmmədov Söhbət Məmməd oğlu | 1976 |
| 129. Binəliyev Əlili Gülalı oğlu | 1967 |
| 130. Binəliyev Cabbar Gülalı oğlu | 1969 |
| 131. Bədirov Əli Rəis oğlu | 1968 |
| 132. Məmmədov Aydın Qurban oğlu | 1964 |
| 133. Şahverənov Məhərrəm Çodar oğlu | 1930 |
| 134. Nəsirova Tatyana Dimitriyevna | 1952 |
| 135. Boris Dimitri Nikolayev | 1930 |
| 136. Hümbətova Simuzər Cənnət qızı | 1976 |
| 137. Hümbətov Muğan Cəlil oğlu | 1973 |
| 138. Hüseynov Hüseyn İsmayıl oğlu | 1934 |
| 139. Hüseynov Əziz Alış oğlu | 1956 |
| 140. Hüseynova Xoşbəxt Hüseyn qızı | 1963 |
| 141. Hüseynova Süsən Hüseyn qızı | 1971 |
| 142. Hüseynova Emma Hüseyn qızı | 1969 |
| 143. Hüseynov Zöhrab Hüseyn oğlu | 1971 |
| 144. Əzizov Mehman Qüdrət oğlu | 1959 |
| 145. Cəfərov Nüsrət Fazil oğlu | 1975 |
| 146. Həşimov Şövkət Şükür oğlu | 1943 |
| 147. Ağayev Vidadi Səmcadin oğlu | 1960 |
| 148. Şahmuradov Namiq Əmirxan oğlu | 1965 |
| 149. Ələsgərov Məzahir Məhərrəm oğlu | 1969 |
| 150. Əliyev Ayaz Elman oğlu | 1971 |

| | |
|---|---|
| 151. Zeynalov Osman Bahadur oğlu | 1959 |
| 152. Rzayev İldırım Barat oğlu | 1970 |
| 153. Quliyev Şükür Bərxudar oğlu | 1949 |
| 154. Quliyeva Məxmər Xanlar qızı | 1930 |
| 155. Hüseynova Qızbəs Mərdan qızı | 1934 |

## ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN ƏSİR VƏ GİROV GÖTÜRDÜYÜ, İŞGƏNCƏLƏR VERDİYİ VƏ AZƏRBAYCANIN, BEYNƏLXALQ TƏŞKİLATLARIN DƏSTƏYİ İLƏ XEYLİ MÜDDƏT SONRA ÇOX ÇƏTİNLİKLƏ GERİ ALA BİLDİYİ XOCALI SAKİNLƏRİNİN DƏHŞƏT SAÇAN ƏSİRLİK XATİRƏLƏRİ:



**Səttar Muxtar oğlu Ağayev:**

- Həmin gecəni çox ağır düşüncələrlə xatırlayıram. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə idi. Postdan yenicə qayıtmışdım ki, güclü partlayış səsi eşidildi. Eyvana çıxanda dəhşətli çığırtı gəldi. Ailəmlə birlikdə evdən çıxdıq. Hamı kimi mən də ailəni dərə-təpə ilə meşəyə - nisbətən təhlükəsiz yerə apardım. 10 yaşlı oğlum Vüsalı mən götürmüşdüm. Səhərə qədər yol getdik. Lakin meşədə oğlum Vüsalın ayağı donmuşdu. Onu belimdə xeyli gətirdim. Lakin səhər açılmışdı ki, meşədə ölüb-qalanlar, soyuqdan donanları görəndə yeriməyə taqətim qalmadı. Ayaqlarım həm yaralanmış, həm də donmuşdu. Uşaq acından ağlayırdı, heç nə yox idi, heç nə ona verməyə... Beləcə uşağım acından, şaxtadan donaraq öldü. Vüsalın meyitini tək qoyub gedə bilmirdim. Bu vaxt ermənilər məni əsir götürdülər. Mən 36-gün əsirlik həyatının ən dəhşətli günlərini yaşadım. Fevralın 28-də ermənilərin ölüm düşərgəsində (bura həqiqətən də ölüm düşərgəsi idi) 250-yə qədər Xocalı sakini var idi. Bir gün ermənilər gəlib bizdən 13 nəfəri seçib apardılar və güllələdilər. 10 sutkadan sonra bizə 50 qr. çörək verdilər. Nə qədər çeynədimsə uda bilmədim. 2 nəfərə 1 stəkan su verirdilər. Artıq ayaqlarımda çürümə gedirdi.

Mənə o qədər ağır işgəncələr verdilər ki... Ağzımdan dişlərimin hamısını çəkib çıxartdılar. Sonra ermənilər məni başqa otağa apardılar. Burada, milli orduda xidmət edən döyüşçülərimizin meyitlərini üst-üstə yığmışdılar. Birdən meyitin birinin üzünü açdılar. Mən milli orduda xidmət edən ikinci oğlum Zahidin meyitini

gördüm. Özümü itirdim. Ayılanda mənə ağır işgəncə verməyə başladılar. Məni və oğlumun meyitini təpikləyirdilər.

Biz əsirləri hər gün döyür, incidirdilər. Ayaq dırnaqlarımızı çıxarırdılar, kimin ağzında dişi qalmışdısa onların dişlərini çəkirdilər.

Təpiklə, avtomatın qundağı ilə bizə olmazın əzablar verirdilər. Yanımda olan əsir yoldaşlarımın çoxu qan itirməkdən faciəli şəkildə həlak oldu. Heç mən də sağ qalmağıma şad deyiləm. İki oğlumu öldürdülər, meyitlərini də vermədilər...

Mən, iki məzarsız şəhid atası olaraq, bütün dünya ictimaiyyətini, nüfuzlu ölkələrin parlamentlərini bizə qarşı törədilən bu soyqırıma, insanlıqdan kənar cinayətlərə biganə qalmamağa çağırıram. Bunu törədənlər, insanlıq adına utanc gətirən vəhşiliklər törədənlər öz cəzalarını çəkməlidirlər.

Mənim vaxtilə yaratdığım, ağsaqqallardan ibarət Müdafiə Şurasında çiyin-çiyinə vuruşduğum yoldaşlarım artıq bu gün həyatda yoxdurlar. O şəhidlərimizin adlarını xatırlatmaq istərdim: Beyvələnd, Qaçay, Mürşüd, Zəkəra, Fəxrəddin, Rəşid, Əvəz, Məhəmməd, Seyidi, Tahir, Tofiq, Vaqif, Bahadur, Novruz, Əli, Allahverdi, Əsgər, Abbas, Əkbər, Tahid, Hüseyn, Məhərrəm, Səfəralı, Əli, İdayət, Elman, Tofiq. Bəli bu insanlar o, dəhşətli, faciəvi gecənin qırğınından qurtula bilmədilər. İllər ötür, mənimsə gözüm həmişə bu vətənpərvər, günahları öz doğma yurdlarında haqq-ədaləti, qocaları, körpələri müharibə alovundan qorumaq olmuş insanları axtarır. Allah onların ruhlarının şad edəcəyimiz günü - Xocalını qaytaracağımız günü, bu qanı yerdə qoymadığımız günü görməyi mənə çox görməsin, inşallah!

Gecə-gündüz doğma ata-baba yurdumuzun azad olunacağı günü gözləyirəm. Övlad nisgili ağır olur. 36 günlük əsirlik günümdə Allah günaha yazmasın, ölüm mənə qismət olmadı. İstəyirəm, dünya ictimaiyyəti ermənilərin mənə, digər əsir və girovlara verdikləri müsibətlərlə, dəhşətlərlə tanış olsunlar, bizimlə görüşsünlər. Bizim, şəxsən mənim onlara deməyə çox sözüm var.

***(Qeyd-1. Səttar Ağayev** 1988-ci ildə Xocalıda ağsaqqallardan ibarət 19 nəfərlik dəstə yaratmışdı. Dəstəyə də bilavasitə özü başçılıq edirdi. Bu ağsaqqallar, vəhşiləşmiş nankor qonşulardan - ermənilərdən qorunmaq üçün gecəli-gündüzlü postlarda qalır, əhalini hücumlardan müdafiə edirdilər.*

***Qeyd-2.** Xocalı 1988-ci ildən 1992-ci ilə kimi yerli özünümüdafiə batalyonu hesabına müdafiə olunub. Çünki SSRİ dövründə Azərbaycanın müstəqil ordusu yox idi. İnsanlara silah saxlamaq qadağan idi. Azərbaycanlılardan ov tüvəngini belə zorla yığdıran o zamanki SSRİ rəhbərliyi, digər tərəfdən Ermənistanın silahlanmasına dəstək göstərirdi, SSRİ-nin dağılmasından sonra onun varisi kimi Rusiya da bu siyasəti davam etdirdi. Qarşılıqsız olaraq Ermənistana çoxlu sayda silah-sursat verdilər. Azərbaycan torpaqlarını işğala başlayan tamamilə silahlanmış ermənilərin qarşısında dayanmaq silahsız, çox az sayda yüngül silahlara malik olan azərbaycanlılar üçün çətindən çətin idi. Ordu olmadığına görə sadə insanlar könüllü qruplar, batalyonlar yaradaraq torpaqlarını, insanları*

*bacardıqları kimi qoruyurdular. Səttar kişinin övladları Zahid və Zahir də atalarının yanında Xocalını müdafiə edirdilər.*

***Səttar Ağayev** zəhmətkeş bir insandır, adi fəhlə olub, sovxozda briqadir işləyib. Bu insan ağlına belə gətirə bilməzdi ki, bir gün gələcək, qurub-yaratdığı halal həyatı alt-üst olacaq...*

...Xocalı 4 il gecə-gündüz döyüşdü, müdafiə olundu. Amma o imkanlarla, daha doğrusu, o imkansızlıqla ancaq 4 il olurdu...)

## ZABİLƏ ALLAHVERDİ QIZI AĞAYEVA



**Xocalı soyqırımı şahidi Zabilə Ağayeva**

*1941-ci ildə Xocalıda doğulub. 5 qız, 5 oğul anasıdır. Xocalıda Qala dərəsi adlanan kənddə yaşayırdılar. Çox zəhmətkeş olan bu qadının əzablı, müsibətli günləri haqqında özü danışır:*

Fevralın 26-sı günü güclü atışma səsi eşitdim. Bir az keçməmiş Xankəndindən atılan qrad mərmisi gəlib bizim evin üstünə düşdü. Evin bir tərəfi uçdu. Uşaqlarım Zahid, Sərdar, Sərvər və Vüsalla birlikdə tələsik meşəyə üz tutduq. Qışqırtı və ağlaşmadan qulaq tutulurdu. Gecədən səhərə qədər meşədə yol getdik. Lakin meşədə azdıq. Xanbağına, yəni Xankəndinə tərəf gəldiyimizi bildikdən sonra özümü itirdim. Meşədə hamımız bir-birimizdən ayrı düşdük. 10 yaşlı Vüsalı əlimdən buraxmışdım. Uşaq yorulub taqətdən düşmüşdü. Xeyli vaxt kürəyimə bağlayıb gətirirdim. Həm ac, həm də soyuqdan donmuş uşağın taqəti yox idi. Tez-tez mənə deyirdi ki, ana, məni qoy get. Bir az getmişdim ki, oğlum Zahidə rast gəldim. O, əlində avtomat döyüşürdü. Mənə dedi ki, ana, bacarırsan qaç, get. Mən də qız-gəlinlərə kömək edib gələcəm. Elə bu zaman taqətdən düşüb yeriyə bilmədiyimə görə uşağı, 10 yaşlı Vüsalımı atasına verdim. O biri uşaqlarımdan xəbərim olmadı. Meşədə donmuş insanların, güllə yarasından can verən, huşunu itirən, ayaqlarını don vuran, qaçarkən ayaqqabıları ayağından çıxmış insanları gördükcə az qalırdı huşumu itirəm.



**Zabilə Ağayevanın Xocalı soyqırımı zamanı qətl edilən oğlu Zahid Ağayev**

Mən anayam. Ana kimi, qadın kimi gözlərim ən ağır qanlı cinayətlərin şahidi oldu. Yolda Qədim kişiyə rast gəldim. Mənə dedi ki, biz azmışıq. - Doğru

deyirdi. - Xeyli qız-gəlinlə, yaşlı qadınlarla birlikdə əsir düşdük. Bir tərəfdən aclıq, bir tərəfdən donmuş ayaqlarımız sözümüzə baxmırdı. Qorxudan, həyəcandan dəli olmaq dərəcəsinə çatırdım. Ermənilər hər ağacın, hər kolun budağını güllələyirdilər.



**Zabilə Ağayevanın Xocalı soyqırımı zamanı qətl edilən oğlu Vüsal Ağayev**

Yadımdadır, bir erməni qadınlara əmr etdi ki, kimin üstündə nə qızılı varsa hamısını təhvil versin. Qadınlar barmaqlarındakı nişan üzüyünü, qulaqlarından sırğalarını çıxarıb verdilər.

Sonra kimin ağzında nə qədər qızıl dişi var idisə hamısını çəkdilər. Özü də diş kəlbətini ilə deyil, adi məişətdə işlədiyimiz kəlbətinlə. İnsanların qışqırtısı göyə qalxmışdı.

Biz səhərə qədər meşədə qaldıq. Səhər ermənilər əsir düşənlərin hamısını Dəhraza apardılar. Əsirləri elə döyürdülər ki, qışqırıq, haray, fəryad, nalə göyün ərşinə qalxmışdı. Biz vəhşi, barbar, qaniçən adamlardan canımızı qurtarmaq üçün yeri, göyü özümüzə köməyə çağırırdıq. Qorxurduq. Bir erməni mənə yaxınlaşıb dedi ki, Xocalıda bizim əlimizdən hara qaçıb canınızı qurtarmaq istəyirdiniz? Mən də dedim ki, siz qovurdunuz, biz də qaçırdıq.

Hər kəs öz balasını haraylayırdı. Özümüz yaddan çıxmışıq. Övladlarımın dərdi məni öldürürdü. Yanımda çox əsir qız-gəlinlərimiz var idi. Ancaq bir hadisəni xüsusilə qeyd etmək istərdim. Özbəkistanın Fərqanə vadisindən Azərbaycana pənah gətirmiş Ahıska türklərinin taleyinə Xocalıda yaşamaq qismət oldu. Yanımda həmin türklərdən Bəxtiyar, həyat yoldaşı Firuzə və onun da qucağında körpə uşağı var idi. Bəxtiyarı, Firuzəni ermənilər vəhşicəsinə döyürdülər. Ermənilər qadının qucağındakı körpəni güclə alıb elə yerə çırpdılar ki, anası huşunu itirdi.

Mən II dünya müharibəsi illərində doğulsam da müharibənin dəhşətlərini ata-anamdan eşitmişdim. Ermənistanın Azərbaycana 1988-ci ildən başlayan elan edilməmiş müharibəsinin ağır nəticələrini isə öz gözlərimlə gördüm. İndi mən ömrümün elə bir dövrünü yaşayıram ki, əsirlikdə aldığım iztirablardan, xəstəliklərdən əzab çəkirəm. Üstəlik də iki oğul itkisi... Gecə-gündüz balalarımı çağırıram. Ana üçün ən ağır dərd Vətən və övlad itkisidir. Bu yazıq canım hər ikisini gördü... Ata-baba ocağının azad olunacağı günü həsrətlə gözləyirəm. Bəlkə, övladlarımın qoxusunu ordan alam.

**Roza İbrahim qızı Məmmədova:**



Mən də o gecə meşəyə üz tutmuşdum. - Canımızı qurtarmaq üçün qaçıb gizlənə biləcəyimiz yer Kətik meşəsi idi. Amma ermənilər meşəni də mühasirəyə aldılar. Meşədə uşaqlar, qadınlar çox idi. Burada olanların hamısı erməni silahlılarının əsirinə çevrildilər. Onlar hamıya əziyyət verirdilər. Cavan qız-gəlinləri döyür, təhqir edir, əlindəki üzüyünü, qulağındakı sırğasını dartıb alırdılar. Həmin meşədə mən üç günlük əsir həyatı yaşamışam. Ermənilər bizi elə vəhşiliklə döyürdülər ki, saatlarla huşumuzu itirirdik. Huşunu itirmiş insanların üstünə vedrələrlə su töküb ayıldır, bir də döyürdülər.

Fevral ayı, qarlı-şaxtalı qış günü... Onsuz da qorxudan evdən tələsik çıxan insanların çoxunun paltosu, ayaqqabısı yox idi. Bəzi insanlar da şumluq yerlərdən keçərkən yeriməkdə çətinlik çəkdiklərindən üst paltarlarını soyunub atmışdılar. Meşədə, biz olduğumuz yerdə təqribən 300-dən artıq Xocalı sakini vardı. Ermənilər adamların başına elə müsibətlər gətirdilər ki, tarix boyu onları unutmaq, yaddan çıxarmaq mümkün deyil..! Çünki gözümün qarşısında bizləri, qadınları, qızları, uşaqları döyə-döyə, o yana-bu yana sürüyürdülər. Təpiklə, avtomatın qundağı ilə döyürdülər. Səsini çıxaran hər hansı bir insan olduqda ona daha çox əziyyət verirdilər. Adamlıq cildindən çıxmış saqqallı ermənilər insanları döyə-döyə bağırırdılar: *"Qarabağ bundan sonra heç vaxt Azərbaycanın ərazisi olmayacaq. Sizi isə daha ağır faciələr gözləyir. "*

***Görüm, arzuları gözlərində qalsın, inşallah!***

**Nanə İbrahim qızı Məmmədova:**

- Üç körpə uşağım, həyat yoldaşım Mehdiyev Murad, qaynatam Mehdiyev Şəfa ilə birlikdə fevralın 26-da çətinliklə də olsa meşəyə qaça bildik. Ermənilər hər yeri yandırır, bizim insanlarımızı güllələyirdilər. Kətik meşəsinə çatanda gördük ki, orada çoxlu insan var. Erməni silahlıları çılpaq, ayaqyalın qaçıb meşəyə sığınan insanların arxasınca gələrək meşəni mühasirəyə aldılar. Yoldaşım Murad gördü ki, atasını və onun kürəyinə bağlanmış qızı ermənilər güllələdilər, ermənilərə atəş açdı. Bundan sonra ermənilər həm Muradı, həm də ikinci qızımı güllələdilər. Həmin an mən özümdən getmişəm. Gözümü açanda gördüm başımın üstündə ermənilər dayanıb. Qışqırdılar ki, üzüyünü, sırğanı, nə qızılın varsa, hamısını çıxar. Mən qucağımdakı körpə uşağımı yerə qoydum. Qulağımda və əlimdə nə qızılım vardısa çıxardım. Ermənilərin güllələdiyi ərimin meyiti bir neçə addımlıqda idi. Qızılları onun üstünə qoydum. Erməni soruşdu ki, qızılları nə üçün ora qoydun?

Dedim o almışdı, ona da verdim. Get, götür. Erməni mənə baxdı, baxdı, birdən gəlib məni vurdu. Ayılanda gördüm ki, körpəmlə bizi başqa bir yerə gətiriblər. Bütün ailəmi, uşaqlarımı itirmişdim, yaşadığım stresslərdən danışa da bilmirdim. O, stressin izləri 19 ildir, hələ də davam edir. Hətta bir müddət mənimlə əsir düşən körpəmi də tanımırdım.

Ermənilərin vəhşiliyinin hər üzünü görmüşəm. O əsirlikdə yaşadığımız dəhşətləri danışmaqla bitməz. Dünya ictimaiyyəti bizim səsimizi eşitməlidir. Çünki bizə qarşı törədilənlər insanlığa qarşı cinayət idi. Cinayətkarlar cəzalarını almalıdırlar. Kim zəmanət verə bilər ki, ermənilər bizə qarşı törətdikləri bu soyqırımı sabah başqasına qarşı tətbiq etməyəcəklər.?!

* * *

Ən ağır ölüm düşərgəsi sayılan (ermənilər tərəfindən tətbiq olunan) əsirlik həyatı Xocalı sakinlərinin qan yaddaşından silinməyən bir faciədir. Əsirlik həyatının faciəsini yaşamış insanlardan biri də **Aydın Bəhlul oğlu** Əliyevdir. Xocalı faciəsindən bir gün sonra, fevralın 27-də meşədə əsir düşüb.

Kətik meşəsində əsir götürülən insanların az bir qismi sağ-salamatdır. Həmin meşədə **Aydın Əliyevin** özü ilə birlikdə, həyat yoldaşı **Mahirə Əliyeva,** qızı **İradə Əliyeva** və onun uşaqları **Lamiyə, Ramin,** yaxın qohumlardan **Yusif Əli oğlu Qarayev, Mehman Əliyev, Solmaz Əliyeva, Kəmalə Əliyeva** əsir düşüblər.

**Aydın Bəhlul oğlu Əliyevin** dediklərindən:



- Əvvəlcə bizim hamımızı bir yerə yığdılar. - O günləri sakit və həyəcansız danışa bilmirəm. - Bizi ölüm düşərgəsi adlandırdıqları Dəhraz kəndinə apardılar. Gördük ki, onlar Xocalının işğalından və soyqırımdan öncə burada ölüm düşərgəsi hazırlayıblarmış. Özü də donuz fermalarında... Bu elə bizim üçün ən böyük həqarət idi. Hər gün bizi səhərdən axşama qədər döyürdülər. Dəyənəklə, avtomatın qundağı ilə elə döyürdülər ki, insanlar huşsuz qalırdılar. Belə ağır işgəncələrə məruz qalanlar arasında qadınlar, qızlar da var idi. Qadınlarımızı, qızlarımızı ağır sözlərlə təhqir edirdilər, döyürdülər. İnsanları necə döyürdülərsə, sizdən nə gizlədim, həmin səhnəni gözümün qabağına gətirəndə indi də huşumu itirirəm. Bütün bəşəriyyət bu soyqırımı planlaşdıraraq həyata keçirən erməni quldurlarına nifrət etməli və onların cəzalandırılması üçün çalışmalıdırlar.

Görün, bir nələr edirdilər, - bunu heç yerdə nə eşidə, nə də oxuya bilərsiniz. Günlərlə ac-susuz qalırdıq. Arada bir bizə çox az miqdarda quru çörək verirdilər. Onda da gözümüzün qabağında çörəyin üstünə tüpürüb sonra verirdilər. Və bizdən onu yeməyi tələb edirdilər.

Bu cür vəhşilikləri törədənlər bu dünyada yaşamalıdırlarmı?!.

## 48 GÜN ÖLÜMLƏ ÜZ-ÜZƏ...



Tale ona - **Məhəmməd Salman oğlu Qasımov**a ömründə bir neçə dəfə qaçqınlıq və məcburi köçkünlük həyatı yaşatmışdır. O, "Ermənistan" adlanan "dövlət"in ərazisi sayılan tarixi türk-oğuz (Azərbaycan) torpağı olan Dərələyəz mahalının Kədikvənd kəndində dünyaya göz açıb. Məhəmməd Qasımov hələ yetkinlik yaşına çatmamış bir çox qanlı faciələrin (eləcə də Azərbaycanın əzəli torpaqlarının zaman-zaman ermənilər tərəfindən necə qoparılmasının; 1948-1953-cü il deportasiyalarının) canlı şahidi olub. Onu çox məcbur ediblər ki, Dərələyəz mahalını tərk etsin. 1965-ci ilə qədər dözən Məhəmməd Qasımov vəziyyətin getdikcə dözülməz olduğunu gördükdə, körpə övladlarının taleyindən ehtiyat edərək, yurd yerini tərk edib.

Xocalıya pənah gətirən Məhəmməd Qasımov o zamandan Xocalıda yaşayırdı. Ermənistan silahlı qüvvələri Xocalıda soyqırım törətdiyi zaman onu da əsir götürmüş və o, dəhşətli faciələr yaşamışdır. Xocalı faciəsini 48 gün əsirlikdə keçirən Məhəmməd Qasımov çox ağır işgəncələrə məruz qaldığından, əsirlikdən sonra da çox yaşaya bilməmişdir.

Onun başına gələn faciələr haqqında oğlu ***Bayram Qasımov***un dediklərindən:

- Xocalının mühasirəsi başlayandan gecəmiz-gündüzümüz postlarda qaravul çəkmək, şəhəri müdafiə etmək idi. Dörd il hər günümüz ölümlə üz-üzə keçdi. Fevral ayının 26-a keçən gecə postdan evə qayıtdım. Elə yenicə gözümü yummuşdum ki, qrad qurğularından açılan atəş məni yuxudan oyatdı. Anaların fəryadı, uşaqların çığırtısı bu gün də qulaqlarımdan getmir. Atamı, anamı, ailəmi, bacı-qardaşlarımı tələsik yuxudan oyadıb küçəyə çıxdıq. Şəhər dörd istiqamətdən atəşə tutulmuşdu. Ayağı yer tutan insanlar meşəyə üz tuturdular. Bizim ailəmiz də meşəyə üz tutdu. Yaşlı atam, anam çox yavaş hərəkət edirdilər. Bərk qar yağmışdı. Qarda irəliləmək çox çətin idi. Kətik meşəsinə qədər ailəmiz, xalam, xalamın yoldaşı Malik bir yerdə idik. Meşədə duman olduğuna görə, çoxumuz bir-birimizdən ayrı düşdük. Malik meşədə ağır yaralandı. Duman, sıx meşəlik, 80 sm.-

dən artıq yağmış qar, kəskin şaxta, aclıq taqətimizi kəsmişdi. Ağdamın Gülablı kəndinə yön almışdıq. Lakin, dumana düşüb yolu azdıq. Meşədə qadınların və uşaqların harayı, ağlaması hər tərəfə yayılmışdı. Ermənilər səs gələn tərəfləri gülləbaran edirdilər. Naxçıvanik kəndinə çatanda atamdan, qardaşımdan ayrı düşdüm. Atam Qasımov Məhəmməd orada əsir götürülüb. Artıq dördüncü gün idi ki, gecəni meşədə qalırdıq. Qar, itburnu bitkisi yeyirdik. Hansı tərəfdən səs gəlirdisə ermənilər oranı atəşə tuturdular. 4 gün meşədə qarın üstündə anamın, xalamın titrəməsini gördüyüm anlar yadıma düşəndə... indi də ürəyim az qalır dayana. - Yaramın qaysağı qopur elə bil. - Duman, çiskin getdikcə vəziyyətimizi ağırlaşdırırdı. Qaçıb canımızı qurtarmağa yol axtarırdıq. Hər tərəf ermənilərlə dolu idi. Üçüncü dəfə azıb Pircamal kəndinə gedib çıxdıq. 13 saat oturub yolları fikirləşdik. Yolda canını götürüb qaçan insanlar arasında Naxçıvandan Xocalıya qonaq gəlmiş insanlarla görüşdük. Onlar da çıxış yolu axtarırdılar. Meşədə gecələyən insanlarla görüşəndə gözlərimlə gördüklərimi indi də unuda bilmirəm. Meşə donmuş, yaralı can verən, əl-ayağı şaxtadan donmuş insanlarla dolu idi. Gördüyüm insanların acı taleyi qəlbimi həmişə didib-parçalayır. Bəzən günlərlə özümə gələ bilmirəm.

Nə başınızı ağrıdım, duman bir az çəkilmişdi ki, Ağdama getmək üçün yol axtarmağa başladım. Geriyə qayıdıb anamı, atamı, bizimlə gələn insanları axtardım, görüm harda qaldılar. Anamı, Sona xalamı, ağır yaralı olan Malik dayımı qoyub gələ bilmirdilər. Artıq ailəmizin hamısı bir-birindən ayrı düşmüşdü. Nəhayət, Ağdama gəlib çıxa bildik. Malik dayı və onlarla insan ölüb meşədə qaldı. Fevralın 26-dan meşədən Ağdama keçə bilmək üçün yol axtarırdıq. Martın 8-də birtəhər Ağdama çatdıq. Anamın, Sona xalamın qardaşlarının əl-ayağı tamam donmuş, dilləri tamam tutulmuşdu. Kətik meşəsində atam Məhəmməd Qasımov əsir düşdü. Bir tərəfdən yaralıların vəziyyəti, digər tərəfdən əsirlik həyatı bizi çox sarsıtdı.

Dediyim kimi, atamla Kətik meşəsinə qədər bir yerdə idik. Lakin, ondan sonra havanın dumanlı olması bizi bir-birimizdən ayırdı. Sən demə, atam azıb ermənilərin yaşadığı Pircamal kəndinə gedib çıxır. Oradan da atamı Dəhraz kəndinə aparırlar. Ölüm düşərgəsi adlanırdı o yerlər. - Atam deyirdi ki, meşədə onlarla yaralı Xocalı sakininə, uşaqlara rast gəldim. İnsanlar ac-susuz donub ölürdülər.

Atam ayağı yer tutan insanların bir neçəsini götürüb yollar axtarmağa başlayır. Lakin onlar bir neçə həmyerlimizlə yanaşı əsir düşürlər. Atam 48 gün ölüm düşərgəsində ölümlə üz-üzə qalır.

15 gün atama bir tikə də olsun çörək verməmişdilər. Ermənilər onun eynəyini və üstündə olan bütün sənədlərini almışdılar. Atam danışırdı ki, bizi elə döyürdülər ki, çoxları huşunu itirirdi, ayılmırdılar. 48 gün dayanmadan döyülən atamın sinə sümüyü qırılmışdı. Deyirdi, "Əbülfət kişini elə döydülər ki, ömürlük şikəst oldu. Suyun içinə neft töküb əsirlərin qabağına qoyurdular. Məcbur olub

insanlar həmin suyu içirdilər. Döyülə-döyülə ağır yaralar alan insanların da vəziyyəti getdikcə ağırlaşırdı."

Erməni zülmkarlarından aldığı yaralara dözə bilməyən atam əsirlik həyatından sonra yaşaya bilmədi. Beləcə ötən XX əsrdə bir neçə dəfə belə zülmlərlə rastlaşsaq da sonda əsirlik həyatı ailəmizi ağır hadisələrlə üzləşdirdi. Atam bu dünyadan aldığı ağır yaralardan o dünyaya vaxtsız və nisgilli köçdü.

## İbrahim Adil oğlu Məmmədov



- Həmin gecə, yəni müdhiş 26 fevral gecəsində mən də ailəmlə birlikdə gülləbaran altında evimizdən-eşiyimizdən, canımızdan olduq. Səsdən qulaq tutulurdu. Ağlayan anaların səsi insanı elə bil ki, üşüdürdü. Biz artıq 4 il idi, atışmaya, güllə səsinə alışmışdıq. Amma bu gecə həmişəki kimi qısamüddətli bir atışma deyildi. Aydın oldu ki, ermənilər bu döyüşə çoxdan hazırlaşıblar.

Ermənilər həmin gecə Xocalının üzərinə ağır zirehli texnika ilə, iriçaplı silahlarla, o cümlədən artilleriyanın dəstəyi ilə hücuma keçmişdilər. O gündən salamat çıxmağı təsadüfi hadisə hesab etmək olar.

Həmin gecə həyat yoldaşım Məmmədova Gülayə, qızım Hafizə, oğlum Zülfü ilə birlikdə idik. Ailə üzvlərimlə birlikdə Kətik meşəsinə üz tutduq. Soyqırımın səhəri günü ailə üzvlərimlə birlikdə əsir düşdük. Evdən çıxanda ayaqyalın, paltosuz-filan çıxmışdıq. Aclıq, soyuq bir tərəfdən, digər tərəfdən də ailə üzvlərinin gözü qarşısında ağır işgəncələr, təhqirlər... Yanımızda çoxlu insanlar var idi. Əvvəlcə gəlib cavan qız-gəlinləri seçib apardılar. Nə qədər ağır olsa da, heç bir müqavimət imkanımız olmadı. Sonra ən çox Adili və oğlunu döyürdülər. Onu o qədər döymüşdülər ki, bədəninin hər yerində gömgöy şişlər əmələ gəlmişdi.

**<u>Qeyd.</u> İbrahim Məmmədov əsirlikdən qaytarılsa da, ona verilmiş ağır işgəncələrin nəticələrini aradan qaldırmaq, onu sağaltmaq mümkün olmamış və azad olunmasından bir müddət sonra o, vəfat etmişdir. Müşahidələr göstərir ki, erməni əsirliyində olmuş insanların hamısında əsəb pozğunluğu, yuxusuzluq, stres, qorxu və daha müxtəlif xəstəliklərin sindromları vardır.**

**Bənövşə İbrahim qızı Mustafayeva:**

- Qəflətən, haray-qışqırığın, Xocalının yandığını görüb yaşyarımlıq körpəm Aliməni də qucağıma alıb küçəyə çıxdım. Hər tərəf tüstü-dumana qarışmışdı. Anaların, uşaqların harayından qulaq tutulurdu. Bu zaman həyat yoldaşım Rza həyəcanla postdan geri gəldi. Dedi, hələlik başqa əlac yoxdu, gərək uşaqları

götürüb meşəyə aparaq. Dəhşət idi. Geri qayıdıb isti paltarlarımızı belə götürə bilmədik. Böyük insan axınına qarışıb, Qarqar çayından keçərək şumlanmış əkin sahəsi ilə gedirdik. Bir xeyli getdikdən sonra Kətik meşəsinə çıxdıq. Birdən uşaq qucağımdan kolun üstünə düşdü. Uşağın üz-gözünü tikan didik-didik etdi. Belə bir gecədə uşaqların səsini kəsmək mümkün deyildi. Ermənilər də səs gələn kimi meşəni gülləbarana tuturdular.

Kişilərdən kimin əlində silah var idisə insanları qorumaq üçün ermənilərlə atışırdı. Amma düşmən çox və həddindən artıq silahlı idilər. İnsanların əsir düşməməsi üçün uşaqların ağlaşmasını kəsmək lazım idi - bu isə çox çətin idi. Ermənilər isə səs gələn hər tərəfi dayanmadan gülləbaran edirdilər. Səhərə yaxın gəlib meşənin yaxınlığında bir yola çıxdıq. Elə oradaca oğlum Vaqifi, sonra isə həyat yoldaşım Rzanı güllələdilər. Qaçan insanlar mənə qucağımdakı körpəmi xilas etmək üçün dayanmamağımı, irəli qaçmağımı məsləhət bilirdilər. İnsan axınına qarışıb irəliləyirdik. Bir xeyli getmişdik ki, meşəyə çatdıq. Amma ermənilər meşəni də mühasirəyə aldılar və biz əsir düşdük. 250-300 nəfər olardıq. Ermənilər ilk əvvəl Milli Ordunun əsgərlərini - öz torpağını, körpələri, qadınları, qocaları müdafiə etmiş insanları seçib, camaatın gözü qarşısında hündür bir dağın üstündə güllələdilər. Kim başını qaldırıb güllələnmiş ərinə, oğluna baxırdısa bilirdilər ki, onun ailə üzvüdür. Ona dəhşətli işgəncə verirdilər. Elə bu zaman ağacın arxasından bu hadisəni görən Milli Ordunun əsgəri **Araz Səlimov** əlindəki avtomatla ermənilərə atəş açdı. Lakin ermənilər Arazı ələ keçirdilər. Əsir düşmüş insanların arasında Arazın anası və bacısı da var idi. Ermənilər bütün insanları bir yerə yığıb onların ortasına qranat atdılar. Başı, bədəni kəsilmiş insan əzaları göydə oynayırdı. Mən gördüklərimdən huşumu itirdim və bir xeyli vaxtdan sonra ayıldım ki, körpə uşağım qucağımdan 10 metr aralı düşüb qalıb. Bir döşümü, uşağın ayağının altını qranat aparmışdı. Dəhşətli ağrılara dözmək məcburiyyətində idim. Körpəm üçün dözməliydim, o da yaralanmışdı.

**Qadmları təpiklə, avtomatın qundağı ilə elə döyürdülər ki, hıçqırtıdan, iniltidən qulaq tutulurdu. Bizi bu vəziyyətə salan erməni bandasının başçısının adı Sanvel idi. Bizə deyirdi ki, mən sizə elə bir işgəncə verməliyəm ki, nə qədər yaşasanız bu işgəncəni unutmayasınız.**

Yaşı 70-dən artıq olan bir kişi qucağında körpə uşaqla dayanmışdı. Onu gözümüzün önündə qabağa çıxarıb körpə uşaqla birgə avtomatın qabağına verib güllələdilər. Bir qadın ərini ölmüş görəndə onun üzünü örtmək istədi. Elə bu zaman ermənilər onun saçından tutub sürüməyə başladılar. Sonra ermənilər həmin insanların üst-başını gəzərək kimin əlində, qolunda, boynunda nə qızıl-süs vardısa hamısını aldılar.

Qadınlara, uşaqlara elə işgəncə verirdilər ki, tam olaraq çatdırmaq mümkün deyil. Hətta **Xumar Səlimova** yalvarıb ağlayırdı ki, qardaşlarımı öldürmüsünüz, məni də öldürün. Erməni isə deyirdi: sizi hələ öldürməyəcəm, əzab verəcəm, iniltinizi eşitməkdən ləzzət alıram. Mənim adım Sanveldir. Mən sizlərin yadında

ancaq bu cür işgəncə verən bir insan kimi qalmalıyam. Sanvel qadınlarımızı döyə-döyə deyirdi: siz indiyə qədər niyə Xocalıda qalmısınız? Sizə dörd ildir deyirik ki, çıxın rədd olun gedin, bu torpaqlar bizim olmalıdır...

Yanımızda yaşlı qocalar da çox idi. Bir qocanın üstünü gəzərkən onun çəkməsindən bıçaq çıxdı. Qocanın körpə nəvəsi də yanında idi. Bu zaman qoca kişini uşaqla birlikdə insanların gözü qarşısında güllələdilər. Sonra isə üstünə qranat ataraq ölmüş insanın meyitini parçalayıb düzlərə səpələdilər. Bundan sonra qalanları Əsgərana, əsir düşərgəsinə apardılar. Əsirlikdə yaşadığımız dəhşətləri isə saymaqla bitməz. Bədənimdə 75 siqaretin izi var. Onlar siqareti yandırıb bizim bədənimizə basırdılar. Onlar sanki adam deyildilər, vəhşi idilər. Çünki etdikləri vəhşilikdən ləzzət alırdılar, sanki qəhrəmanlıq ediblərmiş kimi sevinib, gülürdülər...

**Mən əsirlikdən azad edilsəm də, bütün sağlamlığımı itirdim, bədənimiz yaşasa da ruhumuz artıq ölüb. Sanvel kimilər, yəni bu soyqırımı, bu cinayəti törədənlər isə rahat gəzirlər.**

**Bəs, hanı ədalət!?.**

**Xədicə Abdullayeva:**

"Bir sutka meşədə qaldıqdan sonra atam, anam və 16 yaşlı bacım şaxtaya tab gətirməyib, öldülər. Sağ qalan Xocalı sakmləri ilə birgə məni də girov götürdülər. Bizi, döşəməsinə su doldurulmuş bir zirzəmidə, ac-susuz saxladılar. Əsirlikdən azad olunduq, amma indi iki ayağımdan da məhrumam."

**Mirzə Allahverdiyev:**

"Ermənilərin hücumu şiddətlənəndə meşəyə çəkildik. 3 gün ac-susuz qaldıqdan sonra bizi tutub Əsgəranda ölüm kamerasına saldılar. Hər gün bir neçə adamı işgəncə ilə öldürürdülər.

Qızıl dişlərimi kəlbətinlə çıxardılar, iki qabırğamı sındırdılar. Atamı, qardaşımı, qardaşım oğlunu öldürdülər.

Bizi, 18 gündən sonra dəyişdirdilər. Dəyişilən gün əynimizdə bir alt paltarından başqa heç nə yox idi..."

**Salman Məşədi oğlu Abbasov**

*(1940-cı ildə doğulub. Hazırda Oğuz rayonunda, "Azərbaycan prospekti-60" ünvanında məcburi köçkün statusu ilə yaşayır):*

"Pircamal kəndində ermənilər bizi girov götürdülər. Dinc adamları - bacım Məryəm Məşədi qızı Abbasovanı, gəlinim Gülzar Gülalı qızı Abbasovanı (8 aylıq hamilə idi) və digər 25 adamı avtomatla güllələdilər. Qalanlarını isə həmin kəndin mal tövləsinə apardılar. Həmin şəxslər içərisində olan 7 nəfər cavan oğlanı qarşıya çıxararaq gözümüzün qarşısında güllələdilər. Onlardan dördü Xocalıda məskunlaşmış Axıska türkü, üç nəfəri yerli sakinlər idi.

Bizi gündə iki dəfə ağacla, avtomatın qundağı ilə döyürdülər. İki nəfər yaralı növbəti dəfə döyülərkən öldülər.

Əsgəran rayon həbsxanasında erməni əsgəri avtomatın qundağı ilə vuraraq dörd sağ qabırğamı sındırdı. Adını bilmədiyim başqa bir erməni avtomatın qundağı ilə donub qaralmış ayaq barmağıma elə güclü zərbə endirdi ki, iki barmağım ayağımdan qoparaq ayrıldı. Həmin anda huşumu itirdim".

**Məhəmməd Adışirin oğlu Salmanov**

*(-1952-ci ildə doğulub. Bərdə rayonunda, "Pioner düşərgəsi"ndə məcburi köçkün kimi yaşayır):*

"Fevralın 25-dən 26-nə keçən gecə Ermənistan silahlı qüvvələri Xocalını işğal edib, adamları qətlə yetirən zaman bəzi adamlar qaçıb meşəyə sığına bilmişdi. Amma meşəni də mühasirəyə almışdılar. Çox soyuq idi, ac-susuz idik. Sağ qalmaq üçün Ağdama doğru yol tapıb qaçmaq lazım idi. Amma hər yer ermənilərlə dolu idi. Qaça bilmək imkanı çox çətin idi. Meşədə Ağdam istiqamətində gedərkən 27 fevral 1992-ci il tarixdə ermənilər məni tutdular. Tutduqdan sonra avtomat silahın qundağı ilə, təpiklə, yumruqla yıxılana qədər döydülər... Ermənilərdən biri soruşdu ki, yoldaşın necə oldu? Mənimlə birlikdə qaçan Xocalı sakini Tahirlə meşədə bir-birimizi itirmişdik. Dedim ki, onu məndən qabaq tutdunuz, siz bilərsiniz. Erməni silahlılarından biri "Bax, gör, budur?" deyib kolluqdakı meyiti mənə göstərdilər. Mən göstərilən yerə baxanda Tahirin başı kəsilmiş meyitini gördüm. Onun meyitini eybəcər hala salmışdılar, qulaqlarını, sünnətini kəsmişdilər."

**Cəlil Hümbətəli oğlu Hümbətov**

*(-1934-cü ildə doğulmuşdur. Göyçay rayonundakı Litseyin yataqxanasında məcburi köçkün kimi məskunlaşıb):*

"Xocalı soyqırımı zamanı, oğlum **Muğan** və gəlinim **Südabə Rəşid qızını,** eləcə də həyat yoldaşım **Firuzə** və qızım **Simuzəri** ermənilər gözlərimin qarşısında güllələyib öldürdülər."

## BİR DAHA ƏSİRLƏR VƏ ƏSİRLİKDƏ YAŞANANLAR HAQQINDA:

### Qədim Məmmədvəli oğlu Abbasov -

*1942-ci ildə doğulub. Bakı şəhəri Suraxanı rayonu Hövsan qəsəbəsində məcburi köçkün kimi məskunlaşıb.*

1992-ci il fevralın 26-da 150 nəfərə yaxın Xocalı sakini ilə bərabər Əsgəran rayonunun Dəhzar kəndində ermənilər tərəfindən girov götürülüb. Əsirlikdə qaldığı 46 gün ərzində (digər Xocalı sakinləri kimi) mütəmadi işgəncələrə məruz qaldığından ayağının biri iflic olmuş, hərəkətdən qalmışdır.

Q.Abbasovun qeyd etdiyinə görə hər gün saat 21.00 radələrində beş-altı erməni hərbçisi kameraya girib avtomat və tapanca qundağı, ağac və rezin dəyənəklə gecə saat 04.00 radələrinə qədər girovları amansızcasına döyüb incidirmişlər.

**Əbülfət Rəşid oğlu Kərimov** –

*1960-cı ildə doğulub. Bakı şəhəri, Sabunçu rayonunun, Pirşağı qəsəbəsindəki Qızılqum sanatoriyasında yaşayır.*

Abbasov Qədimlə bir kamerada qalıb və onun işgəncələrlə bağlı dediklərini təsdiq edir.

İşgəncələr zamanı əl barmaqları və qabırğalarının çoxu sındırılıb. Ermənilər ona 10 iynə vurublar ki, onların təsirindən Kərimov da hal-hazırda ürəkgetmə və əsəbilikdən əziyyət çəkir.

**Vüqar Əli oğlu Nəcəfov** –

1960-cı ildə anadan olub. Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsində məskunlaşıb.

Bizimlə birlikdə girov götürülən qadınlara, uşaqlara, ağsaqqallara işgəncələr verdilər, yanımızda Xocalı sakini olan Əhməd adlı Axıska türkünün başını kəsdilər. Sonra məni Xankəndinə aparıb bir tövlədə zəncirlə bağladılar. Tez-tez məni lomla döyürdülər. Bədənimin bir neçə yerindən bıçaq zərbəsi vurdular.

**Züleyxa Şahmalı qızı Sadıqova** –

1947-ci ildə anadan olub. Naftalan şəhəri "Qarabağ" sanatoriyasında məskunlaşıb. Əsgəran rayon Polis şöbəsinin təcridxanasında saxlanarkən ermənilər bizə işgəncələr verirdilər. Onlar bizi döyür, təpikləyir, təhqir edirdilər. Yanımızda olan cavan qızları zorla aparırdılar. Əsirlərə tanımadığımız zəhərləyici dərmanlar verirdilər.

**Ramiz Hüseyn oğlu Usubov** –

1943-cü ildə anadan olub. Naftalan şəhəri "Şirvan" sanatoriyasında yaşayır. Xankəndi təcridxanasında bizi ac-susuz saxlayır, hər gün bizi döyürdülər. Mənimlə birlikdə saxlanılan **Aslanov Qəyyumun** qızıl dişlərini çıxardılar. Boyu uzun adamları diz çökməyə məcbur edirdilər ki, təpik ağız-burnuna yaxşı çatmır. Əsirlikdə saxlanılan bir nəfər böyründən güllə yarası almışdı. Yazığın yarası soyuqladı, baxımsızlıqdan vəfat etdi.

## SÖZ YENƏ ŞAHİDLƏRİNDİR...

**Yunis Behbud oğlu Ağayarov**

*(-1930-cu ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ" sanatoriyasında məskunlaşıb):*

- "Əsgəran Rayon Polis Şöbəsində saxlanarkən məni paltarsız, ac-susuz tutur; bir tikə çörək verəndə də çörəyin üstünə tüpürüb verirdilər. Hər gün bizi taxta və rezin dəyənəklə döyürdülər. Orada saxlanılan girovlara, guya soyuqdəyməyə qarşı iynələr vururdular. Sonra onların hamısı vəfat etdi. Mənim və **Mirzə Allahverdiyevin** qızıl dişlərini adi çəngəllə çıxartdılar, çıxara bilmədiklərini da yumruqla vurub qırdılar.

Xocalıda yaşayan **Cabbar** kişinin oğlu və qızı da girov idi. Oğlan namus üstündə erməniyə cavab qaytardığına görə yerə yıxıb başını kəsdilər. Gözlərimlə gördüm."

**Qənahət Məhəmmədəli oğlu Hacıyev**

*(1937-ci ildə doğulub. Naftalan şəhəri, "Qarabağ" sanatoriyasında məskunlaşıb):*

- Bizim yanımızdan 13 nəfər oğlanı seçib apardılar. Xankəndi Polis Şöbəsində ermənilər bizi ac-susuz, şüşəsi olmayan otaqlarda, pal-paltarsız saxlayırdılar. Demək olar ki, hər gün, müsəlman olduğumu bəhanə edərək, rezin dəyənəklə, çəkmələrin dabanı ilə başıma döyür, mısmarlı taxta ilə bədənimə, əllərimə vururdular. Mənimlə saxlanılan Qədim Abbasovu, Elbrus Abbasovu, Ramiz Yusifovu da eyni qaydada döyüb işgəncə verirdilər. Xankəndindəki beşmərtəbəli bir binanın zirzəmisində saxlanarkən mənim yanımda içki içmiş ermənilər təxminən 15-16 yaşlarında bir oğlanın diri-diri qolunu kəsdilər, sonra isə bıçaqla öldürdülər. Bir qadının da qarnını kəsib qarnına diri pişik saldıqlarını gördüm. Balaca bir qız uşağının əlindən tutmuşdular, o da "Ana" deyib qışqırırdı.

Nə deyim? Mənim özümün ayaqlarımda işgəncənin izləri bu gün də qalmaqdadır.

**Məhəmməd Ağalar oğlu Nağıyev**

*(1953-cü ildə doğulub);*

- "Mənimlə birlikdə saxlanılan 13 nəfəri çıxarıb biz saxlanılan binadan bir az aralıda avtomatdan atəş açdılar. Hal-hazıra qədər də onların öldürülüb-öldürülmədiyi məlum deyil."

**Kubra Adil qızı Paşayeva**

*(1938-ci ildə anadan olub. Tərtər rayonu, Söylən kəndində məskunlaşıb):*

"...Kətik meşəsinə girəndə sol qolum və sol qıçımdan güllə yarası aldım. Ermənilər bizi tam mühasirəyə almışdılar. Mən kolluqda gizləndim və öz gözlərimlə həyat yoldaşım **Şura Tofiq oğlu Paşayev,** oğlum **Elşad Şura oğlu Paşayev** ermənilər tərəfindən avtomat silahla öldürüldülər. Sonra bizi girov götürərək Əsgəran polis şöbəsinin zirzəmisində yerləşdirdilər. Həmin gecə 30-40

nəfərə yaxın əsir düşmüş insanın kəsilmiş başları gözümüzün qabağında qalaqlanmışdı.

Zirzəmidə olduğum müddətdə ermənilər cavan qızları və gəlinləri yaxın qohumlarından ayırdılar və başlarını divara vurub huşsuz vəziyyətdə apardılar.

Susuz qalan uşuqlara su əvəzinə sidik verirdilər. Hamını ac saxlayaraq sidik ilə qarışdırılmış cımıq verirdilər."

**İntizam Niyaz oğlu Abışov**

*(-1970-ci ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ sanatoriyasında məskunlaşıb):*

"Əsgəran Rayon Polis Şöbəsində girov saxlandığım vaxt ermənilər tərəfindən dəfələrlə işgəncələrə məruz qalmışam. Belə ki, ermənilər sərxoş vəziyyətdə kameraya girib heç bir səbəb olmadan bütün girovları, o cümlədən məni rezin dəyənəklə huşumu itirənədək döyürdülər. Sonra şaxtada üstümüzə soyuq su töküb ayıldır, təzədən döyürdülər. Bizi soyuq otaqlarda ac-susuz saxlayırdılar. Mənimlə birlikdə olan Xocalı sakinləri, qardaşlarım **İlham və İlqarı,** eləcə də **Səadəti və İbrahim** kişini də eyni qaydada döyüb işgəncələr verirdilər."

**İlqar Niyaz oğlu Abışov**

*(-1964-cü ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ" sanatoriyasında məskunlaşıb):*

"Bizi Əsgəran Rayon Polis Şöbəsinə gətirdilər. Gələndə bizdən əvvəl gətirilmiş Natiqin orada olduğunu gördük. Ermənilər onu döyərək bədən xəsarətləri yetirmişdilər. Səkkizinci gün erməni nəzarətçisi nəfəslikdən qardaşım **İlhama** dedi ki, sən xoşuma gəlmirsən, başını bəri çıxart. Sonra vurub qardaşımın başını yardı."

**Elgiz Çingiz oğlu Hüseynov**

*(-1978-ci ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ " sanatoriyasında məskunlaşıb):*

"Həsən yaralı idi. Ancaq onun yaralı olmasına baxmayaraq Maksim adlı erməni yaman döyürdü. Xankəndindəki xüsusi məktəbin binasında əsir olarkən Əsgəranın hərbi komissarı, kapitan rütbəli erməni bizi çox tez-tez döyürdü.

Vidadi adlı girovu erməni qəbirstanlığına apardılar, sonra gəlib bizə onun başını kəsdiklərini dedilər."

**Mirzə Saleh oğlu Allahverdiyev**

*(-1952-ci ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ " sanatoriyasında məskunlaşıb):*

"Girov düşən kimi ermənilər məni avtomatın qundağı ilə, təpiklə möhkəm döydülər. Bir erməni daşla başımdan elə vurdu ki, huşumu itirdim. Ayılarkən özümü tualetdə, suyun içində gördüm. Oradan məni bayıra çıxarıb yenidən dubinka, təpik və ağacla bərk döydülər, sonra da təxminən 12 nəfərə qədər Xocalı girovunun saxlandığı kameraya saldılar. Orada mən Əsgəran Polis İdarəsində olduğumuzu bildim. Əsgəran Polis İdarəsində məni döyərək qabırğalarımı qırdılar, qızıl dişlərimi yumruqla yerə töküb qalanlarını bıçaqla çıxardılar. Bizi Əsgəranda

bir neçə gün ac-susuz saxladıqdan sonra Əsgəran rayonunun Noraguh kəndindəki birmərtəbəli evin zirzəmisinə apardılar. Həmin zirzəmidə bizdən başqa girov yox idi. Bir gün qaranlıq, soyuq zirzəmidə ac-susuz qaldıqdan sonra bizə döşək əvəzinə saman verdilər. Hər gün günortadan sonra iki-üç erməni gəlib bizi bir-bir çölə çıxarıb vəhşicəsinə döyürdülər. Həmin işgəncələrin izləri mənim döş qəfəsimdə, əlimdə və başımda qalıb.

**Suren Heydər oğlu Məmmədov**

*(-1942-ci ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ sanatoriyasında məskunlaşıb):*

"Əsirlikdə olduğum müddətdə çoxlu sayda Azərbaycanlının ermənilər tərəfindən öldürülməsinin şahidi olmuşam."

**Arif Qüdrət oğlu Əzizov**

*(-1956-cı ildə doğulub. Şirvan şəhəri, "RTİ-28"-də məskunlaşıb):*

"Ermənilər əsirlikdə atamı döyüb gözlərini kor etmiş, kürək nahiyəsindən güllə vurmuşdular. Atam həmin işgəncələrin nəticəsində 1995-ci ildə vəfat etdi."

**Qəyyum Bəhram oğlu Aslanov**

*(-1939-cu ildə doğulub. Bakı, Xəzər rayonu, Mərdəkan qəsəbəsində məskunlaşıb):*

"Xankəndi Polis Şöbəsinin təcridxanasında əsir saxlandığım müddətdə erməni hərbçiləri tərəfindən hər gün vəhşicəsinə döyülərək təhqirlərə məruz qalmışam. Erməni hərbçiləri tərəfindən çəngəllə ağzımdan 4 dişim çıxarılmış, 8 qabırğam qırılmış, baş sümüyümdə çat əmələ gəlmişdir.

Çox pis şəraitdə saxlanırdıq. Əsirlərin bəzilərini yara basmışdı. Ermənilər hərbi çəkmələrini əllərinə geyib onunla əsirləri döyürdülər. O dərəcədə döyürdülər ki, sağ qalmağımıza inanmağımız gəlmirdi."

**Nənəş Səməd qızı Səlimova**

*(-1930-cu ildə doğulub. Naftalan şəhərindəki "Şirvan" sanatoriyasında məskunlaşıb):*

"Xocalının işğalı zamanı üç oğlum - **Fəxrəddin Bahadur oğlu Səlimov, Araz Bahadur oğlu Səlimov, Mikayıl Bahadur oğlu Səlimov; qızlarım - Şəhla Bahadur qızı Səlimova, Xumar Bahadur qızı Səlimova** və həyat yoldaşım **Bahadur Mikayıl oğlu Səlimov** faciədən qurtara bilməmişlər.

Bahadurla Mikayılı meşədə qətlə yetirdilər. Məni, Arazı, Fəxrəddini, Şəhlanı (3 uşağı ilə birgə) və bir də, Xumarı Əsgəran rayonu yaxınlığında ermənilər girov götürdülər. Ermənilər gözlərim qarşısında Arazı tikə-tikə doğradılar, məni onun ətindən yeməyə məcbur etdilər.

Üç gün fermada girov saxlanıldıqdan sonra bizi dəyişdirdilər."

**Xəzəngül Təvəkkül qızı Əmirova**

*(-1983-cü ildə doğulub. Sabunçu rayonu, Pirşağı qəsəbəsindəki "Qızılqum" sanatoriyasında məskunlaşıb):*

"Xocalının işğalı zamanı ermənilər ailəmi girov götürüblər. Soyqırım zamanı anam Rayanı, 7 yaşlı bacım Göyçəni güllələdilər.

Atam **Təvəkkül Əmirovu** ağaca bağlayıb armaturla döydükdən sonra biz uşaqlarının gözü qarşısında benzin töküb yandırdılar."

**Ağca Alxan qızı Talıbova**

*(- 1910-cu ildə doğulub):*

"Xocalının işğalı zamanı qaçarkən Xankəndinə gedən yolda on nəfərin başının kəsilməsinin şahidi oldum."

## XOCALI SOYQIRIMI:
## *ŞAHİDLƏR DANIŞIR!..*

**Murad Cəmil oğlu Məhərrəmov:**

- Naxçivanik kəndinə yaxınlaşanda hava işıqlaşdı və ermənilər camaatın çıxdığını gördülər. Naxçivanik yolunu BTR-lə kəsdilər. Demək olar ki, oradakı camaatın çoxu qadın və uşaqlar, qocalar idi. Buna baxmayaraq ermənilər vəhşicəsinə bizi dörd tərəfdən güllə yağışına tutmuşdular.

Ölənlərin sayı-hesabı yox idi... Faciədən sonra biz vertalyotla meyitləri götürməyə gedəndə qadınların qucağında körpə uşaqlar güllələnmiş, qadınların müəyyən əzaları kəsilmişdi. Kişilərin bir çoxunun sifətləri işgəncəyə məruz qalmış, onların qulaqları, burunları və barmaqları kəsilmişdi. Hətta Təvvəkkül adlı bir nəfərin ayaq və əllərini məftillə bağlayaraq yandırmışdılar.

**Nazilə Hilal qızı Hətəmova:**

- Mən Xankəndində gözümü açıb yaşayandan ermənilərin hiyləgər siyasətlərini görmüşəm. Çünki az bir müddətdə ermənilər Xankəndində çoxalmağa başladılar. 1988-ci ildə Dağlıq Qarabağ müharibəsi nəticəsində öz evim, ata evim, bacı-qardaşlarımın evi yandırıldı.

Mən Xocalı şəhərinə getdim. Yeganə övladım Ramini atasız böyütmüşəm. Xocalıda yenidən ev-eşik qurduq. 4 il Xocalıda müharibə şəraitində yaşadıq. Gecələr zirzəmidə gecələyirdik. 1992-ci il fevralın 26-sı gecəsi mən də 10 yaşlı Ramini götürüb, hamı kimi meşəyə üz tutdum. Soyuq, şaxta məni elə sarsıtmışdı ki, həyatımın yadigarı olan yeganə övladımı itirməkdən qorxurdum. Meşədə çoxlu insanlarla rastlaşdıq. Minə qədər qız, gəlin, uşaq, qoca var idi. Uşaqlar acından, soyuqdan ağlayırdılar. Nə qədər uşaqlar acından, soyuqdan öldülər. Həftə ilə meşədə qalan insanların hamısının ayağını don vurmuşdu.

Meşədən çıxıb Naxçivanik kəndinə gəlib çatanda azdığımızı bildik. Həmin gecə meşədə ac-susuz qaldıq. Soyuqdan titrəyirdik. Səhər açılanda Xocalı tərəfdən sarı bir tank meşədə azmış insanları gülləbaran etməyə başladı.

Faciənin II günü meşədə xeyli insan qırıldı. Sarı tank insanları güllələməyə başladı. Gözümün qabağında onlarla insan öldü. Güllələnmiş insanların naləsi, qışqırtısı indi də qulağımdadır.

Yaralıların səsi, naləsi indi də qəlbimi sızıldadır.

Yaxın qonşularım, qohumlarım yanımda həlak oldular. Tankdan açılan atəşdən mən də ağır yaralandım. 10 yaşlı Raminim də yanımda idi. Mənim ağır yaralandığımı görəndə uşaq, "anam öldü" deyib elə qışqırdı ki, indi də yadıma salanda məni dəhşət bürüyür. Ağrıdan huşumu itirdim. Birtəhər özümü sıxıb uşağı sakitləşdirdim. Çox yalvardım ki, sən, get qohumlara de, gəlib mənə kömək etsinlər. Birtəhər uşağı tək yola saldım. Mənim yanımda **Teybə xala, Xatirə, onun bacısı Sevinc, Astan dayı, Əvəz dayı, Cahan xala, Validə, İradə, Arif, Şöhrət, Həsənbala, Pərvanə, Sevil, bacısı İradə** - bunlar hamısı mənim yanımda ağır yaralanmışdılar. Çoxusu qan itirməkdən məhv oldu.

Hər birinin yardıma, köməyə ehtiyacı olan insanların iniltisi qulağımdan hələ də getmir. İki sutka idi ki, meşədə yaralı halda qalmışdım. Adlarını çəkdiyim insanların çoxu faciəli şəkildə həlak oldular. Ermənilər tez-tez meşəni atəşə tuturdular. Sonra yaralı insanların dişlərini sökür, üst-başlarında olan qızılları götürürdülər. Ermənilər qan içərisində olan, qanlı barmaqlardan qızılları çıxardır, çıxara bilmədikdə barmaqla bir yerdə kəsirdilər. Meşədə, qarın içərisinə səpələnmiş meyitləri ermənilər elə təhqir edib söyürdülər ki, indi də yadıma düşəndə az qala huşumu itirim.

Bir neçə gün sonra bir neçə azərbaycanlı məni min bir əziyyətlə yaralı halda ermənilərin mühasirəsindən çıxara bildilər və Ağdama doğru yönəldik. Amma bu dəfə də minaya düşdük. Huşumu itirmişdim.

Nəhayət ordan sağ qalanlar birtəhər bizi Ağdama gətirib çıxara bilmişdilər.

Biz Xocalılar hər cür faciəyə, soyqırıma məruz qalmışıq. İndi sağ qalan Xocalı sakinlərinin hamısı xəstədir. Beyinlərində psixi dəyişikliklər baş qaldırır; ifliclər, daxili xəstəliklər indi də davam edir.

Doğma Xocalımızın, Qarabağımızın həsrəti ilə yaşayırıq. Həsrət isə bitmir...



**Elza Surxay qızı İsmayılova:**

- Mən məcburi köçkünəm. Heç vaxt ağlıma gətirə bilməzdim ki, gün gələcək ermənilər bizi halal ata-baba torpaqlarımızdan qovacaqlar.

Mən Ağdamda yaşamışam. Bacım Xocalı şəhərinə gəlin köçmüşdü. Onun ailəsinin çox xoş, firavan günləri var idi. Mən də tez-tez Xocalıya gedərdim. Ermənistanın müharibəyə başlaması, müharibənin kəskinləşməsi bizim firavan həyatımızı alt-üst etdi.

Xocalı 1988-ci ildən 1992-ci ilə kimi döyüşə-döyüşə yaşadı. 1992-ci ilin 26 fevralını xatırlayıb göz önünə gətirəndə, özümdən asılı olmayaraq qəhərlənirəm, yaş məni boğur. Mən çoxlu günahsız insanın ölümünün şahidi oldum. Xocalıdan çıxarılmış meyitlər, yaralılar Ağdama gətirilirdi. Meyitlər üzərində edilmiş işgəncələri öz gözlərimlə gördüm. Başının dərisi soyulmuş, qarnı yarılmış, qolu kəsilmiş, bədəni avtomat

güllәsindәn deşik-deşik olmuş insanları, bәdәninin müxtәlif әzaları kәsilmiş insanları öz gözlәrimlә gördüm. Bacımın ailәsinin itkisi bizi çox sarsıtdı.

## XOCALI SOYQIRIMININ ŞAHİDİ OLMUŞ UŞAQLARIN DӘHŞӘT SAÇAN XATİRӘLӘRİ

**Ramin Hәsәnov**
***(Xocalı sakini, soyqırım zamanı 10 yaşı olub):***

## MӘNİM UŞAQLIQ TALEYİM

Vәtәn mәnim yaddaşımda qalıb, amma necә.?! Mәn 1979-cu ildә Xankәndindә anadan olmuşam. Uşaqlıq illәrim Xankәndindә keçib. Üç yaşından Xankәndindә yerlәşәn uşaq bağçasına getmişәm. Bu illәr mәnim *uşaqlıq illәrimin* әn maraqlı dövrlәri olubdur. Biz bağçada ermәni vә rus uşaqları ilә tәmasda olur, onlarla birlikdә yeyir, yatır vә şәnlәnirdik. Heç vaxt ağlımıza da gәtirmәzdik ki, cәmi bir neçә il sonra ermәnilәr bizi vәhşicәsinә qәtlә yetirә bilәr, evlәrimizә od vura bilәrlәr...

1986-ci ildә 3 saylı rus mәktәbinin birinci sinfinә daxil oldum. Burada da mәnim sinif yoldaşlarım arasında ermәni uşaqları da var idi. 1988-ci ilin fevralında gözlәmәdiyimiz hadisә baş verdi. Küçәlәrdә nümayişlәr, izdihamlar baş qaldırdı. Onlar *"Qarabağ bizimdir"* sözlәri yazılmış plakatlarla nümayişә çıxırdılar. Artıq mәktәbdә bizi sıxışdırmağa başlamışdılar. Sinif yoldaşlarımız ermәnilәr dә bizdәn üz döndәrirdilәr. Heç biri mәni öz yaxınlıqlarına qoymurdular. Mәktәbә gedәndә dә qorxu hisslәri keçirirdik. Hәtta çörәk almağa gedәndә bizdәn ermәni pasportu istәyirdilәr. Bizi tәhqir edirdilәr. Bu hadisәlәr bir-iki ay davam etdikdәn sonra bizi mәcburi köçürmәk istәdilәr, ancaq biz öz doğma yurdumuzdan, Vәtәnimizdәn ayrıla bilmirdik. Çünki burada doğulub boya-başa çatmış, uşaqlıq illәrimi burada keçirmişdim...

Bir gün gecә ikәn qonşumuz Әkbәr müәllimin evinә od vurdular. Ancaq yenә dә Vәtәn sevgisi, Vәtәn mәhәbbәti bütün qorxu hisslәrinә üstün gәldi. Yenә dә doğma yurddan ayrıla bilmirdik. Düşünürdük ki, nә vaxtsa bu hadisәlәrin sonu olacaq.

1988-ci ilin sentyabr ayının 18-dә partlayış, güllә, siqnal sәslәri eşidildi. Evimizin qapılarını, pәncәrәlәrini qırdılar. Bizi tamamilә mühasirәyә almışdılar. Mәhәllәmiz bazarın arxasında yerlәşirdi. Biz üç-dörd gün evdә ac-susuz qaldıq. Sonra ermәni silahlıları bizi evdәn zorla çıxartdılar. Onlar imkan vermәdilәr ki, heç olmasa әynimizә geyinmәyә paltar götürәk. Onlar bizi ağlaya-ağlaya maşına otuzdurdular. Hansı küçәdә azәrbaycanlılar yaşayırdı onları da bir-bir maşına doldurdular. Sonra bizi әli silahlı ermәni hәrbçilәrinin olduğu avtobusa mindirdilәr.

Avtobus Ağdam şəhərinə tərəf yola düşdü. Yol boyu avtobus ermənilər tərəfindən daşa basılırdı. Bizi evimizdən, yurdumuzdan, Vətənimizdən beləcə didərgin saldılar...

Bizi evimizdən, Vətənimizdən didərgin saldıqdan sonra evlərimizə od vurdular.

Xocalıya pənah apardıq. Bir az keçmiş ermənilər Xocalıya hücum etməyə başladılar. Gecələr beton evlərin zirzəmisində gecələyirdik. Xocalı şəhəri dörd tərəfdən erməni kəndi ilə əhatə olunmuşdu. İşığı və qazı tez-tez kəsirdilər. Meşədən odun daşıyırdıq ki, soyuqdan ölməyək. Ağdam və Şuşa ilə Xocalı şəhərinin əlaqəsi demək olar ki, tamamilə kəsilmişdi. Bizim - Xocalı sakinlərinin əzablı günləri başlamışdı. Get-gedə vəziyyət gərginləşirdi. Axır vaxtlar çörəyi Azərbaycandan vertalyotla gətirirdilər.

1992-ci ilin yanvar ayında ermənilər yolları tamam bağladı. Artıq vertalyot da gələ bilmirdi. Gələndə isə onu gülləyə tuturdular. Qrad yağış kimi yağırdı. İki ay idi ki, gecələr üst paltarlarımızı çıxarmadan yatırdıq.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə saat 11 radələrində erməni və rus silahlıları Xocalını dörd bir tərəfdən mühasirəyə aldılar. Mən də həmin vaxt paltarlı yatmışdım. Anam məni oyatdı ki, ermənilər hücuma keçib. Camaatla birlikdə beton evlərin zirzəmisinə qaçdıq. Bir-iki saat orada qaldıq. Bir azdan kimsə qışqırdı ki, şəhər od tutub yanır, ermənilər şəhəri dağıdırlar. Biz zirzəmidən çıxıb çaya tərəf qaçdıq. Arxaya baxanda gördük ki, ermənilər silahsız əhalini güllələyir. Çayı keçib meşələrə, dağlara sarı üz tutduq. Güclü qar yağmışdı və camaatın irəliləməsinə maneçilik törədirdi. Mən və anam qarın içi ilə sürünə-sürünə gedirdik. Haraya getdiyimizi özümüz də bilmirdik. Birdən atəş səsləri gəldi və biz yolumuzu dəyişib başqa tərəfə üz tutduq. Səhər saat 06 radələrində biz artıq Ağdamın Şelli kəndinə yaxınlaşdıq. Bu zaman ermənilər bizi gülləbarana tutdular. Bu zaman yıxılan kim, yaralanan kim, ölən kim... Ölən və yaralananların sayı-hesabı yox idi. Uşaqların və böyüklərin çığırtıları indi də qulaqlarımda cingildəyir.

O vaxt mənim 13 yaşım var idi. Həmin gecə 13 yaşlı bir uşağın nələr çəkdiyini, hansı hisslər keçirdiyini danışmağa dil, yazmağa qələm acizlik çəkir. Onu bir Allah bilir ki, həmin gecə mən nələr çəkmiş, hansı hissləri keçirmişəm.

Anam artıq yorulmuşdu, gedə bilmirdi. Mən anama kömək etdim, bir dərəni üzüaşağı endik. Anam dedi ki, artıq sürünə bilmirəm, qalxmaq istəyirəm. Qalxmaq isə qorxulu idi. Hər an ermənilər bizi vura bilərdi. Hara baxırdım hər tərəf meyitlə dolu idi. Qocaların iniltisi, uşaqların çığırtısı məni dəhşətə gətirirdi.

Anam ayağa qalxanda birdən yıxıldı. Ancaq səsi çıxmadı, bircə onu dedi ki, Ramin, mənə güllə dəyib. Mən qışqırdım. Anamın güllə dəyən yerini rezinlə sıxdım ki, çox qan itirməsin. Anam mənə dedi ki, sən dayanma, qaç, xilas ol, yoxsa səni öldürəcəklər. Mən isə getmək istəmirdim. Axı, mən anamı necə qoyub gedə bilərdim?..

Mən həm atamı, həm də Vətənimi itirmişdim. 13 yaşlı bir uşaq üçün bunlar bəs deyildimi? Bütün bunlardan sonra mən anamı qarın içində, necə güllə yağışının altında qoyub gedə bilərdim?

Anam məni dilə tutdu ki, *"heç olmasa sən get Ağdamda yaşayan xalangilə xəbər ver ki, anam yaralanıb, gəlib mənə kömək etsinlər."* O, vaxt uşaq idim buna inandım. Sonra başa düşdüm ki, anam bütün bunları mənim sağ qalmağım üçün edirmiş. Çünki biz yaşamaq ümidimizi itirmişdik. İstəmirmiş ki, nə mən onun, nə də anam mənim ölümümü gözləri ilə görsün. Anam məni çox dilə tutduqdan sonra mən Ağdama doğru sürünməyə davam etdim. Ağdama çatanda orada camaat corablarımı soyundurub ayağımı isti suya qoydular. Xalama xəbər verdilər və o gəlib məni götürdü. Axşamçağı anamı meşədən çıxartdılar. Onu xəstəxanada yerləşdirdilər. Anam sağalandan sonra biz Naftalanda məskunlaşdıq.

Artıq 23 yaşım var. Mən bu yaşımda həyatın bütün çətinliklərini görmüşəm, hər bir əzab-əziyyətə dözmüşəm. Bu illər ərzində mənim həyatımda olan xoş günlərim Xankəndində yaşadığım atalı, Vətənli günlərim olub.

Mən indi də Vətən arzusu, Vətən həsrəti ilə yaşayıram və ümid edirəm ki, nə vaxtsa öz arzularıma çatacağam.

**10 yaşlı Ramil Həsənov:** "Ermənilər gələndə meşəyə qaçdım. 3 gün ac-susuz orada qalmışam. Susuzluqdan ölürdüm. Məcbur olub çoxlu qar yemişəm."

**4 yaşlı Fuad Gülməmmədov:** "Ermənilər məni tapança ilə ayağımdan vurdular."

**8 yaşlı Xatirə Orucova:** "Gözümün qabağında atamı, anamı və 6 yaşlı bacımı öldürdülər. Mənim özümə də güllə dəyib. Ancaq öz bədənimdəki güllə yarası çoxdan sağalsa da göz dağım - gözlərimlə gördüklərimin təsiri sağalan deyil...

## İKİNCİ HƏYAT...

Xocalı..! 1991-ci il yeni başlayıb... Bu illər hamı səksəkəli yaşasa da, həyat davam edir, hər şeydən xəbərsiz məsum körpələr dünyaya gəlirdi. Həmin il, yanvarın əvvəllərində Azərbaycanın ünlü jurnalisti **Salatın Əsgərova** Xocalıya gəldi. Xocalı Hava Limanında onu çox hərarətlə qarşıladılar. Gənc jurnalist Hava Limanının rəisi **Əlif Hacıyev** və onun işçiləri ilə səmimi görüşdü. Söhbət zamanı Salatın gənc polis Yelmardan övladı olub-olmadığını soruşdu. O cavab verdi ki, "iki qızım var, biri də namizəddir." Salatın gülə-gülə dedi: "Əgər oğlun olsa mənim oğlum Ceyhunun adını, qız olsa öz adımı qoyarsan."

1991-ci il, iyunun 12-də Yelmarın 3-cü qızı dünyaya gəldi. Əhdə vəfa edib, adını Salatın qoydular. Ancaq Salatın bu uşağı - körpə adaşını görmədi. 1991-ci ilin yanvarın ilk günlərindəki gəliş onun Xocalıya axırıncı gəlişiymiş...

İstedadlı, cəsarətli jurnalist Dağlıq Qarabağda və onun ətrafında baş verənləri obyektiv işıqlandırmaq üçün gecəli-gündüzlü bölgələrdə olur, obyektiv reportajlar hazırlayırdı. Salatın **1991-ci il yanvarın 9-da** Şuşanın **Qala dərəsi** kəndi yaxınlığında, iş başında erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildi. Xalqımız, dövlətimiz bu igid qızının, alovlu vətənpərvər jurnalistinin şücaətini yüksək qiymətləndirdi. Ona **Azərbaycanın Milli Qəhrəmanı** adı verildi.



Balaca Salatın isə o vaxt hər şeydən xəbərsiz, sakitcə böyüyürdü. Ata-anası onun qayğısını çəkirdi. Ancaq nə Xocalının, nə Xocalı sakinlərinin o müdhiş, faciəli gecələrdən xəbəri yox idi. 1992-ci ilin fevral ayı çox sərt, qarlı-boranlı, şaxtalı başlamışdı. Tez-tez işıqların söndürülməsi, Xocalı üzərinə edilən hücumlar ağır günlərdən xəbər verirdi. Qəhrəman jurnalistin adını daşıyan balaca Salatını arzuolunmaz günlər gözləyirdi...

**Arxasını körpə Salatının anası Müşgünaz Əhmədova danışacaq:**

- Gecədən xeyli keçmiş güclü atışma başladı. Biz qadınlar uşaqlarımızı götürüb evlərin zirzəmisinə girdik. Lakin çox çəkmədi ki, vəziyyətin ağırlaşdığını görüb çaylaq deyilən yerə, Qarqar çayı səmtinə, oradan da meşəyə üz tutduq. Biz, çoxu qadınlar, uşaqlar, qocalar olmaqla, 200-dən artıq adam idik. Qorxudan səsimizi çıxara bilmirdik. Ancaq südəmər körpələrin səsini kəsmək olmurdu. Uşaqların səsi gələn tərəfi ermənilər güllələbaran edirdilər. İnsanlar yaralanır, ölür, meyitlər qarın üstünə səpələnmiş halda qalırdı. Həmin gecə həyat yoldaşım **Yelmar** da faciənin qurbanı oldu.

Gecənin qaranlığında, meşənin içərisində hara getdiyimizi bilmirdik. Ac körpələrin çığırtısını eşidən ermənilər dəstəmizi snayperlərdən, atıcı silahlardan atəşə tutdular. Mənim balaca körpəmsə ovunmaq bilmirdi. Səs isə olmazdı. Körpənin səsini kəsə bilmədiyim üçün bir yolum qaldı. Allah kəssin o yolu. Mən, bizimlə gedən insanların həyatını xilas etmək üçün, Salatın adı verdiyim körpəmi belimdən açıb öz əllərimlə boğmaq məcburiyyətində qaldım. Əllərim də soyuqdan keyimişdi... Bələkdə boğduğum uşağımı ağacın dibinə qoymağa əlim gəlmədi. Yenidən kürəyimə bağladım, yolumuza davam etdik.

İkinci gün idi ki, ac-susuz meşədə qar yeyir, hara getdiyimizi bilmədən irəliləyirdik. Yolumuzu azmış halda qalmışdıq. Üçüncü gün girov düşdük. 200-dən artıq Xocalı sakinini Dəhrav kəndinə apardılar. Əli silahlı döyüşçülərdən 12 nəfəri və bir də qocaları saxladılar. Bir hissəsini isə danışıqlardan sonra buraxdılar. Həmin gün yanımda olan **Mahirə xala** mənə dedi ki, kürəyinə şəllədiyin uşaq tərpənir. Çox çətinliklə, donmuş halda körpəni açdım. Körpə Salatını qaralmış və göyərmiş halda bələkdən açıb əmizdirməyə başladım. Taqətsiz, üç gün ac ananın

südü hardaydı..? Körpə Salatınımın sağ olduğunu gördükdə bir az bədənim isindi. Ancaq qorxu, həyəcan içərisində nələr olacağını bilmirdik.

Əsirliyin 3-cü günü əsirlərin bəzilərini Azərbaycan dövləti geri almağa nail ola bildi. Qalanlarını ermənilər harasa apardılar. Zalım düşmənlər ananı-baladan, qardaşı-bacıdan ayırıb apardılar.

Dördüncü gün Ağdamm Gülablı kəndinə çatdıq. Bizi Ağdam xəstəxanasına gətirdilər. O gün ermənilər xəstəxananı Alazan silahlarından güclü atəşə tutdular. O, gecə bizi evlərdə yerləşdirdilər. Mənim iki ayağımı don vurmuşdu. Həkimlər dedilər ki, əgər belə xəstələr Bakıya çatdırılmasa ayaqları kəsiləcək. 4 gün boyunca həm ac qalan, həm də öz əllərimləcə boğduğum körpə Salatınımın vəziyyəti də çox ağır idi. Bizi Bakıya xəstəxanaya götürdülər. Mən və körpə Salatınım 3 ay müalicə olunduq. Təcili yardım xəstəxanasının həkimləri ayağımı müalicə etdilər, körpə Salatınıma isə 2-ci həyat verdilər.

O vaxtdan illər keçib. Bu gün ikinci həyat yaşayan Salatın artıq məktəbi bitirib. O, müdhiş gecənin bütün faciələrini bilir. Və... unutmur.

## MƏHKƏMƏ-TİBB EKSPERTİNİN "RƏYİ"NDƏN BİR NEÇƏ SÖZ...

*1992-ci il, fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində erməni quldurları tərəfindən qətlə yetirilən şəxslərin xəsarətlərinin təhlili:*

"Xocalı hadisəsi zamanı bizim birliyin ekspertləri tərəfindən məhkəmə tibbi müayinədən 181 meyit keçirilmişdir. Həmin meyitlərdən 130 nəfəri kişi, 51 nəfəri isə qadındır. Müayinə olunan meyitlərdən 13 nəfəri azyaşlı olmuşdur. Xəsarətlərin əmələ gəlmə mexanizminə görə bölünməsi aşağıdakı qaydada olmuşdur:

*a) qəlpə təsirindən - 20*
*b) güllə təsirindən - 151*
*c) küt alət təsirindən - 10*

***Xəsarətlər, yetirildiyi nahiyələrə görə aşağıdakı kimi olmuşdur:***

*a) baş nahiyəsi - 40*
*b) döş qəfəsi - 74*
*c) qarın nahiyəsi - 17*
*d) ətrafları - 11*

Bununla yanaşı, müayinə olunmuş meyitlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni başın dərisinin soyulması, qadınlarda döşlərin kəsilməsi, burun və qulaq qığırdaqlarının kəsilməsi, qadınların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması əlamətləri aşkar edilmişdir. Eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi müşahidə olunmuşdur. Müayinə olunmuş 31 meyitdə isə kombinə olunmuş, yəni bədənin müxtəlif nahiyələrinin güllə yarası və küt alətlə kəsici-deşici alətlə yetirilmiş xəsarətlər olmuşdur. Müayinə olunmuş meyitlərdən 13 nəfərində bədənin bütün səthini əhatə edən yanıq kömürləşmə aşkar edilmişdir.

Eyni zamanda müayinədən keçən meyitlərdən 10 nəfərində güllə yarası ilə birlikdə onların üzərindən hərbi texnikanın keçməsi əlamətləri olmuşdur.

## 366-CI ALAY

**Xocalı soyqırımında 366-cı alayın rolunu xüsusi qeyd etmək lazımdır.**

Bu alay Şuşa və Xocalının, Azərbaycanın kəndlərinin atəşə tutulmasında dəfələrlə iştirak etmişdir. Alaydan qaçmış hərbçilərin ifadələri bu faktları sübut edir və hərbi hissənin şəxsi heyətinin mənəvi durumu və münasibətləri haqqında təsəvvür yaradır. 366-cı alayın təcili surətdə Xankəndidən çıxarılması da bu alayın Xocalı hadisələrində iştirakını sübut edir.

Hərbi hissənin komanda heyətinin mənəviyyatsızlığı o həddə çatmışdır ki, guya əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilmədilər. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli oldu. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfəri, əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbçi əmrə tabe olmaqdan boyun qaçıraraq Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Beləliklə də gələcəkdə Azərbaycana qarşı cinayətlərin törədilməsi, separatçılıq hərəkətlərinin davam etdirilməsinə rəvac verildi. Bunun özü də Xocalı soyqırımında birbaşa iştirakın sübutudur!

Erməni silahlı dəstələri və 366-cı motoatıcı alayın şəxsi heyəti Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulmasında iştirak etmiş üzvləri Xocalı şəhərində törədilmiş vandalizmin əsas cinayətkarlarıdır.

Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktlara - **Cenevrə Konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə** həyasızcasına məhəl qoyulmamasıdır.

# XOCALI DÖYÜŞÜNÜN MİLLİ QƏHRƏMANLARI

## ELİN ZİYALI OĞLU

***Əlif Lətif oğlu Hacıyev –***



1953-cü ildə iyun ayının 24-də Xocalı şəhərində doğulub. 1960-1970-ci illərdə Xocalı orta məktəbini, 1970-1971-ci illərdə Stepanakert şəhərində OADKYC nəzdində avto-məktəbi bitirmişdir. 1971-1973-cü illərdə Minsk şəhərində hərbi xidmətdə olmuşdur. 1974-1984-cü illərdə Belorusiya Daxili İşlər Nazirliyi sistemində və ardından Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili İşlər İdarəsində müxtəlif vəzifələrdə işləmişdir.

1976-1979-cu illərdə M.V.Frunze adına SSRİ DİN-nin Xüsusi Orta Milis Məktəbində təhsil almışdır. 1981-ci ildə təhsilini SSRİ DİN-nin Akademiyasının Leninqrad fakültəsində davam etdirmişdir. 1982-ci ildə xidmət yerini Azərbaycan Respublikasına dəyişməsi ilə əlaqədar təhsilini Hərbi Akademiyanın Rostov vilayətindəki strukturunda davam etdirmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili İşlər Şöbəsində işləyərkən millətçi ermənilər tərəfindən ona qarşı dəfələrlə xəyanətkarlıq edilmişdi. Hətta Əlifə cinayət işi açmışdılar. Lakin 1988-ci il Dağlıq Qarabağ hadisələrinin başlanması ilə Əlif Hacıyevə qarşı ermənilər tərəfindən edilən qatı cinayətin üstü açılmış, o bəraət qazanmış və öz işinə bərpa edilmişdir.

Əlif 1990-cı ildə Xocalıya qayıdır. Dağlıq Qarabağda yaradılmış Təşkilat Komitəsində fəaliyyət göstərir. Əlif Hacıyevlə ilk görüşüm 1990-cı ildə Xankəndində Təşkilat Komitəsində olmuşdur. Əlifi təbrik etmək istəyənlər o qədər çox idi ki, Əlif onların hamısı ilə mehribanlıqla görüşür, öz razılığını bildirirdi. O, Xankəndində işlədiyi müddət boyunca, ermənilər ondan çəkinir və onu Xankəndindən uzaqlaşdırmağa çalışırdılar. Ancaq Qarabağ azərbaycanlıları sevinirdilər ki, Əlif Hacıyev onların arasındadır.

O vaxt Əlif Hacıyevə çox məsuliyyətli bir iş tapşırıldı. O, Xocalı şəhərində yerləşən Hava Limanına rəhbər işə təyin edildi. Həmin vaxtlar Əlif Hacıyevin fəaliyyəti bütün Azərbaycana səs salmışdı. Ermənilərə göz verir, işıq vermirdi. Ermənistandan gələn təyyarələrə nəzarət edir, onların uçuşlarını məhdudlaşdırırdı. Digər tərəfdən isə gecə-gündüz Xocalının müdafiəsi üçün var qüvvə ilə çalışırdı.

Əlif Xocalı camaatı üçün çox iş gördü. Gecəli-gündüzlü, erməni daşnakları ilə vuruşdu və xalq, Vətən uğrunda qəhrəmanlıqla həlak oldu. O müdhiş gecədə Əlifin qardaşı Süleyman da həlak oldu.

Əlifin göstərdiyi qəhrəmanlıq, qorxmazlıq Xocalıların xatirəsində əbədi yaşayacaqdır.

### *Tofiq Mirsiyab oğlu Hüseynov*



1954-cü ildə Xocalıda dünyaya göz açıb. Xocalı orta məktəbini bitirdikdən sonra Ağdamdakı Kənd təsərrüfatı Texnikumunu bitirmişdir. 1974-1976-cı illərdə hərbi xidmətini Qazaxıstanın Ayanquz şəhərində keçirmiş, hərbi xidmətini bitirdikdən sonra doğma Xocalısına qayıtmışdır.

Tofiq ailənin birinci övladı olub. Atası Mirsiyab, anası Minəş övladlarını Vətənə, torpağa məhəbbət hissi ilə tərbiyə etmişdilər. Tofiq hərbi xidmətdən qayıtdıqdan sonra Xocalı məktəbində hərbi müəllim işləyir. 1981-ci ildə Xocalı Xalq Təhsil şöbəsinin hərbi işlər üzrə inspektoru təyin edilir.

Bəlli olduğu kimi, 1988-ci ildən etibarən Qarabağın bütün Azərbaycan kəndləri, o cümlədən Xocalı şəhəri üçün də ağır günlər başlamışdı. 1991-ci ildə Tofiq Hüseynovun təşəbbüsü və komandirliyi ilə *"Xocalı Özünümüdafiə batalyonu"* yaradılır. O, artıq bir gün də olsa öz evində rahat yatmır. Hər gün Xocalı üzərinə hücum, hər gün döyüş vardı. Ancaq bütün bunlar Xocalı sakinlərinin döyüş ruhunu sındıra bilmədi. Düz 4 il Xocalı "özünümüdafiə batalyonu"nun köməyi ilə müdafiə olundu. - 1992-ci il fevralın 25-dən 26-na keçən gecəyə qədər... "Xocalı özünümüdafiə batalyonu", onun komandiri Tofiq Hüseynov son nəfəsinədək qəhrəmancasına vuruşdu.

İgid Tofiqin həlak olması onun sağ qalan döyüş dostlarını sarsıtdı.

O, cəmi 38 il yaşadı. O, bu qısa, lakin mənalı həyat yolu qəhrəmanlıqla başa çatdı. O, sanki anadan qəhrəman doğulmuşdu. O müdhiş gecədə, təkcə Tofiq Hüseynov yox, onun ailəsi də - həyat yoldaşı **Məxmər,** atası **Mirsiyab,** anası **Minəş,** qardaşı **Bakir** faciəli şəkildə həlak oldular.

3 övladı yadigar qalıb Tofiqin: **Yasəmən, Əfsanə** və **Murad.** Hər üçü əmisi Akif Hüseynovun himayəsi altında böyüyürlər.

Xocalının bu igid oğlunun məzarı Bakıda, Şəhidlər Xiyabanındadır.

Azərbaycan Prezidentinin Sərəncamı ilə Tofiq Hüseynov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

***İnqilab Ələkbər oğlu İsmayılov –***



1962-ci ildə Xocalıda doğulub.

Orta məktəbi Xocalıda bitirib.

1981-ci ildə orduya çağırılır. Hərbi xidməti bitirdikdən sonra doğma şəhəri Xocalıya qayıdır. Çox çalışsa da Xankəndində polis sıralarına daxil ola bilməyən İnqilab, bundan sonra südçülük-tərəvəzçilik sovxozunda fəhlə kimi işə düzəlir. Eyni zamanda texniki peşə məktəbində mexanizatorluq ixtisasına yiyələnir.

1988-ci ildə Ermənistanın Azərbaycana elan edilməmiş müharibəsi, Qarabağda başlanan mitinqlər vəziyyətin getdikcə ağırlaşdığından xəbər verirdi. 1990-cı ildə rayon statusu alan Xocalıda güclü tikinti işləri gedirdi. O vaxtlar Xocalılar həm də əhalinin müdafiəsini təşkil etmək üçün gecə-gündüz iş aparırdılar. Bu məqsədlə 1990-cı ildə **İnqilab İsmayılov** Xocalı polis şöbəsində işə düzəlir. Bu elə vaxt idi ki, hər gün Xocalıya ermənilər tərəfindən hücum edilir, günahsız insanlar qətlə yetirilirdi. İnqilab o vaxt Xocalı şəhərinin hərbiləşdirilmiş mühafizə dəstəsində fəaliyyət göstərirdi. O, evə gec-gec gəlir, döyüş postunu bir an belə nəzarətsiz buraxmırdı. 1992-ci il, fevralın 25-dən 26-na keçən gecə rusların 366-cı motoatıcı alayı və erməni-rus hərbçiləri birlikdə Xocalıya divan tutdular. Meşələr, düzlər insan meyitləri ilə dolmuşdu. Sağ qalan Xocalı sakinləri, o cümlədən İnqilab İsmayılov yaralıların və meyitlərin daşınmasında fədakarlıq göstərir, ermənilərdən qisas almağa çalışır, bunun üçün məqam axtarırdı.

...Xocalı şəhid şəhər olmaqla əhalisi də şəhid oldu. Bundan sonra İnqilab günahsız insanların qısasını almaq üçün Ağdam ətrafındakı döyüşlərdə qəhrəmancasına döyüşməyə başladı. Onun son döyüşü Daşbaşı yüksəkliyində oldu. O yüksəkliyi götürmək üçün İnqilab 25-dək erməni əsgərini məhv etdi, ancaq özü də qəhrəmancasına həmin döyüşdə həlak oldu.

***Xocalı soyqırımı zamanı şəhid olmuş Milli Qəhrəman Füzuli Salah oğlu Rüstəmovun bacısı, Xocalı soyqırımı şahidi Fiqurə Rüstəmovanın qardaşı haqqında yazdıqlarından:***

- Qardaşım Füzuli 1966-ci ildə Xocalıda doğulub. Ata-anamızı erkən itirmişdik. Qardaşım mənimlə birlikdə yaşayırdı. Orta məktəbi Xocalıda oxuyub qurtardıqdan sonra Hərbi xidmətə getdi. Hərbi xidməti başa vurduqdan sonra Xocalıya qayıtdı və sovxozda işə düzəldi. Hamı onu mehriban, qayğıkeş bir oğlan kimi tanıyırdı.

1988-ci ildə Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana elan olunmamış müharibəsi başladı. Həmin vaxt camaatımızı Ermənistan Silahlı Qüvvələrinin

hücumlarından qorumaq üçün Xocalıda özünümüdafiə batalyonu yaradıldı. O, da batalyonun bir üzvü kimi ömrünün sonuna qədər Xocalı camaatını düşmənlərdən müdafiə etdi. 1992-ci il 26 fevral gecəsi Ermənistan Silahlı Qüvvələri Xocalıya hücum edib, insanları vəhşicəsinə qətlə yetirən zaman canını qurtarmağa imkan tapanlar canını qurtarmaq üçün yaxınlıqdakı meşəyə doğru qaçırdılar. Ermənistan silahlıları da onları təqib edərək atəş açır, yaraladıqlarını və ələ keçirə bildiklərini əsir götürürdülər. Bizim insanlarımızda silah çox az idi, ona görə də həddindən artıq silahlanmış erməni hərbçilərinə qarşı müqavimət göstərmək çox çətin idi. Füzuli əlində avtomat silahla qız-gəlinlərin ermənilərə əsir düşməməsi üçün Kətik meşəsində, Naxçivanik kəndi yaxınlığında döyüşürdü. O, iki dəfə qadınları, uşaqları, qocaları erməni hərbçilərinin mühasirəsindən çıxararaq Ağdama doğru göndərə bilmişdi.



**Füzuli Rüstəmov**

Fiqurə Salah qızı Rüstəmova deyir ki, qardaşı üçüncü dəfə insanları mühasirədən çrxarmaq istəyəndə sayca çox olan erməni hərbçiləri onu ağır yaralayıblar. Yoldaşları yaralanmış insanları, o cümlədən Füzulini çox çətinliklə Ağdam hərbi qospitalına çatdırsalar da, onun həyatını qurtarmaq mümkün olmur. Xocalının sağ qalan hər bir vətəndaşı Füzulinin qəhrəmanlığından danışır. Füzulinin mühasirədən çıxara bildiyi və Ağdama doğru qaçmağa imkan tapmış həmin insanlar bu gün də şəhid qəhrəmanı hörmətlə yad edirlər.

**Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun** qəbri Tərtər rayonunun Həsənli qəbirstanlığındadır.



**Şöhrət Həsənov**

***Xocalının müdafiəsi zamanı şəhid olmuş (və ölümündən sonra Azərbaycan prezidenti tərəfindən «İgidliyə görə» nıedalı ilə təltif olunmuş) Şöhrət Usub oğlu Həsənovun həyat yoldaşı, Xocalı soyqırımının şahidi Mehriban Həsənova həmin hadisələri dəhşət və ağrı ilə xatırlayır:***

- O, çox qısa ömür sürdü. Cəmi 48 yaş. Amma mənalı və şərəfli həyat yolu keçdi. Bilirsiniz ki, ermənilər Xocalını məhv etmək üçün həmişə fürsət axtarırdılar. Yadımdadı, ermənilər 1986-cı ildə Xocalıda olan daş kurqan qəbirləri söküb yerində qaraj tikmək istəyirdilər. O vaxt Şöhrət bunun reallaşmasına imkan vermədi. Ölkənin rəsmi dairələrinə onların bu niyyəti barədə məlumatlar verdi və qarşısını ala bildi. O, «Xocalının səsi» qəzetinin nəşr edilməsinə də böyük dəstək göstərirdi. Hətta qəzetin adını da Şöhrət seçmişdi. Dağlıq Qarabağda yaşayan ermənilər bu bölgənin Azərbaycandan alınaraq Ermənistana verilməsi, birləşdirilməsi ilə bağlı

hələ o zaman SSRİ rəhbərliyinə müraciətlər göndərməyə başlamışdılar. Şöhrət bunun qarşısının alınması üçün daim mübarizə aparırdı. Onun ən ağrılı yeri Qarabağ idi, çünki boya-başa çatdığı Xocalı torpağını XX əsrdə ermənilər 3 dəfə yerlə-yeksan etmişdilər. Yaşadığı qısa həyatda onu həmişə narahat edən ermənilərin Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiası, məkrli fikirləri idi. O, Xocalının müdafiəsi üçün neçə il gecə-gündüz çalışırdı. Özünümüdafiə batalyonunun üzvü kimi Xocalıda sadə insanları vəhşicəsinə qətlə yetirən, soyqırım törədən Ermənistan Silahlı Qüvvələrinə qarşı vuruşdu. Ermənilər onu ancaq yaralayandan sonra əsir götürə bilmişdilər. Və ona qarşı insanlıqdan kənar vəhşiliklər törətmişdilər. Onu işgəncə verərək öldürüblər. Əvvəlcə sağ qolunu və sağ qıçını kəsiblər, sonra sağ gözünü çıxarıblar və bu cür işgəncələri davam etdirərək onu qətlə yetiriblər. Amma son anınadək, bütün işgəncələrə baxmayaraq düşmənə əyilməyib. Onun cəsədini bir ay sonra tapa bildik və indi Şəhidlər Xiyabanında yatır. Onun ən böyük arzusu dövlətimizin ərazi bütövlüyü idi. O, həmişə söhbətlərində türkçülüyü, milli adət-ənənəmizi təbliğ edirdi:

***Ankaranın daşına bax,***
***Gözlərimin yaşına bax,***
***Erməni türkü əsir alır,***
***Sən dünyanın işinə bax.***

Mən sadəcə bir şey istəyirəm. Xocalının düşmən tapdağından azad olması və torpağımıza, ev-eşiyimizə yenidən qayıtmaq. Ancaq o zaman Şöhrətin və onun kimi yüzlərlə Xocalılının ruhu rahatlıq tapa bilər. Bu soyqırımı törədənlər isə ədalət qarşısında cavab verməlidirlər. Mən ümid edirəm ki, o gün uzaqda deyil...

## XOCALI SOYQIRIMI İLƏ BAĞLI
## XARİCİ KİV-lərin MƏLUMATLARI

# THE WASHINGTON POST

### "ARMENIAN RAID LEAVES AZERIS DEAD OR FLEEING"

About 1,000 of Khojaly's 10.000 people were massacred by the Armenian Army in Tuesdays attack. Azerbaijani television showed truckloads of corpses being evacuated from the Khocaly area.

**The Washington Times, 2 March 1992**

### "ATROCITY REPORTS HORRIFY AZERBAIJAN"

*By Brian Killen. Aghdam. Azerbaijan*

Dozens of bodies lay scattered around the killing fields of Nagorno Karabakh yesterday, evidence of the worst massacre in four years of fighting over the disputed territory.

Human Rights Watch called the tragedy at the time "the largest massacre to date in the conflict." The New York Times wrote about "truckloads of bodies" and described acts of "scalping."

This savage cruelty against innocent women, children and the elderly is unfathomable in and of itself but the senseless brutality did not stop with Khojaly. Khojaly was simply the first. In fact, the level of brutality and the unprecedented atrocities committed at Khojaly set a pattern of destruction and ethnic cleansing that Armenian troops would adhere to for the remainder of the war. On November 29, 1992, Newsweek quoted a senior US Government official as saying "What we see now is a systematic destruction of every village in their (the Armenians) way. It's vandalism."

This year, as they have every year since the massacre, the leaders of Azerbaijan's Christian, Jewish, and Muslim communities issue appeals on the eve of commemoration of the massacre of Khojaly urging the international community to condemn the February 26,1592 bloodshed, facilitate liberation of the occupied territories and repatriation of the displaced communities.

And every year, those residents of Khojaly, who survived the massacre - many still scattered among one million refugees and displaced persons in camps around Azerbaijan - appeal with pain and hope to the international community to hold Armenia responsible for this crime. I am pleased to say that on January 25, 2005 the Parliamentary Assembly of the Council of Europe overwhelmingly adopted a resolution highlighting that "considerable parts of Azerbaijan's territory are still occupied by the Armenian forces and separatist forces are still in control of the Nagorno-Karabakh region." It also expressed concern that the military action between 1988 and 1994 and the widespread ethnic hostilities which preceded it, "led to large-scale ethnic expulsion and the creation of mono-ethnic areas which resemble the terrible concept of ethnic cleansing."

Mr, Speaker, this is not the ringing condemnation that the survivors of Khojaly deserve but it is an important first step by an international community that has too long been silent on this issue. Congress should take the next step and I hope my colleagues will join me in standing with Azerbaijanis as they commemorate the tragedy of Khojaly. The world should know and remember.

## "Memorial" Hüquq-müdafiə Mərkəzinin hesabatından:

**Xocalı**

1991-ci ilin payızından erməni silahlı dəstələri tərəfindən əsasən blokadaya alınmışdı, Dağlıq Qarabağdan daxili qoşunlar çıxarılandan sonra isə tam blokadada idi. 1992-ci ilin yanvarından Xocalıya elektrik enerjisi verilmirdi. Əhalinin bir hissəsi şəhəri tərk etmişdi, ancaq Xocalı İcra hakimiyyətinin başçısı E.Məmmədovun təkidli müraciətlərinə baxmayaraq dinc əhali tam evakuasiya olunmamışdı.

**1992-ci il fevralın 25-də Xocalıya erməni silahlı dəstələrinin hücumu başlandı.**

**Hücumun iştirakçıları**

Hücumda zirehli texnikanın - zirehli maşınların, piyadaların döyüş maşınlarının və tankların dəstəyi ilə **"Artsaxın Milli Azadlıq Ordusu"nun (AMAO)** hissələri iştirak edirdi.

**Keçmiş Sovet Ordusunun 366-cı alayının hərbçilərinin iştirakı**

Təqribən bütün Xocalı qaçqınlarının söylədiklərinə görə, şəhərə hücumda 366-cı alayının hərbçiləri iştirak edirdi, hətta onlardan bəziləri şəhərə də girmişdilər.

**Hücumun gedişatı**

Xocalı fevralın 25-də saat 23-dən toplardan atəşə tutulmağa başlanmışdır. İlk növbədə yaşayış massivində yerləşən kazarma və müdafiə nöqtələri dağıdılmışdı. Piyada hissələr şəhərə fevralın 26-sı saat 1-4 arası girmişdir.

Sonuncu müdafiə nöqtəsi saat 7-də məhv edilmişdir. Şəhərin güllləbaranı nəticəsində dinc əhalinin müəyyənləşdirilməmiş miqdarda əmlakı dağılmışdır.

**Əhalinin çıxması üçün "azad dəhliz"**

*Memorialın* müşahidəçiləri Ağdam və Bakıda Xocalıya hücum zamanı şəhəri tərk etmiş 60 nəfərlə sorğu-sual etmişlər. Soruşulanlardan ancaq biri söyləmişdir ki, dəhliz barədə məlumatı olmuşdur.

*Azad dəhlizlə* qaçan əhali Azərbaycanın Ağdam rayonuna qovuşan ərazidə gülləyə tutulmuşdur və nəticədə çoxlu sayda insan həlak olmuşdur.

**Şəhərdə qalmış əhalinin müqəddəratı**

Şəhər erməni silahlı dəstələri tərəfindən zəbt ediləndə orada **300** dinc əhali, o cümlədən **86** məshəti-türkü qalmışdı.

Hər iki tərəfdən alınmış məlumata əsasən, 1992-ci il martın 3-nə olan məlumata görə Azərbaycan tərəfinə, şəhərdə və Ağdam yolunda əsir götürülmüş 700-dən artıq Xocalı sakini təhvil verilmişdir. Onların əsas hissəsini qadınlar və uşaqlar təşkil edirdi.

**Əsir düşmüş əhali və Xocalı müdafiəçilərinin saxlanılma şəraiti**

Müvəqqəti saxlanılma təcridxanasının rəisi mayor **Xaçaturyan** hətta bir neçə dəqiqəlik təklikdə danışmağa icazə vermədi. Təsadüfən bir dəfə belə söhbət etmək mümkün oldu.

**Xocalı sakinlərinin əmlakı**

Şəhərdən qaçan Xocalı sakinləri hətta zəruri əşyaları belə götürə bilməmişlər. Erməni silahlı qüvvələrinin Xocalıdan çıxardıqları sakinlər də əmlaklarından heç nə götürməmişdilər.

***Memorialın*** müşahidəçiləri şəhərdə azğın, heç nə ilə qarşısı alınmayan soyğunçuluğun şahidi olmuşlar. Şəhərdə qalan əmlak Xankəndi və yaxınlıqdakı yaşayış məntəqələrinin əhalisi tərəfindən daşınırdı. Çox evlərin darvazalarında onların yeni sahiblərinin adları yazılmışdır.

**Alınmış məlumatların qiymətləndirilməsi**

*Xocalının zəbt olunması üzrə həyata keçirilmiş hərbi əməliyyat zamanı şəhərin dinc əhalisinə qarşı kütləvi zorakılıq törədilmişdir.*

**Azad dəhliz barədə məlumat Xocalının əhalisinin çoxuna çatdırılmamışdır.**

*Azad dəhliz və onun yaxınlığındakı ərazidə dinc əhalinin kütləvi qırğınına heç bir cəhdlə haqq qazandırmaq olmaz.*

**Xocalıya hücumda Rusiyaya məxsus olan 366-cı motoatıcı alayın hərbçiləri iştirak etmişdir.**

**Memorial Hüquq-müdafiə Mərkəzi** təsdiq edir ki, Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri **Cenevrə Konvensiyasına,** həmçinin **Ümumdünya İnsan Haqları Bəyannaməsinin** *(BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul etmişdir)* aşağıdakı maddələrinə kobud qaydada ziddir:

**Maddə 2.** Hər bir şəxs dilindən, dinindən, milliyyətindən və digər səbəbdən, fərq qoyulmadan bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

**Maddə 3.** Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

**Maddə 5.** İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.

**Maddə 9.** Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.

**Maddə 17.** Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

Silahlı dəstələrin hərəkətləri *Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə (BMT-nin Baş Assambleyası 14.12.1974-cü ildə qəbul etmişdir)* kobud qaydada ziddir.

## ƏZİZ XOCALILAR!

Hörmətli həmvətənlər, iki il öncə, 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanılan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Mənəvi, fiziki itkimiz əvəzolunmaz dərəcədə ağırdır. Təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın siyasi həyatında mövcud olmuş hərc-mərcliklər, anarxiya, milli taleyimizə biganə siyasi ambisiyalar, hakimiyyət oyunları və siyasi qruplar arasında münaqişələr də həyatımızda baş verən bütün faciələrdə az rol oynamamışdır. Nəticədə tariximizə qara səhifələr yazılmış, xalqımızın qəlbinə sağalmaz yaralar vurulmuşdur. Respublikanın hüquq-mühafizə orqanları günahkarların aşkar edilməsi istiqamətində ardıcıl iş aparır. Əmin ola bilərsiniz ki, törədilmiş cinayətin məsuliyyətindən heç kəs yaxa qurtara bilməyəcəkdir.

Dünyada hər şeyin, dərdin də, əzabın da bir sonu var. O cümlədən, məcburən qatıldığımız müharibənin də. Xalqımızı əmin etmək istəyirəm ki, müqəddəs vətənimizin real müstəqilliyi və torpaqlarımızın düşmən tapdağından azad olacağı gün uzaqda deyildir. Hamımızın sıx birliyimizlə biz bu ağır tale sınağından qələbəylə çıxacağıq və hər kəs öz doğma od-ocağına qayıdacaqdır.

Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə **26 fevral "Xocalı soyqırımı və milli matəm günü"** elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Bu gün ölkəmizin hər yerində Xocalı qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir. Xocalı soyqırımı qurbanlarının müqəddəs ruhları qarşısında bir daha baş əyir, onların qohumlarına və bütün Azərbaycan xalqına başsağlığı verirəm.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin.**

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri, 1 mart 1994-cü il***

## XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNƏ SÜKUT DƏQİQƏSİ ELAN EDİLMƏSİ HAQQINDA

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş **Xocalı soyqırımını** törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə qərara alıram:

**Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.**

**Heydər ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 25 fevral 1997-ci il, N 498.*

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu

uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cumhuriyyəti yaradıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-də iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSRİ-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycan Dağlıq Qarabağ Muxtar

Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə **Xocalı soyqırımı** kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə -1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

*Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:*

***1.*** **31 mart Azərbaycanlıların Soyqırım Günü elan edilsin.**

***2.*** **Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.**

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı, şəhəri, "26" mart 1998-ci il, N 690.*

* * *

2001-ci ildə Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüsü ilə *"Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş genosidin etiraf edilməsinə dair"* deklarasiya hazırlanıb. Sənəddə ermənilərin tarixən Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə xronoloji ardıcıllıqla diqqət yetirilir. Xocalı faciəsi ilə bağlı sənəddə yazılır: "26 fevral 1992-ci il tarixində ermənilər Xocalı şəhərinin bütün əhalisini vəhşicəsinə qırdı və şəhəri bütövlükdə darmadağın etdi." Deklarasiya Böyük Britaniya, Lüksemburq, Polşa, Türkiyə, Bolqarıstan, Albaniya, Norveç və Makedoniyadan olan deputatlar tərəfindən təsdiq edilib.

24-27 aprel 2001-ci il - Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyəti ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etmişdir. Sessiya zamanı 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarında uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 Azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər xüsusi vurğulanmışdır.

*"Azərbaycan ", 2010, 26 fevral Səh. 1.*

* * *

Prezident Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilmiş **Xocalı soyqırımının** yaddaşlardan heç vaxt silinməyəcəyini vurğulayıb. *"İnsanlığa qarşı o qanlı cinayət artıq bütün dünya tərəfindən tanınır və bizim səylərimiz, Azərbaycan dövlətinin, ictimai təşkilatların, diaspor təşkilatlarının, gənclərin, xaricdə yaşayan tələbələrin səyləri nəticəsində artıq bütün dünya bunu bilir. Baxmayaraq ki, müharibənin ilk illərində erməni təbliğatı bu məsələni ört-bastır etmək üçün böyük səylər göstərmişdi və deyə bilərəm ki, müəyyən uğurlar da əldə edə bilmişdi. Bizim təbliğat imkanlarımız çox məhdud idi. Erməni diasporu və onların dünyadakı havadarları tarixi həqiqəti təhrif etməklə, demək olar ki, Xocalı həqiqətlərini gizlətmişdilər. Ancaq bu gün bütün dünya bilir və dünən dünyanın müxtəlif yerlərində yüksək səviyyədə keçirilən tədbirlər və o tədbirlərdə müxtəlif ölkələrin dövlət, hökumət və ictimaiyyət nümayəndələrinin iştirakı onu göstərir ki, artıq biz bu faciə ilə bağlı bütün həqiqətləri dünya birliyinə çatdıra bilmişik",* deyə, Prezident bildirib.

İlham Əliyev Azərbaycan xalqına qarşı soyqırımda iştirak etmiş cinayətkarların cinayət məsuliyyətinə cəlb olunacağına əminliyini ifadə edib: *"Əminəm ki, o gün gələcək və Azərbaycan xalqının qanına əli batmış bütün cinayətkarlar, bütün quldurlar cəzalarını alacaqlar."*

## PREZİDENT İLHAM ƏLİYEV: XOCALI FACİƏSİ ERMƏNİ MİLLƏTÇİLƏRİNİN YÜZİLLİKLƏR BOYU TÜRK VƏ AZƏRBAYCAN XALQLARINA QARŞI APARDIĞI SOYQIRIMI VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİNİN QANLI SƏHİFƏSİ İDİ

Faciəyə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə nail olmaq insanlıq və vətəndaşlıq borcumuzdur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi. Bu mənfur siyasət xalqımıza saysız-hesabsız müsibətlər və əzab-əziyyətlər gətirmişdir".

Xocalı faciəsindən danışarkən o zamankı rəsmi Azərbaycan rəhbərliyinin və ölkədə vəziyyətə ciddi təsir edən siyasi qüvvələrin acizliyini, səriştəsizliyini, xalqın taleyinə biganəliyini xüsusi qeyd etmək lazımdır. Dövlət rəhbərliyi xalqın qəzəbindən qorxaraq hadisənin miqyasını kiçiltməyə cəhd etmiş, bu qanlı cinayət barədə beynəlxalq ictimaiyyətə operativ və ətraflı məlumat vermək üçün heç bir iş görməmişdi. O zamankı müxalifət isə faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək üçün istifadə etdi. O zaman Azərbaycanda hökm sürən hərc-mərclik, hakimiyyətin nüfuzsuzluğu, lidersizlik bu qanlı fəlakətin baş verməsinə şərait yaratdı.

1994-cü ildən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərir. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi -siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur, digər tərəfdən isə insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti
*2004-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMININ 15-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT EDİB [23 FEVRAL 2007]

Prezidentin mətbuat xidmətindən ***APA****-ya* verilən məlumata görə, 1992-ci il, fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalının erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldığını, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutulduğunu qeyd edən dövlət başçısı yüzlərlə dinc sakinin görünməmiş işgəncələrlə öldürüldüyünü, uşaqların, qadınların, qocaların, bütöv ailələrin məhv edildiyini, onların meyitlərinin təhqir olunduğunu vurğulayıb. Prezident XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsini amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət adlandırıb.

XX əsrin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycana yeni ərazi iddialarının genişmiqyaslı hərbi münaqişəyə gətirib çıxardığını qeyd edən prezident bu siyasət nəticəsində ərazimizin 20 faizinin erməni hərbi birləşmələri tərəfindən işğal edildiyini, on minlərlə insanın həlak olduğunu və yaralandığını, yüz minlərlə soydaşımızın ev-eşiyindən didərgin salındığını, qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirib. Xocalı faciəsinin həm də ölkədaxili hakimiyyət mübarizələrinin dövlətimiz üçün nə qədər təhlükəli və fəlakətli nəticələr verməsinin göstəricisi olduğunu diqqətə çatdıran dövlət başçısı o vaxt həm Azərbaycanın rəsmi rəhbərliyinin, həm də ölkədə vəziyyətə təsir etmək imkanı olan siyasi qüvvələrin xalqın taleyinə biganəlik nümayiş etdirdiyini vurğulayıb: "Yalnız ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırım haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşların, soydaşlarımızın, geniş ictimaiyyətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə

çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməli olduğunu diqqətə çatdıran prezident bildirib ki, bu tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir: "Bu işdə Azərbaycan və türk diaspor təşkilatlarının yeni yaradılan birliyi, fəaliyyətinin əlaqələndirilməsi böyük əhəmiyyətə malik ola bilər. Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq. Bu kədərli anım günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini ehtiramla yad edərək, Allahdan onlara rəhmət diləyir, yaxınlarına, bütün xalqımıza dərin hüznlə başsağlığı verirəm.

## TARİX UNUTMAYACAQDIR

**Azərbaycan Milli Məclisi hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il, fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.**

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.

Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə soyqırım və etnik təmizləmə hadisələri baş vermiş tarixi səhifələr olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Hal-hazırda bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş şəxslər hələlik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcək və onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar.

**TARİX HEÇ NƏYİ UNUTMUR!!!**

## XOCALI SOYQIRIMININ 15 İLLİYİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BƏYANATI

Bu il fevralın 26-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların soyqırımının 15 ili tamam olur. Bu hüznlü günlərdə Azərbaycan xalqı davakar erməni millətçilərinin vəhşiliyinin qurbanı olmuş günahsız insanların əziz xatirəsini ehtiramla yad edir.

Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisidir. Bundan əvvəl azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi xüsusi amansızlıqla qətlə yetirilmişdi.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi. Şəhərdə 7 min nəfərədək adam yaşayırdı. Ermənistan Respublikasındakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də burada məskunlaşmışdı.

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı. Davakar erməni millətçiləri kütləvi informasiya vasitələrində, mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışlar edirdilər.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı; Xocalının xarici aləmlə əlaqəsi ancaq radiotelefon və mülki vertalyotlar vasitəsi ilə həyata keçirilirdi. 1992-ci il yanvarın 28-də "Azərbaycan Hava Yolları" Dövlət Şirkətinə məxsus Mİ-8 markalı mülki vertalyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, vertalyotun sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdu. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilməsinin qarşısı alınmışdı. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoruyurdular. Əlbəttə, bu qüvvələr ən müasir hərbi texnika ilə təchiz edilmiş, əvvəlcədən xüsusi hazırlıq keçmiş silahlı birləşmələrə müqavimət göstərməyə qadir deyildilər.

Fevralın ikinci yarısından başlayaraq Xocalı Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin dəstələr halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum başlandı. Hücumda Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayı iştirak edirdi. Heç bir hərbi zərurət olmadan şəhər bir neçə saatın içərisində yerlə yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin - qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Beləliklə, son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarı ilə XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxarmışdır.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 *(III)* saylı qətnaməsi ilə qəbul edilmiş *"Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada* ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsif edilmişdir.

Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın zabitləri Seyran Ohanyan (hazırda - işğal edilmiş Dağlıq Qarabağ bölgəsində Ermənistan Respublikasının yaratdığı oyuncaq qurumun "müdafiə naziri"), Yevgeni Nabokix, Valeri Çitçyan rəhbərlik etmişlər. Dinc əhaliyə qarşı soyqırımı cinayətlərində fəal iştirak etmiş alayın hərbi qulluqçularının, habelə digər şəxslərin bir qisminin adları bu gün Azərbaycan tərəfinə məlumdur. Xocalı şəhərində hərbi əməliyyatdan sonra 366-cı alayın cinayətdə iştirakının izlərini itirmək üçün alay tələm-tələsik Dağlıq Qarabağdan çıxarılıb Gürcüstana aparılmış, bu zaman hərbi texnikanın böyük hissəsi erməni birləşmələrinə təhvil verilmiş və azərbaycanlı əhaliyə qarşı sonrakı cinayət əməllərində istifadə edilmişdir.

Xocalı sakinlərinə qarşı soyqırımı aktı Dağlıq Qarabağ bölgəsinin işğalı zamanı Ermənistan Respublikasının həyata keçirdiyi etnik təmizləmə siyasətinin yeni bir mərhələsini təşkil etmişdir. Bu dəhşətli cinayət əməlinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qorxudub onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaq olmuşdur. Bununla birlikdə, bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikasının silahlı qüvvələri Xocalı faciəsindən sonra tezliklə özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonların zəbt edilməsi planlarının icrasına başlamışdır.

Xocalı şəhərində dinc əhaliyə vəhşicəsinə divan tutmuş erməni hərbçilərini və onların havadarlarını təmizə çıxarmaq üçün aparılan təbliğat kampaniyası bu gün də ara vermir. İddia olunur ki, guya Xocalıya hücum şəhərdəki "atəş

nöqtələri"ni məhv etmək məqsədi ilə həyata keçirilmiş, bu zaman dinc əhaliyə qarşı heç bir zorakılıq əməlinə yol verilməmişdir. Üzdəniraq təbliğatçıların dediklərindən az qala belə çıxır ki, guya Xocalıda azərbaycanlılar bir-birini, sonra da özlərini işgəncə ilə qətlə yetirmişlər. Bəzən onların həyasızlığı elə həddə çatır ki, Xocalı şəhərində lentə alınmış və ya təsvirləri götürülmüş qanlı qırğın səhnələrini beynəlxalq ictimaiyyətə azərbaycanlıların ermənilərə qarşı cinayət əməlləri kimi təqdim edirlər.

Yalançı erməni təbliğatının miqyası ildən-ilə daha da genişləndirilir. Erməni millətçiləri qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri işğalçılıq, soyqırımı və dövlət terrorizmi siyasətini pərdələmək üçün hər vasitədən istifadə edərək, guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmaların beynəlxalq səviyyədə qəbul olunmasına cəhdlər göstərirlər. Həm də bu cəhdlər bir sıra hallarda müəlliflərinə çirkli siyasi "dividendlər" gətirir. Xocalı faciəsi kimi real soyqırımı aktına göz yuman ayrı-ayrı dövlətlərin parlamentlərinin təsir altına düşərək, yaxud siyasi konyunkturaya əsaslanaraq "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirməsi, hətta bu barədə əsassız və ədalətsiz aktlar qəbul etməsi yalnız təəssüf hissi doğurur.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Xocalı soyqırımı unudulmamalı, dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini almalıdır. Faciənin ideoloqları, təşkilatçıları və icraçıları yaxalanaraq layiq olduqları cəzalara çatdırılmalıdırlar.

Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Avropa Birliyinə, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görsünlər, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə, xüsusən onların arasında təməl rolunu oynayan dövlətlərin ərazi bütövlüyü prinsipinə əsasən sülh yolu ilə həllinə kömək göstərsinlər.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin həyata keçirilməsini tələb edərək, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarları və yekun sənədləri, Avropa Şurası Parlament Assambleyasının 1416 nömrəli qətnaməsi əsasında Dağlıq Qarabağ problemini həll etməyə çağırır.

Azərbaycan parlamenti erməni tərəfini sülh prosesində konstruktiv mövqe tutmağa, silahlı qüvvələrini işğal olunmuş torpaqlardan geri çəkməyə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımağa çağırır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının suveren iradəsini ifadə edərək bir daha bildirir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, əzəli torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və mövcud imkanların hamısından istifadə edərək ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılmasına nail olacaqdır.

***(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2007-ci il 27 fevral tarixli iclasında qəbul edilmişdir.)***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KONQRESİNƏ MÜRACİƏTİ

**Hörmətli həmkarlar,**

Bu günlərdə ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin qondarma "erməni soyqırımı"na dair qərar qəbul etməsi barədə aldığımız xəbər bizdə dərin narahatlıq və hiddət doğurmuşdur. Tarixi həqiqətlərə aşkar etinasızlığın və dövlət mənafelərinin erməni lobbisinin maraqlarına qurban verilməsinin bariz ifadəsi olan bu ədalətsiz qərarı biz Kiçik Asiya və Cənubi Qafqaz bölgəsində yeni problemlərə yol aça biləcək yanlış addım kimi qiymətləndiririk.

Erməni millətçilərinin qonşu dövlətlərə qarşı əsassız iddialarına haqq qazandırmaq üçün tam araşdırılıb obyektiv qiymətini almamış uzaq tarixi hadisələri siyasi alver predmetinə çevirməyə cəhd göstərilməsi göz qabağındadır. Tarixdə heç bir "erməni soyqırımı"nın baş vermədiyini elmi həqiqətə sadiq qalan tədqiqatçılar, o cümlədən Qərb alimlərinin özləri çoxdan sübuta yetirmişlər. "Erməni soyqırımı" haqqında uydurmalar xəstə təxəyyülün məhsulu olub saxta sənədlərə əsaslanır.

Türkiyə dövləti rəhbərliyinin Osmanlı dövrünə aid arxivləri açması, tədqiqatçıları, o cümlədən erməni alimlərini XX əsrin əvvəlləri ilə bağlı tarixi sənədlərlə tanış olmağa dəvət etməsi, habelə tarixçilərdən ibarət müştərək komissiya yaradılmasını təklif etməsi, lakin erməni tərəfinin sağlam elmi polemikadan imtina etməsi "erməni soyqırımı" əfsanəsini dünyaya yayanların iç üzünü açıb göstərir. Erməni millətçilərinin həmin təklifi rədd etməsi sübut edir ki, onları tarixi həqiqətlərin üzə çıxarılması deyil, əksinə, ört-basdır edilməsi və faktların saxtalaşdırılması daha çox maraqlandırır.

Obyektiv araşdırmalar göstərir ki, XX əsrin əvvəllərində erməni millətçiləri müasir Türkiyə Cümhuriyyətinin ərazisində və Qafqazda kütləvi terror və soyqırımı aktları törədərək, 2 milyondan artıq günahsız türkü və azərbaycanlını qətlə yetirmişlər. Son 18 ilə yaxın bir dövrdə Azərbaycan parlamenti beynəlxalq təşkilatlara və dünya ölkələrinin parlamentlərinə, o cümlədən ABŞ Konqresinə ötən əsrdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərinin, xüsusən 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı soyqırımının tanınması barədə dəfələrlə müraciət etmişdir. Təəssüf ki, sivil dünyanın gözü qarşısında baş vermiş bu dəhşətli cinayətə Amerika Birləşmiş Ştatları indiyədək heç bir qiymət verməmişdir.

Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin bu qədər ədalətsiz bir akt qəbul etməsi heyrət doğurur. Erməni millətçilərinin XX əsrin əvvəllərinə aid soyqırımı iddiaları və uydurmaları qəbul edildiyi halda onların müasir dövrdə apardıqları işğalçılıq müharibəsinə və bu zaman azərbaycanlılara qarşı törətdikləri soyqırımına göz yumulması açıq-aşkar ermənipərəst qərəzli mövqedən xəbər verir. Belə bir şəraitdə Ermənistan Respublikası bölgədə sülhün, sabitliyin və qarşılıqlı anlaşma mühitinin bərqərar edilməsinin tərəfdarı olduğunu sözdə bəyan etsə də, əslində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlamaqla və 1 milyon azərbaycanlını qaçqın və köçkün həyatına məhkum etməklə beynəlxalq hüquq normalarını və prinsiplərini kobudcasına pozmaqda davam edir.

Azərbaycan cəmiyyətində belə bir fikir kök salmışdır ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olan ən böyük amil dünyanın nüfuzlu dövlətləri tərəfindən münaqişəyə ikili standartlarla yanaşılması, təcavüzkarın öz adı ilə çağırılmaması və cəzasız qalması, işğalçı ilə işğalın qurbanının bərabər tutulmasıdır.

Münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi Amerika Birləşmiş Ştatlarının Konqresinin Nümayəndələr Palatasının komitəsində ədalətsiz qərarın qəbul edilməsi bölgədə sülh yaradılması səylərinə mane olur və danışıqlar prosesində indiyədək əldə edilmiş pozitiv nəticələri heçə endirə bilər.

Lakin biz əminik ki, ABŞ-ın bölgədəki maraqlarına zidd olan, ABŞ – Türkiyə və ABŞ – Azərbaycan strateji tərəfdaşlığına zərbə vura biləcək bu qərar Amerika Konqresi tərəfindən rədd ediləcəkdir. Ümid etmək istəyirik ki, ABŞ kimi demokratik imicə malik olan bir dövlətin rəhbərliyi ABŞ - Türkiyə və ABŞ - Azərbaycan münasibətlərinə xələl gətirə biləcək bu qərarın qəbul edilməsinə yol verməmək üçün mümkün olan hər şeyi edəcəkdir.

***(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il, 5 mart tarixli iclasında qəbul edilmişdir.)***

## ERMƏNİ TƏCAVÜZÜ

## TARİXİ VƏ SİYASİ MƏLUMAT

## ƏSAS FAKTLAR

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi Qarabağ adlandırılan coğrafi ərazinin hissəsidir. Bu ərazi cənubda Araz çayından şimalda Kür çayınadək və şərqdə Kürlə Araz çaylarının qovşağından qərbdə Kiçik Qafqaz dağlarının şərq silsiləsinədək torpaqları əhatə edir.

Qədim zamanlardan 19-cu əsrin əvvəllərində ruslar tərəfindən işğal olunanadək Qarabağ ərazisi müxtəlif Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur. 14 may 1805-ci il tarixində Qarabağ xanı İbrahim xan və rus imperatorunun nümayəndəsi Sisianov arasında Kürəkçay müqaviləsi imzalanmışdı. Bu müqaviləyə əsasən, Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçdi.

Şimali Azərbaycan xanlıqlarının - Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla - Rusiya tərəfindən işğalı 12 oktyabr 1813-cü il tarixində Rusiya ilə İran arasında imzalanmış Gülüstan sülh müqaviləsində də öz əksini tapmışdır. 10 fevral 1828-ci il tarixində imzalanmış Türkmənçay müqaviləsinə əsasən isə, Naxçıvan və İrəvan xanlıqları Rusiya tərəfindən işğal edildi.

Gülüstan və Türkmənçay müqavilələrinin imzalanmasından sonra ermənilər kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməyə və Azərbaycan əraziləri süni bölgülərə məruz qalmağa başladı.

Vaxtilə Azərbaycana məxsus ərazilər Rusiya İmperiyası çərçivəsində bir sıra qanunlara uyğun olaraq, müxtəlif inzibati hissələrə parçalandı. Ən son inzibati bölgüyə əsasən, Azərbaycan Bakı, Yelizavetpol və İrəvan quberniyaları və Zaqatala mahalına bölünmüşdü. Yelizavetpol quberniyasına hazırda Ermənistanın hərbi işğalı altında olan ərazilər də daxil idi.

**1905-1907-ci** illərdə ermənilər azərbaycanlılara qarşı irimiqyaslı qanlı aktlar həyata keçirmişlər. Bakıda başlanan vəhşiliklər Azərbaycanın bütün ərazisi və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərinə yayılmışdı. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış və yer üzündən silinmiş, minlərlə dinc əhali vəhşicəsinə qətlə yetirilmişdi.

Birinci Dünya müharibəsi və Rusiyada 1917-ci ilin Fevral və Oktyabr inqilablarından sonra yaranmış vəziyyətdən istifadə edərək, ermənilər bolşevizm bayrağı altında öz məqsədlərini reallaşdırmağa başladılar. Belə ki, əksinqilabçı ünsürlərlə mübarizə şüarları altında 1918-ci ilin mart ayında Bakı kommunası bütün Bakı quberniyasında azərbaycanlıların məhvinə yönəldilmiş planı həyata keçirməyə başladı. Minlərlə azərbaycanlı yalnız öz etnik mənsubiyyətinə görə Bakı ilə yanaşı, Azərbaycanın Şirvan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər

bölgələrində də qətlə yetirilmişdir. Bu ərazilərdə mülki əhali kütləvi şəkildə yandırılmış və milli mədəniyyət abidələri dağıdılaraq məhv edilmişdir.

**28 may 1918-ci il** tarixində Azərbaycan Demokratik Respublikası (ADR), həmin tarixdə də Ermənistan Respublikası yaradılmışdır. ADR-in Müstəqillik Bəyannaməsində qeyd edilir ki, "Bu gündən etibarən Azərbaycan xalqı suveren hüquqlara malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan da müstəqil hüquqi bir dövlətdir".



**1919-cu ilin aprel ayında** Antanta dövlətləri yanvar ayında ADR hökuməti tərəfindən mərkəzi Şuşa olmaqla yaradılmış Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət müvəqqəti Qarabağ general-qubernatorluğu üzərində Azərbaycanın hakimiyyətini və Xosrov bəy Sultanovu qubernator kimi tanıdı. Həmin ildə Dağlıq Qarabağın Erməni Milli Şurası da Azərbaycanın hakimiyyətini rəsmən tanıdı.

**28 aprel 1920-ci il tarixində** Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) yaradılmışdır. Faktlar sübut edir ki, 70 ildən artıq Sovet hakimiyyəti dövründə ermənilər öz ərazilərinin Azərbaycan hesabına genişləndirilməsi və azərbaycanlıların öz tarixi torpaqlarından qovub-çıxarılmasına nail olmuşlar. Məqsədyönlü və sistemli şəkildə həyata keçirilən bu siyasət nəticəsində 1918-1920-ci illərdə 114.000 kv.km ərazisi olan Azərbaycan Sovet dövründə 86.600 kv.km-ə qədər kiçildi.

**30 noyabr 1920-ci il** tarixində Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın tərkibinə daxil edilmişdir. Nəticədə Naxçıvan bölgəsi Azərbaycanın əsas ərazisindən ayrı düşmüşdür.

**13 oktyabr 1921-ci il** tarixində bir tərəfdən Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR və digər tərəfdən Türkiyə arasında Qarsda Rusiya Sovet Federativ Sosialist Respublikasının iştirakı ilə Dostluq haqqında Müqavilə imzalanmışdır. Müqavilənin 5-ci maddəsində Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri razı olduqlarını bildirmişlər ki, "Naxçıvan vilayəti [...] Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir".

**12 mart 1922-ci il tarixindən 5 dekabr 1936-cı il** tarixinədək Azərbaycan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) tərkibinə daxil olmuşdur. Azərbaycanın ZSFSR-ə qəbul olunmasına qədər Yeni Bəyazid qəzasının Basarkeçər bölgəsi Rusiya İmperiyası sərhədlərində və Şərur-Dərələyəz qəzasının üçdə iki hissəsi artıq Ermənistana verilmişdi. Azərbaycan ZSFSR-ə qəbul edildikdən sonra Qazax qəzasının xeyli hissəsi, Cəbrayıl qəzası və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (Naxçıvan MSSR) bir sıra kəndləri Ermənistanın tərkibinə daxil edildi.

Xaricdən gələn ermənilərin yerləşdirilməsi bəhanəsi ilə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixlərində kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-də Kür-Araz ovalığına köçürülməsi haqqında xüsusi qərarlar qəbul etdi. Bu qərarlara əsasən, 1948 və 1953-cü illər ərzində 100 mindən artıq azərbaycanlı zor gücünə öz tarixi doğma torpaqlarından - Ermənistanın dağlıq rayonlarından - o zaman susuz Muğan və Mil çöllərinə köçürülmüşdür.

## AZƏRBAYCAN SSR-in DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti Dağlıq Qarabağa gəldikdə, Ermənistan SSR-in Azərbaycanın bu hissəsinə olan ərazi iddialarına cavab olaraq, 5 iyul 1921-ci il tarixində Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu qərar qəbul etmişdir ki: Müsəlmanlar ilə ermənilər arasında milli sülhün zərurətini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrinin vacibliyini və Yuxarı Qarabağın Azərbaycanla daimi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan Sovet Sosialist Respublikası sərhədlərində saxlanılsın və Şuşa şəhəri inzibati mərkəz olmaqla, Dağlıq Qarabağa geniş muxtariyyət verilsin. 7 iyul 1923-cü il tarixində əhalisinin əksəriyyətini ermənilər təşkil edən Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı. Muxtariyyətin inzibati mərkəzi kimi Xankəndi şəhəri müəyyənləşdirildi. 1923-cü ilin sentyabr ayında şəhərin adı dəyişdirilərək, daşnak və "bolşevik" lideri olan Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırıldı. DQMV-nin sərhədləri elə müəyyənləşdirilmişdi ki, erməni əhalisinin çoxluğu təmin edilsin. 12 yanvar 1989-cu il tarixli əhalinin siyahıya alınmasına əsasən, muxtar vilayətin əhalisinin sayı təxminən 189 min nəfər təşkil etmişdir. Onlardan təxminən 139 mini erməni (73,5 faiz), təxminən 48 mini azərbaycanlı (25,3 faiz) və təxminən 2 mini digər millətlərin nümayəndələri (1,2 faiz) idi. Ermənistanda o vaxt kompakt şəkildə yaşayan 200 000 min azərbaycanlıya isə istər SSRİ-nin mərkəzi hökuməti, istərsə də Ermənistan SSR hökuməti tərəfindən mədəni muxtariyyət verməkdən belə imtina edilmişdir. Dağlıq Qarabağın erməni əhalisinə qarşı ayrı-seçkilik iddialarına gəldikdə, tənqidi araşdırmalar bunun əksini sübut edir: DQMV özünü idarəetmənin bütün əsas elementlərinə sahib idi. Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit olunmuşdur. SSRİ və Azərbaycan SSR Konstitusiyalarına əsasən, DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim edilmiş və 16 iyun 1981-ci il tarixində qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Qanunla tənzimlənirdi. Milli ərazi vahidi kimi DQMV inzibati muxtariyyət formasına və əhalisinin xüsusi tələbatlarının həyata keçirilməsini təmin edən bir sıra hüquqlara malik idi. Keçmiş SSRİ-nin Konstitusiyasına uyğun olaraq, DQMV SSRİ Ali Sovetinin Millətlər Sovetində 5, Azərbaycan SSR Ali Sovetində isə 12 deputatla təmsil olunurdu. DQMV-nin hakimiyyət orqanı olan Xalq Deputatları Soveti geniş səlahiyyətlərə malik idi. O, milli və digər xüsusiyyətləri nəzərə alaraq, vilayətdə yaşayan vətəndaşların maraqları əsasında bütün yerli məsələləri həll edirdi. Erməni dili bütün hökumət, inzibati və məhkəmə orqanları, həmçinin prokurorluğun işində, eyni zamanda vilayət əhalisi əksəriyyətinin dil tələbatını əks etdirən təhsildə də istifadə edilirdi. Erməni dilində yerli televiziya və radio verilişləri, qəzet və jurnalların nəşri təmin edilirdi. 1971-ci ildən 1985-ci ilədək

DQMV-nin inkişafına 483 milyon rubl sərmayə qoyulmuşdu. Bu, ötən 15 ildəkindən 2,8 dəfə artıq idi. 1981-1985-ci illərdə ötən 20 il ərzindəkinə nisbətən adambaşına kapital sərmayələrinin həcmi təxminən 4 dəfə artmışdı. (1961-1965-ci illərdəki 59 rubla qarşı 1981-1985-ci illərdə 226 rubl). Əvvəlki 15 il ərzində Azərbaycanda mənzil tikintisi adambaşına 3.64 kv.m. təşkil edirdisə, DQMV-də bu rəqəm 4.76 kv.m idi. 10 000 nəfər üçün xəstəxana çarpayılarının sayı respublikanın digər rayonlarındakından 15 faiz artıq idi. DQMV məktəbəqədər yerlərin sayına görə respublikanın rayonları arasında nisbətən yüksək yer tuturdu. Belə ki, 1971-1985-ci illər ərzində vilayətdə 10 000 nəfərə düşən uşaq müəssisələrinin sayı respublika üzrə orta göstəricidən 1,4 dəfə artıq idi. Bu həmçinin ümumtəhsil məktəblərində 10 000 nəfər əhaliyə olan yerlərin sayına da aiddir və bu məsələdə DQMV 1,6 dəfə irəlidə idi. Ümumiyyətlə, mənzil mal və xidmətlərin təmin edilməsinə görə DQMV-nin göstəricilərinin respublika göstəricilərindən yüksək olması faktı vilayətin sosial və mədəni inkişafı üçün xarakterik idi. DQMV mənzillərində adambaşı yaşayış sahəsi respublikadakı orta göstəricilərdən təxminən 0,3 dəfə, kənd əhalisinin yaşayış sahəsi isə respublikada kəndlilərə məxsus yaşayış sahəsindən, demək olar, 1,5 dəfə artıq idi. Vilayət əhalisinin daha böyük saylı orta səviyyəli tibbi personalın (1,3 dəfə artıq) xidmətlərindən və xəstəxana çarpayılarından (3 faiz artıq) istifadə etmək imkanı var idi. Mədəni və informasiya xidmətləri göstərən daha geniş şəbəkə (3 dəfə artıq kinoteatr və klub və 2 dəfə artıq kitabxana) mövcud idi. Hər 100 oxucuya 1,6 dəfə artıq kitab və jurnal düşürdü. Əslində DQMV bütövlükdə Azərbaycanla müqayisədə daha sürətlə inkişaf edirdi. Məsələn, 1970-1986-cı illər ərzində respublikada sənaye istehsalı 3 dəfə artdığı halda, DQMV-də 3,3 dəfə artmışdı (artımın sürəti 8,3 faiz yüksək idi). 1986-cı ildə vilayətdə 1970-ci ilə nisbətən 3,1 dəfə artıq daşınmaz əmlak istifadəyə verilmişdi; respublika üzrə bu rəqəm 2,5 idi. Əsas sosial inkişaf göstəricilərinə gəldikdə, DQMV bu sahədə də ümumrespublika yaşayış göstəriciləri standartlarını qabaqlayırdı. Bütün respublikada, o cümlədən vilayətdə mədəniyyət müəssisələrinin inkişafında əhəmiyyətli tərəqqi müşahidə olunurdu. 1988-1989-cu tədris ilində Dağlıq Qarabağda erməni dilini tədris dili kimi istifadə edən 136 orta ümumtəhsil məktəbi (16 120 şagird) və 13 beynəlxalq məktəb (7 045 şagird) mövcud idi. Ümumiyyətlə, Azərbaycanda qeyd olunan tədris ili ərzində 181 erməni (20 712 şagird) və 29 beynəlxalq (12 766 şagird) məktəb fəaliyyət göstərirdi. Xankəndi Dövlət Pedaqoji İnstitutunda əksəriyyəti ermənilərdən ibarət 2 130-dan artıq tələbə Azərbaycan, erməni və rus bölmələrində təhsil alırdı. Bundan əlavə, Dağlıq Qarabağda erməni və rus dillərində təhsil verən onlarla ixtisaslaşdırılmış orta məktəb və peşə hazırlıq məktəbi mövcud idi. Erməni dilində beş müstəqil dövrü nəşr çapdan çıxırdı. Respublikanın dağlıq rayonlarında və paytaxtdan uzaqda yerləşən Azərbaycanın digər inzibati ərazi vahidlərindən fərqli olaraq, DQMV televiziya və radio proqramlarının qəbulu üçün texniki infrastruktur ilə təchiz edilmişdi. Yuxarıda qeyd olunduğu və DQMV-nin Azərbaycanın tərkibində

mövcudluğu və inkişafının göstərdiyi kimi, muxtariyyət forması əhalinin spesifik iqtisadi, sosial, mədəni və milli xüsusiyyətlərini və muxtar regionda həyat tərzini tam şəkildə əks etdirirdi.

## MÜNAQİŞƏNİN HAZIRKI MƏRHƏLƏSİNİN BAŞLANĞICI

Münaqişənin hazırkı mərhələsinin başlanğıcı Ermənistan-Azərbaycan münaqişəsinin hazırkı mərhələsi Xankəndi (Sovet dövründə Stepanakert) və Ermənistanda azərbaycanlılara qarşı 1987-ci ilin sonunda azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə nəticələnən hücumlarla başlandı. 20 fevral 1988-ci il tarixində DQMV-nin Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə keçirilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər. 22 fevral 1988-ci il tarixində Xankəndi-Ağdam şossesində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin yuxarıda qeyd olunan qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açdılar. Nəticədə həlak olan iki azərbaycanlı gənc münaqişənin ilk qurbanları oldular. 26-28 fevral 1988-ci il tarixində Sumqayıt iğtişaşları nəticəsində iyirmi altı erməni və azərbaycanlı öldürüldü. Qeyd etmək lazımdır ki, bu hadisələrin fəal iştirakçılarından biri ermənilərin qətli və onlara qarşı zorakılıqda, ermənilərin yaşadığı rayonlardakı qırğınlarda bilavasitə iştirak etmiş Sumqayıt sakini olan milliyyətcə erməni Eduard Qriqoryan idi. Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət şöbəsinin 22 dekabr 1989-cu il tarixli qərarı ilə Qriqoryan 12 il həbs cəzasına məhkum edildi. Məhkəmə Qriqoryanın iğtişaşlar və qırğınların təşkilatçılarından biri olması barədə qərar qəbul etdi. Şahidlər və hadisə qurbanlarının ifadələri göstərir ki, Qriqoryanda ermənilərin yaşadığı mənzillərin siyahısı var idi və o, digər üç erməni ilə birlikdə ermənilərə qarşı özünün şəxsən iştirakı ilə intiqam aktlarına çağırırdı. Onun qurbanları (hamısı erməni) Qriqoryanı zorakılığın təşkilatçılarından və fəal iştirakçılarından biri kimi tanımışlar. Əslində erməni rəhbərliyinə geniş anti-Azərbaycan kampaniyasına başlama və Azərbaycana qarşı təcavüzkar addımlara bəraət qazandırma vasitəsi kimi zəruri olan Sumqayıt hadisələri əvvəlcədən planlaşdırılmış və hazırlanmışdı. 1988-1989-cu illər ərzində azərbaycanlılar Ermənistanı tərk etməyə məcbur edildilər. Kütləvi deportasiya zamanı ən azı 216 azərbaycanlı öldürülmüş və 1 154 azərbaycanlı yaralanmışdır. Ermənistanlı qaçqınlar - nəticədə təxminən 200 000 nəfər təşkil edərək Azərbaycana gəlməyə başladılar. 23 sentyabr 1989-cu il tarixində Azərbaycan SSR Ali Soveti "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" Azərbaycan SSR-in Konstitusiya Qanununu qəbul etmişdir. Bu qanunun 5-ci maddəsində qeyd edilir ki, "Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla

respublikanın bütün ərazisinə şamil edilir" və "Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər". 1 dekabr 1989-cu il tarixində Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında qərar qəbul etmişdir. 10 yanvar 1990-cı il tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etmişdir. Qərarda Ermənistan SSR ilə Dağlıq Qarabağın Azərbaycan SSR-in razılığı olmadan yenidən birləşdirilməsinin qeyri-qanuni olması bildirilmişdir. 20 yanvar 1990-cı il tarixində Mixail Qorbaçov dövründə Sovet rəhbərliyinin razılığı ilə Sovet ordusunun hissələri Bakıya göndərilmişdir. Onların görünməmiş vəhşiliklə həyata keçirdiyi hərəkətlər nəticəsində yüzlərlə azərbaycanlı öldürülmüş və yaralanmışdır. 1991-ci ildə keçmiş SSRİ-nin mərkəzi hüquq-mühafizə orqanları Dağlıq Qarabağ xaricində fəaliyyət göstərən onlarla erməni silahlı qrupunu həbs etmişdir. Belə ki, Azərbaycanın Xanlar rayonunun Çaykənd kəndi erməni silahlı qrupları tərəfindən cinayətkar mərkəzə çevrilmişdi. Buradan qonşu kəndlər və yollar bombardman edilir və top atəşinə tutulur, yerli azərbaycanlı əhali qorxu və vahimə içində saxlanılırdı. 1989-cu ildən 1991-ci ilədək Çaykənddə və ətraf ərazilərdə 54 nəfər yerli sakin erməni silahlı qruplarının qurbanına çevrilmişdir. 1992-ci ildə Azərbaycan Goranboy rayonu üzərində öz nəzarətini bərpa etmişdir. 30 avqust 1991-ci il tarixində Azərbaycanın Ali Soveti 23 sentyabr 1989-cu il tarixli Konstitusiya Qanununu əsas götürərək, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası tərəfindən bəyan edilmiş dövlət müstəqilliyinin bərpasını elan etdi. 2 sentyabr 1991-ci il tarixində Dağlıq Qarabağ Vilayət və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonu sərhədləri çərçivəsində "Dağlıq Qarabağ Respublikası"nın yaradılması bəyan edildi. 18 oktyabr 1991-ci il tarixində qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı Azərbaycan Respublikasının siyasi və iqtisadi təməlini qoymuşdur. 26 noyabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi haqqında" Qanun qəbul etdi. 1991-ci ilin sonu - 1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi əməliyyatlara başladı. 1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədilmişdir. Xocalı soyqırımı kimi tanınmış bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi yaxud əsir düşməsi ilə nəticələnmiş, şəhər yerlə-yeksan edilmişdir. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş SSRİ-nin 366 saylı motoatıcı alayının köməyi ilə Xocalını ələ keçirdilər. Faciəvi gecəyədək şəhərdə qalmış

Xocalı sakinləri (təxminən 2500 nəfər) hücum başlayandan sonra azərbaycanlıların yaşadığı ən yaxın yerə yol tapmaq ümidi ilə evlərini tərk etməyə cəhd göstərdilər, lakin onların planları puça çıxdı. İşğalçılar Xocalını dağıtdılar və dinc əhalini xüsusi qəddarlıqla qətlə yetirdilər. Xocalının yüzlərlə günahsız sakininin qəddarcasına qətlə yetirilməsi Ermənistan-Azərbaycan münaqişəsi zamanı törədilmiş ən iyrənc cinayətlərdən biri idi. Erməni silahlı qüvvələri və xarici hərbi hissələrin Xocalı və ətraf əraziləri tərk etmək iqtidarında olmayanların, demək olar, heç birinə rəhmi gəlmədi. Nəticədə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüşdür. 1 275 nəfər girov götürülmüş, 150 nəfərin taleyi isə bu günədək naməlum olaraq qalmaqdadır. Faciə zamanı Xocalının 487 sakini, o cümlədən həddi-buluğa çatmamış 76 uşaq ağır xəsarət alaraq şikəst edilmiş, 6 ailə tamamilə məhv edilmiş, 26 uşaq valideynlərinin hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Həlak olanların 56 nəfəri xüsusi qəddarlıqla qətlə yetirilmişdir: diri-diri yandırılmış, başının dərisi tükü ilə birlikdə soyulmuş, boynu vurulmuş, gözləri çıxarılmış və hamilə qadınların qarnı süngülənmişdir. Erməni rəsmiləri laqeydliklə faktları təhrif edərək və reallıqdan uzaq və sadə məntiqə söykənməyən şərhlər verərək, münaqişəyə, o cümlədən Xocalı əhalisinə qarşı törədilmiş cinayətlərə görə məsuliyyətlərini danırlar. Lakin ən məharətli təbliğat belə erməni tərəfinin təqdim etdiyi vəziyyətin tamamilə əksini sübut edən faktları təkzib etmək iqtidarında deyil. Ermənistanın məsuliyyəti Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının mühüm məlumatları ilə yanaşı, çoxsaylı müstəqil mənbələr və faciənin şahidləri tərəfindən sənədləşdirilmiş və soyqırımı törədənlərin bilavasitə etirafı ilə təsdiqlənmişdir. Məsələn, məşhur beynəlxalq terrorçu Monte Melkonyanın qardaşı Makar Melkonyan Xocalıda baş vermiş hadisələri sadəcə olaraq erməni hərbi hissələrində "intizam" və "tabe olmama" probleminin nəticələri kimi qiymətləndirərək, aşağıdakıları qeyd etmişdir: Bir gecə əvvəl, axşam təxminən saat 11:00-da 2 minə yaxın erməni döyüşçüsü hündür otların arası ilə üç istiqamətdən Xocalının içinə doğru irəliləyərək, sakinləri şərq istiqamətindəki açıq yolla getməyə məcbur etdilər. 26 fevral tarixində səhərə yaxın qaçqınlar Dağlıq Qarabağın şərq yüksəkliyinə qalxaraq, təhlükəsizlik üçün təxminən 6 mil məsafədə yerləşən azərbaycanlı şəhəri olan Ağdam istiqamətində aşağıya doğru hərəkət etməyə başladılar. Təhlükəsizlik artıq yaxınlaşmaqda olduğu zaman Dağlıq Qarabağ əsgərləri onları təpəciklərdən aşağı qovdu. "Onlar sadəcə dayanmadan atəş açırdı", - deyə qaçqın Raisə Aslanova "Human Rights Watch" beynəlxalq təşkilatının araşdırmalar aparan nümayəndəsinə bildirmişdi. Sonra ərəb mənşəli döyüşçülər uzun müddət arxa ciblərində gəzdirdiyi bıçaqları çıxararaq, öldürməyə başladılar. İndi yeganə səs quru otları əsdirən külək idi; bu küləyin meyitlərin qoxusunu yayacağı vaxta hələ çox vardı. Monte qadınların və qızların sınmış gəlinciklər kimi səpələndiyi otlar üzərinə xırçıltı ilə əyildi. "Heç bir intizam yoxdur", - deyə donquldandı. O, bu günün tarixinin əhəmiyyətini bilirdi: bu, ermənilərə qarşı Sumqayıt soyqırımının 4-cü

ildönümünün ərəfəsi idi. Xocalı strateji hədəf, eyni zamanda qisas aktı idi. *"Black Garden: Armenia and Azerbaijan through peace and war"* kitabında britaniyalı jurnalist Tomas de Vaal erməni hərbçilərinin sözlərinə istinad edərək yazır: "Bir erməni polis zabiti, mayor Valeri Babayan qisası səbəb kimi irəli sürdü. O, amerikalı jurnalist Pol Kvinn-Caca demişdir ki, Xocalıya hücumda iştirak etmiş döyüşçülərin çoxu "vaxtilə Sumqayıt və bu kimi yerlərdən gəlmişdi". Lakin ən mühümü Ermənistanın hazırkı prezidenti Serj Sarkisyanın baş vermiş hadisələr haqqında dedikləri idi: Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdi ki, onlar bizimlə zarafat edir, onlar zənn edirdi ki, ermənilər əlini dinc əhaliyə qaldıra bilməyən bir xalqdır. Biz bu stereotipin öhdəsindən gələ bildik. Budur, nə baş verdi. Nəzərə almalıyıq ki, o oğlanlar arasında Bakı və Sumqayıtdan qaçmışlar var idi. "Sarkisyanın sözləri qətllərin, ən azı qismən, qorxu yaratma məqsədilə qəsdən törədilmiş kütləvi qətl aktı olmasından xəbər verərək, Qarabağ müharibəsinin ən dəhşətli qırğınına fərqli işıq salır", - deyə Tomas de Vaal fikrini yekunlaşdırır. Yuxarıda qeyd olunmuş faktlar təsdiq edir ki, 25-26 fevral 1992-ci il tarixində Xocalı şəhəri sakinlərinin, o cümlədən uşaqların, yaşlıların və qadınların qəsdən qırğını onların yalnız azərbaycanlı olmaları səbəbindən kütləvi məhvi məqsədini daşıyırdı. İnsanların ürəyinə qorxu salaraq və dəhşətli qırğın qarşısında vahimə və qorxu yaradaraq, Xocalı şəhəri Azərbaycan ərazilərinin sonrakı işğalı və etnik təmizlənməsi üçün mərhələ kimi seçilmişdi. 1992-ci ilin may ayında Şuşa şəhəri və Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Laçın rayonu işğal edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı daha altı rayonunu - Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdilər. Rəsmi Yerevanın Azərbaycan ilə münaqişədə birbaşa tərəf olmamasına dair çoxsaylı bəyanatlarının əksinə olaraq, Ermənistan Respublikasının suveren bir dövlətə qarşı birbaşa hərbi təcavüzünə və əsassız bəyanatlarının əleyhinə şahidlik edən danılmaz dəlillər mövcuddur. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycana qarşı düşmənçilik aktlarında iştirakına dair kifayət qədər fakt vardır. Mövcud faktların hamısını burada qeyd edə bilməsək də, aşağıda ətraflı şəkildə sənədləşdirilmiş dəlillər Ermənistanın Azərbaycana qarşı birbaşa hərbi təcavüzünü sübut edir. Belə ki, 1994-cü ilin yanvar ayında Azərbaycan silahlı qüvvələri Ermənistan Respublikasının 555 saylı (59016 saylı hərbi hissə) əlahiddə motoatıcı alayının bölmələrini döyüşdə məğlub edərək, bir neçə erməni əsgərini əsir götürmüşdü. Döyüş əməliyyatları zamanı ələ keçirilmiş sənədlərdən məlum olmuşdu ki, bu alayın hissələrindən biri Azərbaycanın Kəlbəcər rayonunu işğal etmək istəyən Ermənistan qüvvələrinə kömək məqsədilə 1993-cü ilin aprel ayında Ermənistan Respublikasının Vardenis şəhərindən Kəlbəcərə hücum etmişdir. Azərbaycan Respublikasının Kəlbəcər rayonunda döyüş zamanı ələ keçirilən qənimətlər arasında Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi general-leytenant G.Andresian tərəfindən 555 saylı əlahiddə motoatıcı alayın komandirinə və əməliyyat qrupunun

rəhbərinə ünvanlanmış imzalı döyüş xəritələri və döyüş əmrləri, eləcə də Ermənistan Respublikasının silahlı qüvvələrinin 3-cü əlahiddə motoatıcı briqadasının 3-cü motoatıcı batalyonunun zabitlərinə məxsus döyüş xəritələri aşkarlanmışdır. Bu xəritələrin üzərində əl yazısı ilə 1 aprel 1993-cü il tarixində Azərbaycanın Kəlbəcər rayonunu ələ keçirmək məqsədilə hücum əmri qeyd olunmuşdur. Azərbaycan qoşunları orduya çağırılmış və döyüş əməliyyatlarında iştirak etmək üçün Azərbaycana göndərilmiş Ermənistan Respublikası vətəndaşlarının çoxlu sayda şəxsi sənədini aşkar etmişdir. Bu sənədlər arasında milli pasportlar, Ermənistan Respublikasının müxtəlif hərbi komissarlıqları tərəfindən verilmiş hərbi biletlər, hərbi xidmətə və Ermənistan Respublikasının müxtəlif rayonlarının hərbi komissarlıqları tərəfindən hərbi toplantıda iştiraka dair çağırış vərəqələri, Ermənistan Respublikası Daxili İşlər və Müdafiə Nazirliklərinin rəsmi əməkdaşları üçün kartlar, Ermənistan Respublikasının silahlı qüvvələrində xidmət üçün xüsusi müqavilələr, səyahət kartları, hərbi rütbə verilməsi üçün ərizələr, məzuniyyət və digər sənədləri misal gətirmək olar. 1992-1994-cü illər arasında Azərbaycan Respublikasının əraziləri aşağıda göstərildiyi kimi işğal edilmişdir: 1992-ci ilin may ayı Şuşa rayonu, 1992-ci ilin may ayı Laçın rayonu, 1993-cü ilin aprel ayı Kəlbəcər rayonu, 1993-cü ilin iyul ayı Ağdam rayonu, 1993-cü ilin avqust ayı Füzuli rayonu, 1993-cü ilin avqust ayı Cəbrayıl rayonu, 1993-cü ilin avqust ayı Qubadlı rayonu, 1993-cü ilin oktyabr ayı Zəngilan rayonu. 30 aprel 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı qətnamə qəbul etdi. 29 iyul 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnamə qəbul etdi. 14 oktyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası ATƏM-in Minsk qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq, dərhal qarşılıqlı və zəruri addımlar atılmasını, o cümlədən ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnamə qəbul etdi. 11 noyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası 884 saylı qətnamə qəbul etdi. Qətnamə Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləmiş, Zəngilan rayonu və Horadiz qəsəbəsindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edir. Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin təxminən beşdə biri işğal olunmuş, ölkə daxilində təxminən hər 8 nəfərdən biri köçkün və ya qaçqına çevrilmiş, 20.000 insan həlak olmuş, 50 000 nəfər yaralanmış və ya əlil olmuş və Azərbaycan Respublikasının təxminən 5 000 vətəndaşı indiyədək itkin düşmüşdür. Azərbaycan Respublikasına qarşı təcavüz ölkənin sosial-iqtisadi həyatına ciddi ziyan vurmuşdur. İşğal olunmuş ərazilərdə 871 yaşayış məskəni, o cümlədən 11

şəhər, 12 qəsəbə, 848 kənd, yüzlərlə xəstəxana və tibbi avadanlıq yandırılmış və ya yararsız hala salınmışdır. Yüz minlərlə bina və mənzil, minlərlə ictimai və tibbi bina dağıdılmış və ya qarət edilmişdir. Yüzlərlə kitabxana talan edilmiş, çoxlu sayda dəyərli əlyazma yandırılmış və ya məhv edilmişdir. Bir neçə dövlət teatrı, yüzlərlə klub və çoxlu sayda musiqi məktəbi məhv edilmişdir. Minlərlə emal, kənd təsərrüfatı və başqa tipli fabrik və zavod talan edilmişdir. Yüzlərlə kilometr uzunluğunda suvarma sistemi tamamilə dağıdılmışdır. Yüz minlərlə qoyun və minlərlə mal-qara sürüsü işğal edilmiş ərazilərdən Ermənistana aparılmışdır. Azərbaycan otlaqlarının 70%-i işğal olunmuş ərazilərdə qalmışdır. Bölgə infrastrukturu, o cümlədən yüzlərlə körpü, yüzlərlə kilometr yol, minlərlə kilometr su və qaz kəməri və çoxlu sayda qaz paylama məntəqəsi dağıdılmışdır. Azərbaycana qarşı müharibə həm işğal edilmiş ərazilərdə, həm də Ermənistanda Azərbaycanın mədəni irsinə ciddi ziyan vurmuşdur. İlkin məlumatlara əsasən, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində ölkəyə on milyardlarla ABŞ dolları məbləğində ziyan dəymişdir. 12 may 1994-cü il tarixində atəşkəs imzalanmışdır, lakin Ermənistan atəşkəsi pozmaqda davam edir. 2003-cü ilin yayından etibarən erməni tərəfinin atəşkəsi pozma halları kəskin şəkildə artmışdır. Onlar atəşkəs xətti boyu Azərbaycan əsgərləri ilə yanaşı, ətraf ərazilərdə yaşayan dinc əhaliyə də atəş açır, onları qətlə yetirirlər.

## ERMƏNİ TERRORU

Erməni Terroru 1980-ci illərin sonlarında Azərbaycana qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirdikdən və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində silahlı əməliyyatlara haşladıqdan sonra erməni terroru daha da fəallaşdı və Ermənistanın Azadlığı Uğrunda Gizli Erməni Ordusu, Erməni Soyqırımının Ədaləti Əsgərləri və Erməni İnqilab Ordusu kimi tanınmış terrorçu təşkilatlar öz fəaliyyət mərkəzlərini Yaxın Şərq, Qərbi Avropa və Şimali Amerikadan keçmiş SSRİ məkanına keçirdilər. 1980-ci illərin sonlarından etibarən Ermənistanın xüsusi xidmət orqanı və onunla yaxın əlaqədə olan erməni terrorçu təşkilatları tərəfindən Azərbaycana qarşı (avtomobil və dəmir yolları, dəniz və hava nəqliyyatı və yerüstü kommunikasiyalar) terror aktları nəticəsində çoxu uşaq, qadın və qoca olmaqla, 2 000-dən çox Azərbaycan vətəndaşı qətlə yetirilmişdir. Qeyd etmək lazımdır ki, hələ münaqişə başlamazdan əvvəl 1984-cü ildə Bakıda 106 saylı sərnişin avtobusunun partladılması nəticəsində ikiuşaqlı ana dünyasını dəyişmiş, bir çox adam isə yaralanmışdı. Vartanov soyadlı erməni tərəfindən həyata keçirilən bu terror aktı erməni terrorçularının Azərbaycan ərazisində törətdiyi ilk faciəvi cinayət idi. 1988-ci ilin əvvəllərində Ermənistanda terrorçuluq dövlət siyasəti səviyyəsinə yüksəldi və onun hədəfi Azərbaycan ərazisi oldu. Böyük miqdarda silah və döyüş sursatı Ermənistandan DQMV-yə gətirilir və oradan da Azərbaycanın digər ərazilərindəki gizli terrorçu qruplara ötürülürdü.

Təkcə 1988-ci ildə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən 100-dən çox qeyri-qanuni odlu silah istehsalı və oğurluğu halı qeydə alınmışdır. Həmin il ərzində ermənilər DQMV və Ermənistanla sərhəd rayonlarında qurbanlarının çoxu mülki əhali olan 32 terror aktı törətmişlər. 1988-ci ilin dekabr ayında Ermənistanda zəlzələdən zərər çəkənlərə yardım üçün Bakı-Yerevan istiqamətində uçan hərbi yük təyyarəsi xilasedicilərlə birlikdə Yerevan yaxınlığında səbəbi hələ də açıqlanmayan qəzaya uğramışdır. Qəzanın ehtimal olunan səbəbləri arasında yanğın, Yerevan hava limanının nəqliyyata nəzarət mərkəzi tərəfindən pilotun qəsdən çaşdırılması (dağlıq ərazidə təyyarənin alçaqdan uçmasına görə) və təyyarənin göyərtəsinə bomba qoyulması göstərilir. Bu planlaşdırılmış qəza indiyədək bənzəri olmayan bir hadisədir. Belə ki, o vaxt iki ölkə arasında əlaqələrin pisləşmə üzrə olmasına baxmayaraq, Azərbaycan bu qəzanın qurbanları olacaq 79 nəfəri humanitar yardım üçün Ermənistana göndərmişdi. 27 may 1989-cu ildə Yerevandan Bakıya gələn qatarda Ermənistan vətəndaşı V.Minasyanın üzərindən partlayıcı qurğu aşkar edilmişdir. Qadın öz ifadəsində Bakıda sabotaj gerçəkləşdirmək niyyətində olduğunu etiraf etmişdir. İlk təşəbbüs reallaşa bilməsə də, 24 iyul 1989-cu il tarixində Azərbaycan dəmiryollarına məxsus qatarda Karçevan stansiyasında partlayış baş verdi. 7 oktyabr 1989-cu ildə Xankəndi şəhərinin cənubunda Xəlfəliçay üzərindəki körpü partladıldı. 29 aprel 1992-ci ildə bu terror aktını həyata keçirən A.Abramyan Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən 15 il müddətinə azadlıqdan məhrum edildi. 19 yanvar-17 fevral 1990-cı il tarixləri arasında Yerevan mərkəzli terrorçu qrup Ermənistan ərazisindən Azərbaycanın Qazax rayonunun sərhəd kəndlərinin dinc əhalisinə qarşı çoxsaylı basqınlar həyata keçirmişdir. Bu basqınlar nəticəsində Xeyrımlı və Sofulu kəndlərinin dinc sakinləri və çobanları həlak olmuşlar. Eyni terrorçu qrup Qazax rayonu Daxili İşlər Bölməsinin nəzarət avtomobilinə hücum etmiş və dəmiryolu lokomotivini partlatmağa cəhd etmişdir. Qrupun iki üzvü L.Arutyunyan və A.Mkrtçyan Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən saxlanılmış və Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən uyğun olaraq 5 və 6 il müddətinə azadlıqdan məhrum edilmişdir. 18 fevral 1990-cı il tarixində Yevlax-Laçın yolunun 105 kilometrliyində Şuşa-Bakı şəhərlərarası avtobusun partladılması nəticəsində 13 nəfər ağır xəsarət almışdır. 4 mart 1990-cı il tarixində erməni terrorçuları Şuşa şəhərini içməli su ilə təchiz edən Nəbiyar-Şuşa su kəmərini partlatmışdır. 11 iyul 1990-cı il tarixində Azərbaycanın Mardakert rayonunun Qetavan və Çərəktar yaşayış yerləri arasında, hərbçilərin müşayiəti altında Kəlbəcər şəhərinə insan və əşya daşıyan maşın karvanına silahlı hücum oldu. Bu terror aktı nəticəsində 3 nəfər həlak oldu və 23 insan ağır yaralandı. 19 iyun 1992-ci il tarixində istintaq araşdırmaları nəticəsində cinayəti törədənin A.Ayrıyan olduğu müəyyənləşdirildi və Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən ölüm cəzasına məhkum edildi. 10 avqust 1990-cı il tarixində erməni terrorçuları Azərbaycanın Xanlar rayonunda Tbilisi-Ağdam istiqamətində hərəkət

edən şəhərlərarası avtobusu partladaraq, 20 sərnişinin ölümünə, 30 sərnişinin isə yaralanmasına səbəb oldular. Bu terror aktını törədənlər Ağdam-Tbilisi avtobusunu partlatma planlarını həyata keçirməyə nail olmadan 17 iyun 1991-ci il tarixində yaxalandılar. Azərbaycan Respublikası Ali Məhkəməsi A.Avanesyan və M.Tatevosyanı bu cinayətlərdə təqsirli bilərək, onlara, uyğun olaraq, ölüm və 15 il müddətinə azadlıqdan məhrum etmə cəzası verdi. 1990-cı ilin noyabr ayında Ermənistanın Eçmiədzin rayonunun sakinlərindən ibarət Erqraparx terror təşkilatının üzvü M.Qriqoryan tərəfindən yaradılan terrorçu qrup Azərbaycan ərazisinə göndərildi. Bu qrup terror və sabotaj aktlarına təşəbbüs edərkən, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən tərksilah edildi. Azərbaycan Respublikası Ali Məhkəməsi 18 iyun 1991-ci il tarixində bu qrup üzvlərindən T.Xaçaturyana 9, Z.Oqanyana 8 və A.Qriqoryana 7 il müddətinə həbs cəzası verdi. 9 yanvar 1991-ci il tarixində Laçın-Şuşa yolunun 5 kilometrliyində Qaladərəsi kəndi ərazisində, erməni terrorçuları tərəfindən Gəncə şəhərinin 44688 saylı hərbi hissəsinə məxsus UAZ-469 avtomobilinin yandırılması nəticəsində sürücü serjant İ.İ.Qoeki, kəşfiyyat batalyonunun komandiri polkovnik-leytenant A.P.Larionov, SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Hissələrinin Komanda Mərkəzinin 3505 saylı hərbi hissəsinin baş qərargah rəisi mayor İ.D.İvanov və "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri 1969-cu il təvəllüdlü bir uşaq anası S.A.Əsgərova həlak oldu. Azərbaycan Respublikası Ali Məhkəməsi 23 mart 1993-cü il tarixində bu cinayəti hazırlayanları: A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan, Q.Arutyunyan və Q.Arustamyanı qeyd olunan cinayətdən başqa digər terror aktları və qətllərin həyata keçirilməsində təqsirli bilərək, ölüm cəzasına məhkum etmiş, terrorçu qrupun digər üzvlərini isə müxtəlif müddətlərə azadlıqdan məhrum etmişdir.

30 may 1991-ci il tarixində Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarının Xasavyurd stansiyasında (Dağıstan) partladılması nəticəsində 11 nəfər həlak olmuş, 22 nəfər isə ağır şəkildə yaralanmışdır. 1991-ci ilin may ayında Azərbaycan Respublikasının hüquq-müharizə orqanları Şəmkir stansiyasında Bakı-Tbilisi istiqamətində hərəkət edən sərnişin qatarında Ermənistanın Noyemberyan rayonunun sakini S.Aznaryanı saxlayaraq, onun üzərindən iki ədəd mina, bir ədəd odlu silah və Azərbaycanın dəmiryol və avtomobil yolu şəbəkəsinin xəritələrini aşkarlamışlar. 31 iyul 1991-ci il tarixində Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarının Temirqau stansiyasında (Dağıstan) partladılması nəticəsində 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Azərbaycanın hüquq-mühafizə orqanları Azərbaycan Respublikasının Kəlbəcər rayonunun sakinlərinə 2 avqust 1991-ci il tarixində silahlı basqın etmiş Ermənistanda yerləşən "Urartu" terror təşkilatının iki üzvü A.Tatevosyan və V.Petrosyanı saxlayaraq, tərksilah etmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsi terrorçuları, uyğun olaraq, 10 və 8 il müddətinə azadlıqdan məhrum etmişdir. 20 noyabr 1991-ci il tarixində Azərbaycan Respublikası Xocavənd rayonu Qarakənd kəndi yaxınlığında Rusiya, Qazaxıstan

və Azərbaycanın yüksək səviyyəli rəhbərlərindən ibarət sülhyaratma qrupunun nümayəndələrini daşıyan Mi-8 vertalyotu vuruldu. Üç ölkənin dövlət xadimləri də daxil olmaqla, 22 nəfərin ölümü Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün ilk təşəbbüsü boşa çıxardı və bölgədə zorakılığın artmasına səbəb oldu. 8 yanvar 1992-ci il tarixində erməni terrorçuları Azərbaycan Xəzər Dəniz Gəmiçilik İdarəsinə məxsus gəmilərə qarşı terror aktları həyata keçirdilər. Krasnovodsk-Bakı istiqamətində hərəkət edən "Sovetskaya Kalmıkiya" gəmisinin partladılması nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər yaralandı. Həmin ildə "Sabit Orucov" adlı gəmiyə partlayıcı qurğu yerləşdirmə təşəbbüsünün qarşısı vaxtında alındı. 28 yanvar 1992-ci il tarixində Ağdam-Şuşa istiqamətində uçan mülki vertalyotun Azərbaycanın Şuşa şəhəri üzərində erməni terrorçuları tərəfindən vurulması nəticəsində çoxu qadın və uşaq olmaqla, heyətlə birlikdə 41 nəfər həlak oldu. 28 fevral 1993-cü il tarixində Bakı-Kislovodsk sərnişin qatarının Qudermes stansiyasında (Dağıstan) partladılması nəticəsində 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

2 iyun 1993-cü il tarixində Bakı dəmiryolu vağzalının ehtiyat yolunda sərnişin vaqonu partladıldı. 22 iyul 1994-cü il tarixində Azərbaycan Respublikası Ali Məhkəməsi bu cinayətə görə Rusiya vətəndaşı, Kaliningrad əyalətinin Slavski rayonunun Qastelovo kənd sakini və "Demokratiçeskiy Tilzit" qəzetinin müxbiri İ.Xatkovskini təqsirli bilərək, 8 il azadlıqdan məhrum etdi. İstintaq araşdırmaları nəticəsində məlum olmuşdur ki, İ.Xatkovski Ermənistan milli təhlükəsizlik idarəsinin kəşfiyyat xidməti tərəfindən nəqliyyat, kommunikasiya və həyat əhəmiyyətli xidmət vasitələrinin partladılması, məxfi məlumatların toplanması və Rusiya Federasiyası ərazisində terror aktlarının törədilməsinə dair ətraflı göstərişlər almışdır. 1 fevral 1994-cü il tarixində Kislovodsk-Bakı sərnişin qatarının Bakı vağzalında partladılması nəticəsində 3 nəfər həlak olmuş, 20-dən çox insan isə yaralanmışdır. 9 aprel 1994-cü il tarixində Xudat stansiyasında vaqon partladılmışdır. 17 mart 1994-cü il tarixində Azərbaycanın işğal olunmuş əraziləri üzərində İran İslam Respublikasının C-130 tipli yük təyyarəsi Ermənistan silahlı qüvvələri tərəfindən vurulmuş, nəticədə 32 nəfər İran vətəndaşı həlak olmuşdur. 19 mart 1994-cü il tarixində Bakı metrosunda vaqonlardan birinə erməni terrorçuları tərəfindən yerləşdirilən bombanın partlaması nəticəsində 14 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdır. 26 mart 1994-cü il tarixində Azərbaycanın dəmiryolu işçilərinin sayıqlığı nəticəsində Qazıməmməd stansiyasında partlayıcı qurğu aşkarlanmış və digər bir fəlakət baş vermədən qarşısı alınmışdır. 13 aprel 1994-cü il tarixində Moskva-Bakı sərnişin qatarının "Daqestanskiye Oqni (Rusiya Federasiyası) stansiyasında partladılması nəticəsində 6 nəfər həlak olmuş, 3 nəfər isə yaralanmışdır. 3 iyul 1994-cü il tarixində Bakı metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında qatarın partladılması nəticəsində 14 nəfər həlak olmuş, 54 nəfər isə yaralanmışdır.

## MÜNAQİŞƏNİN HÜQUQİ ASPEKTLƏRİ

Münaqişənin hüquqi aspektləri Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün Ermənistan rəsmiləri tez-tez Dağlıq Qarabağın heç zaman müstəqil Azərbaycanın yurisdiksiyasında olmaması məsələsini qaldırırlar. Bundan əlavə, rəsmi Yerevanın fİkrincə, Dağlıq Qarabağın 1991-ci ildə SSRİ-nin parçalanması prosesində Azərbaycandan ayrılması və "Dağlıq Qarabağ Respublikası"nın yaradılması qanuni şəkildə baş vermişdir. Mövqelərini əsaslandırmaq üçün onlar əsasən "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun müddəalarına istinad edir. Bu Qanuna əsasən, müttəfiq respublika tərəfindən Qanunla nəzərdə tutulmuş ayrılma proseduru həyata keçiriləcəyi təqdirdə, muxtar qurumlar SSRİ və ya ayrılan respublika tərkibində qalıb-qalmama barədə müstəqil qərar qəbul etmək, eləcə də öz dövlət-hüquqi statusu məsələsini qaldırmaq hüququ əldə edir. Bundan əlavə, Ermənistan iddia edir ki, Azərbaycan SSRİ-nin varisi olmaqdan imtina etdiyinə görə, onun Sovet dövrü sərhədlərinə iddia etməsinə heç bir əsas yoxdur. Ermənistan tərəfi həmçinin tez-tez beynəlxalq hüququn xalqların öz müqəddəratını təyinetmə prinsipinə istinad edərək, onu Dağlıq Qarabağın erməni əhalisinin birtərəfli qaydada ayrılmasına da şamil etməyə cəhd göstərir. Yuxarıda qeyd olunduğu kimi, 20 fevral 1988-ci il tarixində DQMV Xalq Deputatları Sovetinin iclasında erməni icmasının nümayəndələri Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə DQMV-nin Azərbaycan SSR-dən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi haqda tələb ünvanladılar. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, müttəfiq respublikaların sərhədlərinin dəyişdirilmə qaydaları SSRİ və müttəfiq respublikaların konstitusiyalarında təsbit edilmişdir. Belə ki, SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin təsdiqi nəticəsində mümkün ola bilər. Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR Konstitusiyalarında da öz əksini tapmışdı. DQMV Xalq Deputatları Sovetinin 20 fevral 1988-ci il tarixli tələbinə cavab olaraq, 15 iyun 1988-ci il tarixində Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi qərarına razılığını ifadə edən və SSRİ Ali Sovetindən vilayətin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini nəzərdən keçirməyi və təsdiq etməyi xahiş edən qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti və onun Rəyasət Heyəti 13 və 17 iyun 1988-ci il tarixlərində qəbul etdiyi qərarlarda SSRİ Konstitusiyasının 78-ci və Azərbaycan Konstitusiyasının 70-ci maddələrini əsas gətirərək, DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsini qəbuledilməz və qeyri-mümkün elan etdi. Müttəfiq respublikalar arasında sərhəd dəyişikliyinin mümkünlüyünü müzakirə etmək üçün ciddi bir əsas olmadığını və SSRİ Konstitusiyasının müddəaları və

Azərbaycan SSR və Ermənistan SSR-in qüvvədə olan Əsas Qanunlarını nəzərə alaraq hesab etmək olardı ki, bu məsələ artıq bağlanmışdır. Buna baxmayaraq, 12 iyul 1988-ci il tarixində DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qeyri-qanuni bir qərar qəbul etdi. Buna cavab olaraq, 13 iyul 1988-ci il tarixində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR Konstitusiyalarına, eləcə də Azərbaycan SSR-in "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Qanununa əsaslanaraq, DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin 12 iyul 1988-ci il tarixli qərarının qeyri-qanuni və heç bir hüquqi qüvvəsi olmadığını bəyan edən qərar qəbul etdi. 16 avqust 1989-cu il tarixində "Dağlıq Qarabağ Muxtar Vilayəti Əhalisinin Səlahiyyətli Nümayəndələrinin Konqresi" öz iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etdiyini birmənalı şəkildə bəyan etdi. Eyni zamanda "Konqres" DQMV-ni Azərbaycan SSR Konstitusiyası və respublikanın digər qanunlarının işləmədiyi "müstəqil ittifaq ərazisi" elan etdi. "Konqres" DQMV-də müstəsna xalq hakimiyyətini bəyan edən "milli şura" yaratdı. Gözlənildiyi kimi, Azərbaycan tərəfinin reaksiyası gecikmədi. 26 avqust 1989-cu il tarixində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ Muxtar Vilayəti Əhalisinin Səlahiyyətli Nümayəndələrinin Konqresi"nin qərarını qeyri-qanuni elan edən qərar qəbul etdi. Əlbəttə, Ermənistan SSR də DQMV-nin Azərbaycan SSR-dən alınmasının qanunvericilik vasitəsilə rəsmiləşdirilməsi cəhdlərində fəal iştirak edirdi. Ermənistan SSR Ali Sovetinin 15 iyun 1988-ci il tarixli qərarından başqa, bu müttəfiq respublikanın ali qanunverici orqanı konstitusiyaya zidd çoxlu sayda digər qərarlar qəbul etmişdir. Onlardan ən mühümü "Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında" 1 dekabr 1989-cu il tarixli qərardır. Ermənistan parlamentinin Dağlıq Qarabağa dair bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirilməsini qanuniləşdirməyə və digər dövlətin ərazisində konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş açıq cəhdlərindən xəbər verən bu və bir çox digər qərarları fonunda Ermənistanın Azərbaycan ərazilərinin işğalında iştirak etməməsi ilə bağlı bu gün rəsmi Yerevanın səsləndirdiyi bəyanatlar ən azından təəccüb doğurur. Məlum olduğu kimi, Azərbaycan və Ermənistan müstəqillik əldə etməmişdən və münaqişənin həlli beynəlxalq təşkilatlara həvalə olunmamışdan əvvəl arbitr rolunu SSRİ-nin mərkəzi orqanları oynayırdı. 1980-ci illərin axırlarında DQMV-ni Azərbaycandan ayıraraq Ermənistana birləşdirməyə yönəlmiş qeyri-qanuni qərarların qəbulu ilə əlaqədar olaraq, SSRİ Ali Soveti və onun Rəyasət Heyəti Dağlıq Qarabağdakı böhranla bağlı vəziyyəti dəfələrlə müzakirə etmişdir. Keçmiş SSRİ-nin ali dövlət orqanının bütün qərarları, xüsusilə də 10 yanvar və 3 mart 1990-cı il tarixli qərarları Azərbaycan SSR və Ermənistan SSR arasındakı sərhədlərin və konstitusiya ilə müəyyən edilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməz olduğunu

birmənalı şəkildə bəyan etmişdir. Beləliklə, Dağlıq Qarabağın Azərbaycan SSR-dən Ermənistan SSR xeyrinə 20 fevral 1988-ci il tarixində başlayan ayrılma prosesi SSRİ Konstitusiyasının açıq şəkildə pozulması ilə müşayiət olunurdu və bu səbəbdən heç bir hüquqi nəticə doğurmadı. Erməni tərəfinin Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını qanuniləşdirməyə yönəldilmiş növbəti cəhdi - 2 sentyabr 1991-ci il tarixində "Dağlıq Qarabağ Respublikası"nı elan etməsi bizim şərhimizin doğruluğuna açıq şəkildə şahidlik edir. Ermənilər hesab edir ki, bu addımın hüquqi əsası qismində "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu çıxış edir. Erməni tərəfi əmindir ki, "Dağlıq Qarabağ Respublikası"nın yaradılması beynəlxalq hüquq standartları baxımından qüsursuzdur. Onların fikrinə görə, Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi tarixdə "Dağlıq Qarabağ Respublikası" artıq onun tərkib hissəsi deyildi. Lakin bəsit təhlil belə qeyd olunan "qüsursuzluğ"un hüquqi baxımdan ciddi şübhələr doğurduğunu göstərir. İlk növbədə qeyd etmək lazımdır ki, 3 aprel 1990-cı il tarixli Qanunun məqsədi müttəfiq respublikaların SSRİ-dən ayrılacağı təqdirdə riayət etməli olduqları xüsusi qaydalar yaratmaqla, SSRİ daxilində qarşılıqlı əlaqələri tənzimləməkdən ibarət idi. Müttəfiq respublikanın ayrılma barədə qərarı həmin respublika əhalisinin referendum yolu ilə azad şəkildə ifadə olunmuş iradəsinə əsaslanmalı idi ki, bu qərar da daha sonra müttəfiq respublikanın ali qanunverici orqanı tərəfindən təsdiq olunmalı idi. Eyni zamanda, həmin Qanuna əsasən, muxtar qurumları olan müttəfiq respublikalarda referendum qurumların hər birində ayrı-ayrılıqda keçirilməli idi. Bu qurumların əhalisi SSRİ yaxud ayrılan müttəfiq respublika tərkibində qalıb-qalmamaq məsələsi barədə müstəqil qərar vermək, eləcə də özlərinin dövlət-hüquqi statusu məsələsini qaldırmaq hüququna malik idi. 3 aprel 1990-cı il tarixli Qanunda təsbit edilmiş qaydalara riayət olunmalı olduğunu fərz etsək, bir müttəfiq respublikanın SSRİ-dən ayrılma cəhdinin necə nəticələnəcəyini anlamaq çətin deyil. Bu səbəbdən 3 aprel 1990-cı il tarixli Qanunun məhdudlaşdırdığı məhz xalqların öz müqəddəratını təyinetmə kimi hüququn hədsiz istifadəsinin müdafiəçiləri tərəfindən bu Akta istinad edilməsi təəccüb doğurur. Xüsusilə qeyd etmək lazımdır ki, müttəfiq respublikanın SSRİ-dən ayrılması yalnız mürəkkəb və çoxmərhələli prosedurun yerinə yetirilməsi və nəhayət, SSRİ Xalq Deputatları Sovetinin müvafiq qərarının qəbulundan sonra qanuni hesab edilə bilər. Bununla belə, Sovet İttifaqı beynəlxalq hüququn subyekti olaraq mövcudluğunu dayandırana kimi sözügedən Qanunun hüquqi qüvvəsi yox idi, çünki heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan SSRİ-dən ayrılmaq üçün orada təsbit olunmuş qaydalardan istifadə etməmişdi. 26 noyabr 1991-ci il tarixinə kimi DQMV-nin əhatə etdiyi ərazi Azərbaycan Respublikası müstəqilliyini tam əldə edənə və beynəlxalq ictimaiyyət tərəfindən tanınana qədər Azərbaycanın tərkib hissəsi idi. SSRİ-nin dağılmasından sonra uti possidetis juris beynəlxalq hüquq doktrinası yeni müstəqil dövlətlərin sərhədlərinin milli, regional və

beynəlxalq legitimliyinin əsasını təşkil edir. Sözügedən doktrinaya əsasən, Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri beynəlxalq sərhədlər olaraq tanındı və beynəlxalq hüququn mühafizəsi altına alındı. Bu anlayış Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf ərazilərindəki münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının yuxarıda bəhs edilən dörd qətnaməsində də öz əksini tapmışdır. Xalqların öz müqəddəratını təyinetmə hüququna gəldikdə isə, məlumdur ki, müvafiq beynəlxalq sənədlərdə təsbit edildiyi kimi, bu hüququn təcrübədə reallaşdırılması əslində birtərəfli ayrılmanı deyil, dəqiq müəyyən edilmiş məhdudiyyətlər çərçivəsində beynəlxalq və daxili qanunlara uyğun olaraq həyata keçirilən qanuni prosesi nəzərdə tutur. Sözsüz ki, qeyd olunan münaqişədə öz müqəddəratını təyinetmə məsələsinin həyata keçirilməsində əsas amil ondan ibarətdir ki, Azərbaycan ərazisinin bir hissəsinin qoparılmasına yönəldilmiş bütün fəaliyyət konstitusiyaya zidd idi və beynəlxalq hüququn əsas, xüsusilə də güc tətbiq edilməsini və ərazi ələ keçirilməsini qadağan edən qaydalarının pozulması ilə müşayiət olunurdu. Azərbaycanın öz müqəddəratını təyinetmə hüququna yanaşması onun əsl dəyərindən qaynaqlanır və Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmasının dinc birgə yaşayışı və əməkdaşlığının təmin edilməsini və onların ictimai həyatda iştirakı üçün öz hüquqlarının səmərəli şəkildə, o cümlədən bütün səviyyələrdə legitim regional hakimiyyətin formalaşdırılması yolu ilə reallaşdırılması üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur.

## AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ VƏZİYYƏT

Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət Ermənistan ya birbaşa öz silahlı qüvvələri ya da onun hərbi yaxud digər dəstəyi sayəsində mövcud olan separatçı rejim vasitəsilə Dağlıq Qarabağ və digər işğal etdiyi ərazilərə nəzarəti həyata keçirir. Ermənistan hərbi təcavüzün əlverişli nəticələrindən yararlanaraq, hazırkı status quo vəziyyətini qoruyub-saxlamağa və möhkəmləndirməyə və öz doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlı əhalinin geri qayıtmasının qarşısını almağa yönəlmiş fəaliyyəti ilə fait accompli vəziyyəti yaratmağa çalışır. Belə fəaliyyətə, digərləri ilə yanaşı, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma və mülkiyyət hüquqlarının ciddi və sistemli şəkildə pozulması ilə müşayiət olunan iqtisadi fəaliyyətin davam etdirilməsini misal gətirmək olar. Erməni mənbələri də daxil olmaqla, bir çox informasiya mənbəyinə əsasən, Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərinə, o cümlədən Laçın, Kəlbəcər, Zəngilan və Cəbrayıl rayonlarına on minlərlə sakin köçürülmüşdür. Ermənistan işğal olunmuş ərazilərdə erməni əhalisinin sayını 2010-cu ilədək 143 000-dən 300 000 nəfərədək artırmaq niyyətindədir. Faktlar sübut edir ki, bütün bu fəaliyyət işğal olunmuş ərazilərin ilhaqı məqsədilə

mütəşəkkil qaydada həyata keçirilir. İşğal olunmuş ərazilərindəki bu fəaliyyətin uzağı hədəfə alan nəticələrindən ehtiyatlanaraq həyəcan təbili çalan Azərbaycan məsələnin BMT-nin Baş Məclisində müzakirəsini xahiş etdi. Bu təşəbbüs Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli, tam və hərtərəfli nizamlanmasına yalnız beynəlxalq hüququn forma və məzmununa tam və birmənalı hörmət əsasında nail olunmasına güclü inamdan irəli gəlirdi. 29 oktyabr 2004-cü il tarixində BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara aldı. 11 noyabr 2004-cü il tarixində Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə (A/59/568) BMT Baş Məclisinə təqdim olundu. Gündəlikdəki bu bəndin BMT Baş Məclisində müzakirə olunması Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşma məsələsinə diqqətin cəlb edilməsi, eləcə də bu təhlükəli təcrübəyə son qoyulması üçün təcili tədbirlərin görülməsinə başlanmasında mühüm rol oynadı. ATƏT-in faktaraşdırıcı missiyasının 30 yanvar - 5 fevral 2005-ci il tarixlərində işğal olunmuş ərazilərə səfəri Azərbaycanın BMT Baş Məclisinin 59-cu sessiyasının gündəliyinə işğal olunmuş ərazilərdəki vəziyyət barədə məsələ daxil etməsinin məntiqi nəticəsi idi. Missiyanın fəaliyyətinin əsas nəticəsi Azərbaycan tərəfinin təqdim etdiyi və bölgədə vəziyyətin araşdırılmasından əldə olunan ətraflı faktlara söykənən məruzə oldu. Missiya işğal olunmuş ərazilərdə yeni yaşayış məntəqələri salınması faktını təsdiqləyərək, Azərbaycanın narahatlığına şərik oldu. ATƏT-in Minsk qrupunun həmsədrləri öz növbəsində faktaraşdırıcı missiyanın məruzəsinə əsaslanaraq, bölgənin demoqrafik tərkibində dəyişiklik edilməsinin yolverilməzliyini vurğuladı və müvafiq beynəlxalq təşkilatları işğal olunmuş ərazilərdə yerləşdirilmiş əhalinin köçürülməsi və öz yurd-yuvalarından didərgin salınmış insanların doğma yurdlarına qayıtmaları üçün lazımi tədbirləri görməyə çağırdı. Faktaraşdırıcı missiyanın məruzəsi və ATƏT-in Minsk qrupu həmsədrlərinin ona əsaslanan tövsiyələri problemin sonrakı müzakirəsi və həlli üçün əsas oldu. Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət BMT Baş Məclisinin sonrakı iclaslarında da gündəlikdə olmuşdur. 7 sentyabr 2006-cı il tarixində BMT Baş Məclisi işğal olunmuş ərazilərdə baş vermiş kütləvi yanğın halları ilə əlaqədar Azərbaycanın təklif etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı (A/RES/60/285) qətnaməni qəbul etdi. BMT Baş Məclisinin qətnaməsi ətraf mühitlə bağlı təcili əməliyyatların həyata keçirilməsinin zəruriliyini qeyd edərək, yanğınların bölgənin ətraf mühitinə qısa və uzunmüddətli təsirinin qiymətləndirilməsinə və aradan qaldırılmasına çağırdı. Bu məqsədlə, qətnamə tərəflərin əməkdaşlığa hazır olduğunu vurğulayaraq, BMT sisteminin təşkilat və proqramlarını, xüsusilə də BMT-nin Ətraf Mühit Proqramını ATƏT-lə əməkdaşlıq etməyə çağırdı. ATƏT-in 4-12 oktyabr 2006-cı il tarixlərində həyata keçirdiyi faktaraşdırıcı missiyası yanğınların zərər çəkmiş ərazilərin ətraf mühitinə qısa və uzunmüddətli ziyanını dəyərləndirdi və "yanğınların ətraf mühit və iqtisadiyyata zərər verdiyini və insan sağlamlığı və təhlükəsizliyinə təhlükə

yaratdığını" təsdiq etdi. 14 mart 2008-ci il tarixində BMT Baş Məclisi özünün 62-ci sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair A/RES/62/244 saylı qətnamə qəbul etdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətrafındakı silahlı münaqişənin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törətdiyindən ciddi narahatlıq kcçirən BMT Baş Məclisi Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, bütün erməni qoşunlarının Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Baş Məclis, eyni zamanda, işğal olunmuş ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu bir daha təsdiq etdi. Qətnamə həmçinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarına Azərbaycan Respublikası tərkibində səmərəli demokratik özünüidarə sistemi yaratmağa imkan verəcək normal, təhlükəsiz və bərabər əsaslarda yaşama şəraitinin təmin edilməsinin zəruriliyini dilə gətirdi. Baş Məclis Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini və işğal olunmuş ərazilərə heç bir dövlətin yardım göstərə bilməyəcəyini də qeyd etdi. Bütün bunlara baxmayaraq, digər hərbi işğal hallarında olduğu kimi, Ermənistan işğal olunmuş ərazilərdə "seçkilər" və "referendumlar" keçirərək, işğal etdiyi ərazilərdə baş verənlərlə bağlı öz rolunu ört-basdır etməyə çalışır. Buna misal olaraq 10 dekabr 2006-cı il tarixli "konstitusiya referendumu"nu və 19 iyul 2007-ci il tarixli "prezident seçkiləri"ni göstərmək olar. Beynəlxalq ictimaiyyət bu kimi qeyri-qanuni hallar və onların sülh prosesinə mənfi təsiri ilə bağlı özünün birmənalı və prinsipial mövqeyini ifadə etmiş, eləcə də Azərbaycanın ərazi bütövlüyünə hörmətini bir daha təsdiq etmişdir.

## MÜNAQİŞƏNİN NİZAMLANMA PROSESİ

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi (ATƏM) çərçivəsində başlamışdır. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən 24 mart 1992-ci il tarixli əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zaman ərzində böhranın ATƏM-in prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə həlli istiqamətində danışıqlar üçün forumu təmin edəcək Dağlıq Qarabağa dair konfransın çağırılması qərara alındı.

Ümumiyyətlə, münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır.

Yuxarıda qeyd olunduğu kimi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri

Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqlədi. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. BMT Təhlükəsizlik Şurası ATƏT-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə yönəlmiş səylərini bəyənərək, ATƏT-in Minsk prosesi çərçivəsində münaqişənin həlli yollarının axtarılmasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi razılaşmanın əldə olunması məqsədilə danışıqlar aparmaq tapşırığı verdi. Sözügedən siyasi razılaşma münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk konfransının çağırılmasına imkan verməli idi. Sammit həmçinin silahlı münaqişənin dayandırılmasına dair tərəflər arasında saziş əldə edildikdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi və sülhyaratma əməliyyatlarını hazırlayan Vyana mərkəzli Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) yaradılması ilə bağlı qərar qəbul etdi. YSPQ 1993-cü ilin may ayında yaradılan İlkin Əməliyyat Planlaşdırma Qrupunu (İƏPQ) əvəz etdi.

23 mart 1995-ci il tarixində ATƏT-in fəaliyyətdə olan sədri Minsk prosesinin həmsədrlərinə mandat verdi (DOC.525/95). 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyə etdi, lakin Ermənistan bu prinsipləri qəbul etmədi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət oldu. ATƏT-in fəaliyyətdə olan sədri sözügedən prinsipləri ehtiva edən bəyanatla çıxış etdi. Həmin prinsiplər aşağıdakılardır:

- *Azərbaycan Respublikası və Ermənistan Respublikasının ərazi bütövlüyü;*
- *Dağlıq Qarabağın öz müqəddəratını təyinetmə hüququna əsaslanan sazişlə müəyyən olunmuş və ona Azərbaycan daxilində ən yüksək özünüidarəetmə statusu verən hüquqi statusu;*
- *Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinə, o cümlədən nizamlamanın müddəalarını bütün tərəflərin yerinə yetirəcəyi ilə bağlı qarşılıqlı öhdəliklərə dair zəmanət.*

Lissabon sammitindən sonra 1997-ci ildə Fransa, Rusiya və ABŞ-dan ibarət həmsədrlik institutu yaradıldı (1992-ci ildən Minsk konfransına İtaliya (1992-1993), İsveç (1994), Rusiya (1995) və Finlandiya (1995-1996) sədrlik etmişlər).

1997-ci ilin aprel ayından etibarən həmsədrlərin bölgəyə səfərləri intensiv xarakter almağa başladı. 1 iyun 1997-ci il tarixində həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair hərtərəfli saziş layihəsini təqdim etdilər. Həmin layihəyə əsasən, silahlı münaqişə dayandırılmalı və Dağlıq Qarabağın statusuna dair razılaşma əldə edilməli idi. Azərbaycan tərəfinin sözügedən sənədlərin mahiyyəti ilə bağlı konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan tərəfi təklif olunan yanaşmanı qəti şəkildə rədd etdi.

19-23 sentyabr 1997-ci il tarixlərində həmsədrlər bölgəyə səfərləri zamanı münaqişənin "mərhələli həlli"nə əsaslanan yeni təklif təqdim etdilər. Bu təkliflər ilk mərhələdə 6 rayonun işğaldan azad olunması, ATƏT-in sülhyaratma əməliyyatlarının başlaması, köçkünlərin azad olunmuş ərazilərə qayıtması və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə Laçın və Şuşa məsələləri həll olunmalı, Dağlıq Qarabağın statusunun əsas prinsipləri qəbul olunmalı və nəticədə ATƏT-in Minsk konfransı çağırılmalı idi.

10 oktyabr 1997-ci il tarixində Strasburqda Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanatla çıxış edərək, "həmsədrlərin son təkliflərinin Minsk qrupu çərçivəsində danışıqların bərpa edilməsi üçün ümidverici baza" olduğunu bildirdilər. Lakin 1998-ci ilin fevral ayında Levon Ter-Petrosyanın istefası və 1998-ci ilin mart ayında Robert Köçəryanın hakimiyyətə gəlişindən sonra həmsədrlərin bölgəyə növbəti səfəri zamanı Ermənistan rəsmi olaraq, münaqişənin "mərhələli" həlli təkliflərinə dair razılığını geri götürdü.

9 noyabr 1998-ci il tarixində həmsədrlər "ümumi dövlət" konsepsiyasına əsaslanan yeni təklif irəli sürdülər. Bu konsepsiyaya əsasən, Dağlıq Qarabağ respublika formasında dövlət və ərazi vahidi statusu əldə etməli və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanla birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan bu təklifləri onun suverenliyinə və Lissabon prinsiplərinə zidd olması səbəbindən rədd etdi. Bundan sonra heç bir yeni təklif irəli sürülmədi və Minsk prosesi çıxılmaz vəziyyətə düşdü. Danışıqlar prosesinə təkan vermək üçün 1999-cu ilin aprel ayından etibarən Azərbaycan və Ermənistan prezidentləri arasında münaqişənin həllinə nail olunması məqsədilə birbaşa görüşlər başladı.

ATƏT-in Minsk qrupunun həmsədrləri 2002-ci ilin mart ayında bölgəyə səfərləri zamanı danışıqlar prosesinin Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsi təklifini irəli sürdülər. Bu təklif hər iki dövlət başçısı tərəfindən qəbul olundu. 13-15 mart və 29-30 iyul 2002-ci il tarixlərində Praqa yaxınlığında hər iki dövlət başçısının xüsusi

nümayəndələrinin iki görüşü keçirildi. 2004-cü ildən etibarən "Praqa prosesi" çərçivəsində Azərbaycan və Ermənistan Xarici işlər nazirləri arasında birbaşa danışıqlar başladı.

25 yanvar 2005-ci il tarixində Avropa Şurasının Parlament Assambleyası "ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı 1416 saylı qətnamə qəbul etdi. Parlament Assambleyası qətnamədə Azərbaycan ərazisinin böyük bir hissəsinin işğal olunduğunu bir daha təsdiq edərək, etnik düşmənçilik və onu müşayiət edən hərbi əməliyyatların çoxlu sayda insanın etnik əsasda qovulmasına və monoetnik ərazilərin yaradılmasına gətirib çıxardığına dair narahatlığını ifadə etdi. Assambleya Avropa Şurasının üzvü olan bir dövlətin digər dövlətin ərazisini işğal etməsinin həmin dövlətin üzvlük öhdəliklərini kobud şəkildə pozması demək olduğunu açıq şəkildə bəyan edərək, münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz və ləyaqətlə geri qayıtması hüququnu bir daha təsdiq etdi. Assambleya həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, münaqişə tərəflərini onları yerinə yetirməyə, xüsusilə də işğal olunmuş ərazilərdən hərbi qüvvələri çıxarmağa çağırmışdır.

2006-cı ilin may ayında ATƏT-in Minsk qrupunun hazırkı həmsədrlik institutu yaradılan vaxtdan etibarən ilk dəfə olaraq, həmsədr ölkələrin Xarici işlər nazirlərinin müavinlərindən ibarət birgə missiya bölgəyə səfər etmişdir. Səfərin məqsədi Dağlıq Qarabağa dair razılıq əldə edilməsi üçün 2006-cı ilin mühüm "imkan pəncərəsi" yaratdığını hər iki ölkə prezidentlərinin diqqətinə çatdırmaqdan ibarət idi. ATƏT-in Minsk qrupu həmsədrləri 22 iyun 2006-cı il tarixində ATƏT-in Daimi Şurasına məruzə təqdim etdilər. Onlar məsələyə aydınlıq gətirərək bəyan etdilər ki, yanaşmalarının məqsədi münaqişənin bütün aspektlərinin bir mərhələdə həlli deyildi. Həmsədrlərin sözlərinə görə, qeyd olunan prinsiplərlə mümkün ən yüksək tərəqqiyə nail olmaq, lakin bəzi ən çətin məsələləri sonraya saxlayaraq danışıqlar aparmaq nəzərdə tutulurdu. Buna baxmayaraq, həmsədrlər bəyan etdilər ki, prezidentlər razılığa gələ bilmədikləri üçün onlar bu prinsiplərin müəyyənləşdirilməsi, ifadə edilməsi və yekunlaşdırılması işində öz yaradıcılıqlarının zirvə nöqtəsinə çatmışlar. Həmsədrlər bildirdilər ki, əgər tərəflər irəli sürülmüş prinsiplərə dair razılığa gələ bilmirsə, onda onları qane edə biləcək alternativ razılaşmaya nail olunması məqsədilə birlikdə çalışmalıdırlar. Həmsədrlər hazırkı mərhələdə intensiv "məkik diplomatiyası"nın davam etdirilməsinə və prezidentlərin yeni görüşlərinə heç bir zərurət görmədiklərini diqqətə çatdırdılar.

Minsk qrupu həmsədrlərinin bəyanatına və danışıqlar prosesi ilə bağlı reallıqları ənənəvi olaraq təhrif etməyə çalışan Ermənistan tərəfinin qeyd olunan bəyanata dair şərhlərinə cavab olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi məsələyə aydınlıq gətirərək onu da bildirdi ki, Azərbaycan ərazilərinin davam edən işğalı və etnik təmizləmə şəraitində Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun hüquqi statusunun müəyyən edilməsi mümkün deyildir. Bunun üçün Azərbaycan əraziləri işğaldan azad edilməli, münaqişə zonası

demilitarizasiya olunmalı, müvafiq beynəlxalq təhlükəsizlik zəmanəti təmin edilməli və zorla didərgin salınmış azərbaycanlı əhali öz evinə qayıtmalıdır. Azərbaycan tərəfi Dağlıq Qarabağa Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində və Konstitusiyasına uyğun olaraq, ən yüksək səviyyəli özünüidarəetmə statusu verməyə hazır olduğunu bir daha bəyan etdi. Xarici İşlər Nazirliyi bölgənin gələcək inkişafını nəzərə alaraq, beynəlxalq təcrübədə mövcud olan presidentlərə uyğun şəkildə obyektiv şəraitin yaradılması məqsədilə münaqişədən əvvəlki etnik tərkibin bərpasından sonra Dağlıq Qarabağın əhalisi üçün iqtisadi və digər stimulların yaradılmasını nəzərdən keçirməyə hazır olduğunu bildirmişdir. Bununla yanaşı, XİN bölgədə ədalətli və daimi sülhün əldə olunması üçün Azərbaycanın danışıqların davam etdirilməsinin tərəfdarı olduğunu bir daha bəyan etmişdir.

13 iyul 2007-ci il tarixində ATƏT-in Minsk qrupu həmsədrləri 9 iyun 2007-ci il tarixində İlham Əliyev və Robert Köçəryan arasında Sankt-Peterburqda keçirilən görüşdən sonra münaqişənin həlli prosesində yaranmış vəziyyəti qiymətləndirən bəyanat yaydılar. Həmsədrlər bəyan etdilər ki, prezidentlərin görüşü zamanı, əsas etibarilə münaqişənin sülh yolu ilə həllinin "əsas prinsiplər"inə dair razılaşma ilə bağlı məhdud sayda əngəllər müzakirə edilmiş və tərəflər mövqe fərqləri səbəbindən razılığa gələ bilməmişlər. Həmsədrlər bəyanatlarında Azərbaycan və Ermənistanın bir qrup ziyalısının Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionuna, eləcə də Bakı və Yerevana birgə səfər təşəbbüsünə toxunaraq, onu bəyəndiklərini və yüksək qiymətləndirdiklərini qeyd edərək, bu təşəbbüsü ilk etimadyaratma addımı adlandırdılar.

2 noyabr 2008-ci il tarixində Azərbaycan, Ermənistan və Rusiya prezidentləri Moskvada Bəyannamə imzaladılar. Bəyannamədə "münaqişənin nizamlanması beynəlxalq hüququn norma və prinsipləri, eləcə də bu çərçivədə qəbul edilmiş qərar və sənədlərə əsaslanmalı olduğu" vurğulanır. Digər sənədlərlə yanaşı, buraya 1993-cü il BMT Təhlükəsizlik Şurasının, eləcə də 2006 və 2008-ci il BMT Baş Assambleyasının məlum qətnamələri daxildir. Bununla yanaşı, Bəyannamədə vurğulanır ki, münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan həlli regionda iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradacaqdır. Beləliklə bu sənəd Ermənistanın münaqişənin son həlli və onun əsas nəticələrinin aradan qaldırılmasından öncə regional əməkdaşlığa üstünlük verilməsi ilə bağlı iddialarını heçə endirir.

2009-cu il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə aparılan danışıqlar daha intensiv xarakter almışdır. Belə ki, ATƏT-in Minsk Qrupunun Həmsədrlərinin iştirakı ilə Ermənistan və Azərbaycan Prezidentləri 6 dəfə, Ermənistan və Azərbaycan xarici işlər nazirləri isə 3 dəfə görüş keçirmişlər.

2009-cu ilin 22 noyabr tarixində Münhendə keçirilmiş Azərbaycan və Ermənistan Prezidentlərinin görüşündə bir neçə məsələ ilə bağlı tərəflərin mövqelərində yaxınlaşma istiqamətində irəliləyiş əldə olunmuşdur.

2009-cu ilin 1-2 dekabr tarixlərində Afinada ATƏT-in Nazirlər Şurasının 17-ci iclası çərçivəsində ATƏT-in Minsk Qrupunun Həmsədr ölkələrinin nümayəndələri -Rusiya və Fransanın xarici işlər nazirləri, eləcə də ABŞ Dövlət Katibinin müavini birgə bəyanatla çıxış etmişlər. Bundan əlavə, ATƏT-in Nazirlər Şurası Ermənistan-Azərbaycan münaqişəsinə dair Bəyanat qəbul etmişdir. Sözügedən bəyanatlarda münaqişənin nizamlanması prosesinin vacib elementi kimi, tərəflər arasında imzalanmış Moskva Bəyannaməsi və Helsinki Yekun Aktında təsbit olunmuş əsas prinsiplər göstərilir.

## MÜNAQİŞƏNİN HƏLLİNƏ DAİR AZƏRBAYCANIN MÖVQEYİ

Münaqişənin həllinə dair Azərbaycanın mövqeyi ATƏT çərçivəsində uzun sürən vasitəçilik səylərinin heç də həmişə ardıcıl olmamasına və nəticə verməməsinə baxmayaraq, Azərbaycan münaqişənin sülh yolu ilə konstruktiv həllinə tərəfdar olmaqda davam edir. Azərbaycan hökumətinin məqsədi bütün işğal olunmuş ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz evlərinə qayıtması və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də bütün Cənubi Qafqaz regionunda sabitlik və davamlı sülhün bərqərar olmasına nail olmaqdır. Nizamlama prosesinin əsas məqsədi Dağlıq Qarabağın Azərbaycan daxilində statusunu işləyib-hazırlamaq, onun modelini və hüquqi çərçivəsini müəyyən etməkdir. Azərbaycan tərəfi inanır ki, hər hansı statusun müəyyən edilməsi prosesi bölgənin bütün əhalisinin, o cümlədən erməni və azərbaycanlı icmalarının birbaşa, tam və bərabər iştirakı ilə normal sülh və onların Azərbaycan hökuməti ilə hüquqi və demokratik proseslər çərçivəsində konstruktiv qarşılıqlı əlaqəsi şəraitində baş tutmalıdır. Münaqişə tərəflərinin Dağlıq Qarabağın Azərbaycan daxilində özünüidarə statusunun müzakirələrinə başlaması mərhələsinə çatması üçün bir sıra mühüm addımlar atılmalıdır. Birinci, münaqişənin həlli kontekstindən hərbi işğal amili kənarlaşdırılmalıdır. Tutarlı səbəblər olmadan ərazilərin geri qaytarılmasının gecikdirilməsi onsuz da çətin olan nizamlama prosesini mürəkkəbləşdirə bilər. İkinci, bölgədə münaqişədən əvvəlki demoqrafik vəziyyət bərpa olunmalıdır. Məlum məsələdir ki, Dağlıq Qarabağın statusu yalnız və yalnız erməni və azərbaycanlı icmalarının yanaşı yaşayışı şəraitində və hər iki icmanın birbaşa iştirakı ilə müəyyən oluna bilər. Üçüncü, Dağlıq Qarabağın yeni özünüidarə statusu işlənib-hazırlananadək Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə erməni icmasının yerli hakimiyyət orqanları arasında qarşılıqlı əlaqə yaradılmalıdır. Dördüncü, bölgə iqtisadi cəhətdən inkişaf etdirilməli və bərpa olunmalıdır. Bu, həyatı normallaşdırma prosesi və iki icmanın dinc yanaşı yaşaması və əməkdaşlığının bərpası üçün mühüm addımdır. Buraya iki icma, eləcə də Azərbaycan və Dağlıq Qarabağın mərkəzi hakimiyyət orqanları arasında iqtisadi əlaqələrin bərpası və inkişafı, hər iki istiqamətdə hər iki tərəfin qarşılıqlı istifadəsi üçün kommunikasiyaların bərpası və açılması da daxildir. Belə olacağı təqdirdə,

Dağlıq Qarabağ bölgəsinin erməni əhalisi Ermənistanla, Azərbaycan da Laçın dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə əlaqə qurmaq imkanı əldə edəcəkdir. Beşinci, iki icma arasında humanitar sahədə əməkdaşlıq, təhsil və dözümlülük kimi xüsusi proqramlar həyata keçirilməlidir. Azərbaycan və Ermənistan arasında imzalanmalı olan sülh sazişinin yerinə yetirilməsinə gəldikdə, o, həmin sazişlə hər iki tərəfin üzərinə götürdüyü öhdəliklər, eləcə də böyük dövlətlər və beynəlxalq təşkilatlar da daxil olmaqla, müvafiq beynəlxalq zəmanətlərlə təmin edilməlidir. Aydındır ki, sülh prosesinin müvəffəqiyyəti həmçinin tərəflərin konstruktiv yanaşmasından, eləcə də beynəlxalq ictimaiyyətin, xüsusilə də ATƏT-in Minsk qrupu həmsədrlərinin fəal yardımından asılıdır. Bununla belə, Ermənistanın məsələ ilə bağlı tutduğu mövqe üzündən nəzərəçarpan müsbət dəyişikliyə ümid etmək çox çətindir. Əslində münaqişənin lap başlanğıcından Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün məqsədi güc yolu ilə ərazi ələ keçirmək və işğal edilən ərazilərin demoqrafik tərkibini dəyişmək olmuşdur. Məhz birtərəfli ayrılmaya nail olmaq məqsədilə, Ermənistan Dağlıq Qarabağ ətrafındakı bəzi işğal olunmuş rayonlar üzərində nəzarəti saxlamaq istəyir, azərbaycanlı köçkünlərin öz yurd-yuvalarına qayıtmasının qarşısını alır və beləliklə də hər iki icmanın fikirlərinin bərabər əsasda nəzərdən keçirilməsini əngəlləyir. Aydındır ki, Ermənistanın məsələyə bu cür yanaşması münaqişənin həlli üçün möhkəm təməl rolunu oynaya bilməz. Vəziyyətin bu cür saxlanılması qanunun aliliyi və insan hüquqlarının pozulmasının nəticələrini qəbul etmək, yaxud başqa sözlə desək, zorakılığın ədalət üzərində qələbə çalması demək olardı. Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həllinə tərəfdar olsa da, ərazi bütövlüyü məsələsində əsla güzəştə getməyəcək və beləliklə də münaqişənin Ermənistan tərəfinin zorla qəbul etdirməyə çalışdığı "fait accompli", yəni baş tutmuş fakt anlayışı əsasında həllini qəbul etməyəcək. Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət, eləcə də Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının demokratiya və inkişafdan tam və bərabər qaydada yararlanaraq dinc yanaşı yaşaması əsasında həll oluna bilər. Münaqişənin tezliklə həlli üçün konkret perspektivin olmaması və "nə sülh, nə də müharibə" vəziyyətinin davam etməsi Azərbaycanın demokratik təhlükəsizliyi, müstəqilliyi və inkişafına daimi və birbaşa təhdiddir. Bu, eyni zamanda bütün Cənubi Qafqaz regionunda qeyri-sabitliyin əsas mənbəyidir.




















Azərbaycanın işğal edilmiş əraziləri
Dağlıq Qarabağ bölgəsi
Şuşa rayonu
Dağlıq Qarabağın ətrafındakı işğal edilmiş rayonlar
Təcavüzün qurbanları
Dağıdılanlar və dəymiş zərər
GÜRCÜSTAN
TBİLİSİ
RUSİYA
AZƏRBAYCAN
Xəzər dənizi
BAKI
ERMƏNİSTAN
YEREVAN
TÜRKİYƏ
İRAN
Naxçıvan (Azərbaycan)
Naxçıvan
Qaçqınlar və məcburi köçkünlər




































































XOCALI
SOYQIRIMINI
UNUTMAYAQ!!!









**Erməni əsirliyindən qurtaran Azərbaycanlı qadın üzərində edilmiş insanlıqdankənar hərəkətin izləri...**















**"Mağara – 150", 1978-ci ildə ermənilərin İran ərazisindən ilk olaraq Qarabağa köçürülməsinin 150 illiyinə ucaldılmış memorial**



**Həmin memorial 1988-ci ildə erməni millətçiləri tərəfindən tarixin izini silmək üçün törədilmiş vandalizm nəticəsində məhv edilmişdir.**



**Ermənistandan, öz doğma ata-baba torpaqlarından zorla qovulmuş, didərgin salınmış azərbaycanlı qaçqınlar**





**1990-cı il 20 Yanvar tarixində SSRİ ordusunun Bakıda törətdiyi qətliama dair iki foto**
















**Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından,yurdlarından və evlərindən zorla çıxarılan Azərbaycanlı qaçqın və məcburi köçkünlər**






1988-1993-cü İLLƏRDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ
GÜRCÜSTAN
RUSİYA
Xəzər dənizi
AZƏRBAYCAN
ERMƏNİSTAN
AZƏRBAYCAN
TÜRKİYƏ
İRAN
TBİLİSİ
YEREVAN
BAKI
Azərbaycanın işğal olunmuş əraziləri
Dağlıq Qarabağ
Şuşa
Ətraf rayonlar
Təcavüzün qurbanları
Dağıntılar və ziyanlar



























**Azərbaycanın işğal altındakı bölgələrində olan vəziyyət**



**KİTABIN İÇİNDƏKİLƏR**

ƏZİZ OXUCU!....................................................................................................3

XOCALI SOYQIRIMI ZAMANI ..............................................................................6

XOCALI - ƏSAS HƏDƏF .......................................................................................6

FACİƏNİN XRONİKASI .........................................................................................7

XOCALI SOYQIRIMI ZAMANI ŞƏHİD OLANLAR ..........................................8

XOCALI SOYQIRIMI QURBANLARININ AİLƏ ÜZVLƏRİNİN ACI XATİRƏLƏRİ...26

ANANIN GÖZ YAŞLARI... ....................................................................................37

XOCALI SOYQIRIMI ZAMANI ŞƏHİD OLAN UŞAQLAR.............................49

XOCALI SOYQIRIMI ZAMANI TAMAMİLƏ MƏHV OLAN AİLƏLƏR ......................52

BİR NƏSLİN İTKİSİ ..............................................................................................54

XOCALI SOYQIRIMI ZAMANI BİR VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARIN SİYAHISI ....................................................................................................................55

XOCALI SOYQIRIMI ZAMANI VALİDEYNLƏRİ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN QƏTLƏ YETİRİLMİŞ VƏ HƏMİN QƏTLİAMIN ŞAHİDİ OLMUŞ UŞAQLARIN XATİRƏLƏRİ ..........................................................63

XOCALI SOYQIRIMI ZAMANI ERMƏNİSTAN TƏRƏFİNDƏN ƏSİR VƏ GİROV GÖTÜRÜLMÜŞ, İTKİN DÜŞMÜŞ VƏ BU GÜNƏDƏK TALEYİ MƏLUM OLMAYAN XOCALI SAKİNLƏRİNİN SİYAHISI.............................................................64

ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN ƏSİR VƏ GİROV GÖTÜRDÜYÜ, İŞGƏNCƏLƏR VERDİYİ VƏ AZƏRBAYCANIN, BEYNƏLXALQ TƏŞKİLATLARIN DƏSTƏYİ İLƏ XEYLİ MÜDDƏT SONRA ÇOX ÇƏTİNLİKLƏ GERİ ALA BİLDİYİ XOCALI SAKİNLƏRİNİN DƏHŞƏT SAÇAN ƏSİRLİK XATİRƏLƏRİ:........................70

BİR DAHA ƏSİRLƏR VƏ ƏSİRLİKDƏ YAŞANANLAR HAQQINDA.........................81

SÖZ YENƏ ŞAHİDLƏRİNDİR.................................................................................83

XOCALI SOYQIRIMI: ŞAHİDLƏR DANIŞIR!.........................................................86

XOCALI SOYQIRIMININ ŞAHİDİ OLMUŞ UŞAQLARIN DƏHŞƏT SAÇAN XATİRƏLƏRİ.........................................................................................................88

İKİNCİ HƏYAT.......................................................................................................90

MƏHKƏMƏ-TİBB EKSPERTİNİN "RƏYİ"NDƏN BİR NEÇƏ SÖZ..............................92

366-CI ALAY...........................................................................................................93

XOCALI DÖYÜŞÜNÜN MİLLİ QƏHRƏMANLARI......................................................94

XOCALI SOYQIRIMI İLƏ BAĞLI XARİCİ KİV-LƏRİN MƏLUMATLARI ................112

ERMƏNİSTAN LİDERLƏRİNİN VƏ ERMƏNİLƏRİN ÖZLƏRİNİN ETİRAFLARI ...118

ƏZİZ XOCALILAR!........................................................................................124

XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNƏ SÜKUT DƏQİQƏSİ ELAN EDİLMƏSİ HAQQINDA.................................................................................125

AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI..............................................................125

PREZİDENT İLHAM ƏLİYEV: XOCALI FACİƏSİ ERMƏNİ MİLLƏTÇİLƏRİNİN YÜZİLLİKLƏR BOYU TÜRK VƏ AZƏRBAYCAN XALQLARINA QARŞI APARDIĞI SOYQIRIMI VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİNİN QANLI SƏHİFƏSİ İDİ..........130

PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMININ 15-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT EDİB ..............................131

TARİX UNUTMAYACAQDIR..........................................................................132

XOCALI SOYQIRIMININ 15 İLLİYİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BƏYANATI ....................................................132

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KONQRESİNƏ MÜRACİƏTİ...............................................136

ERMƏNİ TƏCAVÜZÜ. TARİXİ VƏ SİYASİ MƏLUMAT ...........................................138

AZƏRBAYCAN SSR-in DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ..........................141

MÜNAQİŞƏNİN HAZIRKI MƏRHƏLƏSİNİN BAŞLANĞICI .....................................143

ERMƏNİ TERRORU.........................................................................................148

MÜNAQİŞƏNİN HÜQUQİ ASPEKTLƏRİ.........................................................152

AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ VƏZİYYƏT.......................155

MÜNAQİŞƏNİN NİZAMLANMA PROSESİ ..........................................................157

MÜNAQİŞƏNİN HƏLLİNƏ DAİR AZƏRBAYCANIN MÖVQEYİ ..............................162

**QƏNİRƏ PAŞAYEVA**
**HƏVVA MƏMMƏDOVA**

# XOCALI SOYQIRIMI

Şahidlərin dilindən

«Elm və təhsil» nəşriyyatının direktoru: *professor* Nadir MƏMMƏDLİ

Dizayn: Tural Əhmədov

Texniki redaktor: Rövşanə Nizamiqızı

Yığılmağa verilmiş **05.02.2011.**

Çapa imzalanmış **23.02.2011.**

Şərti çap vərəqi **18**. Sifariş **№ 40.**

Kağız formatı **70x100 1/16. Tiraj 500.**

**Kitab «Elm və təhsil»** nəşriyyat-poliqrafiya

müəssisəsində səhifələnib çap olunmuşdur.

**E-mail: elm_ve_tehsil@box.az**

Tel: 497-16-32; 050-311-41-89

Cııvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.